KHAZAR REVIEW

XƏZƏR XƏBƏR

№ 412 Dekabr 2021



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



QS WORLD UNIVERSITY RANKINGS

QS EECA UNIVERSITY RANKINGS | 2022

qs.com

Khazar University

#211-220

in QS Emerging Europe and Central Asia (EECA) University Rankings 2022

December 2021

Ben Sowter, Senior Vice-President,
QS Quacquarelli Symonds

XƏZƏR UNİVERSİTETİ BEYNƏLXALQ REYTİNQ CƏDVƏLLƏRİNDƏ AZƏRBAYCAN UNİVERSİTETLƏRİ ARASINDA LİDERDİR

2021-ci il dekabrın 2-də baş ofisi Parisdə yerləşən, beynəlxalq aləmdə geniş nüfuza malik EDUNİVERSAL təşkilatı dünyanın ən yaxşı biznes məktəblərinin rəsmi reytinqini dərc edib.

Reytinq cədvəlində Xəzər Universitetinin İqtisadiyyat və Menecment Fakültəsi Azərbaycanın biznes məktəbləri arasında 1-ci yeri tutub.

Bu reytinq cədvəli EDUNİVERSAL Elmi Komitə üzvləri tərəfindən beynəlxalq təsir, reputasiya və təhsil keyfiyyəti kimi meyarlar əsasında müəyyən edilir.

Mənbə: https://www.eduniversal-ranking.com/eduniversal-ranking-agency.html

Dekabr ayının 15-də daha bir reytinq cədvəli – QS Reytinq Agentliyinin (Böyük Britaniya) "İnkişaf etməkdə olan Şərqi Avropa və Mərkəzi Asiya" regionu üzrə yeni reytinq cədvəli açıqlanıb.

Reytinq cədvəlində Xəzər Universiteti yenə Azərbaycan universitləri arasında 1-ci yeri tutub. Reytinq cədvəlinə Azərbaycandan 7 ali məktəb daxil edilib:

1. **Xəzər Universiteti - 211-220 (Azərbaycan üzrə ən yüksək göstərici)**
2. **UNEC – 221-230**
3. **BDU – 251-300**
4. **ADA Universiteti – 301-350**
5. **AzMİU – 401-450**
6. **ADNSU – 401-450**
7. **BMU – 401-450**

QS Reytinq cədvəli ali məktəblərdə müəllimlərin təcrübəsi, işəgötürənlər arasında nüfuz, akademik nüfuz və s. meyarlar üzərində tərtib edilib.

Mənbə: https://www.topuniversities.com/university-rankings/eeca-rankings/2022

Dünyanın nüfuzlu reytinq cədvəllərində yer alan ali məktəblərimizi təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.

KHAZAR UNIVERSITY IS LEADER AMONG AZERBAIJANI UNIVERSITIES IN INTERNATIONAL RANKINGS

On December 2, 2021, the world-renowned organization EDUNIVERSAL, headquartered in Paris, published an official ranking of the best business schools in the world.

In the rankings, School of Economics and Management of Khazar University's ranks first among Azerbaijani business schools.

This ranking table is determined by the members of the EDUNIVERSAL Scientific Committee on the basis of criteria such as international influence, reputation and quality of education.

Source: https://www.eduniversal-ranking.com/eduniversal-ranking-agency.html

On December 15, another rating table - QS Rating Agency (UK) announced a new ranking for the region "Emerging Eastern Europe and Central Asia".

In the ranking table, Khazar University again took the first place among Azerbaijani universities. The ranking includes 7 universities from Azerbaijan:

Khazar University - 211-220 (highest rate in Azerbaijan)
UNEC - 221-230
BSU - 251-300
ADA University - 301-350
AUAC - 401-450
ASOIU - 401-450
BEU - 401-450

The QS Rating Table is based on the experience of teachers in universities, reputation among employers, academic reputation etc.

Source: https://www.topuniversities.com/university-rankings/eeca-rankings/2022

We congratulate our universities, which are included in the world's prestigious rankings, and wish them success in their activities.

İÇİNDƏKİLƏR

Pedaqoq Nailəxanım İsayeva bu il dünyasını dəyişmiş məşhurların siyahısında ...6
2020-2021-ci illər ərzində Xəzər Universitetinin uğurlarına həsr olunmuş tədbir ...7
Xəzər Universitetində 50-ci məzunluq mərasimləri keçirildi ...10
"Xəzər" ölkə mediasında ...14
BAMF-da Azərbaycanın ilk "3Zero" klub üzvləri ilə görüş ...16
Universitetin ombudsmanı tələbələrlə görüşdü ...17
Xəzər Universitetinin rəhbərliyi təhsil nazirinin müavininin iştirakı ilə keçirilən onlayn görüşdə ...20
"Xəzər"in tələbəsi "*Girls Making Change*" sosial layihəsinin qalibi oldu ...21
ASAAİ "Asiya -Sakit okeanın bilinməyən tərəfi" mövzusunda beynəlxalq tədbir keçirdi ...22
Professor, akademik Hamlet İsaxanlının Nizami Gəncəviyə həsr olunmuş ustad dərsi ...28
İstanbul Aydın Universitetinin rəhbərliyi ilə görüş ...30
Erasmus+ Ecar layihəsi çərçivəsində Fransa səfəri ...34
Hamlet İsaxanlı. Son görüş olmayaydı... ...40
Xəzər Universiteti və "Dünya" məktəbi IV Türkiyə universitetlərinin təhsil sərgisində ...55
Üsküdar Universitetinin nümayəndələri ilə görüş ...56
Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Sakit okean alyansının konfrans zalının açılış mərasimində ...57
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri ...58
Xəzər Universitetində Beynəlxalq Nizami Gəncəvi konfransı ...62
"Xəzər"in beynəlxalq əlaqələri ...68
Seminar: "Peşakar mühasib setifikatı" ...70
"Xəzər"in ölkə nəşrləri ...74

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Zamirə Qurbanova

Kompüter tərtibatçısı:
Günel Əkbərova

CONTENTS

Pedagogue Nailakhanım İsayeva is on the List of Famous Figures who Passed Away this Year 6
Event Dedicated to the Success of Khazar University in 2020-2021 7
Khazar University Hosted 50th Graduation events 11
"Khazar" in Country`s Media....14
IEPF Hosted Meeting with members of Azerbaijan`s First "3ZERO" Club 16
The University Ombudsman Met With Students....17
Khazar University Administration Attends Online Meeting With Deputy Minister of Education 20
Khazar University Student Wins *"Girls Making Change"* Social Project 21
IAPAS Holds Event on "Hidden`Dimension of the Asia-Pacific"....22
Professor, Academician Hamlet İsakhanlı`s Master Class Dedicated to Nizami Ganjavi 28
Meeting with Aydın University Administration 30
Visit to France within the *Erasmus+ Ecar* Project....34
Khazar University and Dunya School at the 4th Turkish Universities Fair 55
Meeting with Representatives of Uskudar University....56
Khazar University Vice Rector for İnternational Relations at the Opening Ceremony of the Pacific Alliance Conference Hall 57
International Nizami Ganjavi Conference at Khazar University 63
"Khazar"s İnternational Relations 68
Seminar: "Professional Accountant Cerificate" 70
"Khazar" in Country publication 74
"Khazar"s foreign publications 76

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isakhanli

Associate editor:
Alirza Balayev

Photo:
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zamira Gurbanova

Computer graphics:
Gunel Akbarova



PEDAQOQ NAİLƏXANIM İSAYEVA BU İL DÜNYASINI DƏYİŞMİŞ MƏŞHURLARIN SİYAHISINDA

2021-ci il dekabrın 22-də *publika.az* və digər saytlar "2021-ci ildə itirdiyimiz məşhurlar" başlığı ilə bu il dünyasını dəyişmiş məşhur simalarla bağlı məlumatları fotoları ilə birlikdə dərc edib.

Əlliyədək məşhurun siyahısında aprelin 3-də vəfat etmiş "Dünya" məktəbinin həmtəsisçisi, qurucu direktoru, Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının humanitar və təşkilati işlər üzrə müşaviri olmuş Nailəxanım İsayeva da təqdim olunur.

https://publika.az/news/hadise/380157.html

PEDAGOGUE NAILAKHANIM ISAYEVA IS ON THE LIST OF FAMOUS FIGURES WHO PASSED AWAY THIS YEAR

On December 22, 2021, *publika.az* and other sites published information about famous figures who died this year, along with photos, under the heading "Famous figures we lost in 2021."

Nailakhanim Isayeva, the co-founder and founding director of Dunya School and former adviser on humanitarian and organizational affairs to Khazar University's Board of Directors and Trustees, who died on April 3, is included in this list as well.

https://publika.az/news/hadise/380157.html

ÖLKƏ MEDİASI XƏZƏR UNİVERSİTETİNİN BEYNƏLXALQ REYTİNQ CƏDVƏLLƏRİNDƏ AZƏRBAYCAN UNİVERSİTETLƏRİ ARASINDA LİDERLİYİ HAQQINDA XƏBƏR YAYIMLAMIŞDIR

KHAZAR UNIVERSITY'S LEADERSHIP AMONG AZERBAIJANI UNIVERSITIES IN INTERNATIONAL RANKINGS IN COUNTRY MEDIA

Ölkənin 30-dək mətbuat, informasiya agentliyi, xəbər portalı və saytları EDUNİVERSAL təşkilatının reytinq cədvəlində Xəzər Universitetinin İqtisadiyyat və Menecment Fakültəsinin Azərbaycanın biznes məktəbləri arasında 1-ci yeri tutması və QS Reytinq Agentliyinin cədvəlində Xəzər Universitetinin yenə Azərbaycan universitləri arasında liderliyi haqqında xəbər yayımlamışdır:

About 30 media outlets, news agencies, news portals and websites reported that Khazar University's School of Economics and Management ranked first among Azerbaijani business schools in the EDUNIVERSAL ranking table and that Khazar University was again the leader among Azerbaijani universities in the QS Rating Agency table:

https://azertag.az/xeber/Xezer_Universiteti_beynelxalq_reytinq_cedvellerinde_Azerbaycan_uzre_liderdir-1956310

https://azpolitika.info/?p=656072

https://www.baki-xeber.com/sosial/132596.html və s.





2020-2021-Cİ İLLƏR ƏRZİNDƏ XƏZƏR UNİVERSİTETİNİN UĞURLARINA HƏSR OLUNMUŞ TƏDBİR

EVENT DEDICATED TO THE SUCCESS OF KHAZAR UNIVERSITY IN 2020-2021

Dekabrın 23-də Xəzər Universitetinin Mərmər zalında 2020-2021-ci illərin uğurlarına həsr olunmuş tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşları və tələbələr iştirak edirdilər.

Tədbiri universitetin rektoru dosent İradə Xəlilova açaraq, son iki il ərzində həm ölkənin təhsil-təlim mühitində, həm də beynəlxalq əlaqələr sahəsində qazanılmış nailiyyətlər haqqında ümumi məlumat verdi. Qeyd etdi ki, beynəlxalq reytinq cədvəllərində universitet irəliləməkdə davam edir, müxtəlif layihə və qrant müsabiqələrində fəallıq göstərir, universitetin nüfuzu getdikcə artır. Rektor universitet tələbələrinin müxtəlif layihə və yarışmalarda uğurlar qazandığını xüsusi vurğuladı.

Sonra sahələr üzrə hesabatlar dinlənildi. İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov EDUNIVERSAL Ranking reytinqi haqqında ətraflı məlumat verərək, təşkilatın son reytinq cədvəlinə görə Xəzər Universitetinin İqtisadiyyat və Menecment Fakültəsinin Azərbaycanın biznes məktəbləri arasında 1-ci yeri tutduğunu qeyd etdi.

(*Ardı səh.8-də*)

On December 23, an event dedicated to success gained in 2020-2021 was held in the Marble Hall of Khazar University. The event was attended by university administration, staff and students.

Opening the event, Rector of the university, Associate Professor Irada Khalilova, gave an overview of the achievements of the last two years, both in the educational environment of the country and in the field of international relations. She noted that the university continues to advance in international rankings, actively participates in various projects and grant competitions, and its reputation is growing. The rector emphasized that university students have succeeded in various projects and competitions.

Then reports on different areas were heard. Dean of the School of Economics and Management, Dr. Jeyhun Mammadov, spoke in detail about the EDUNIVERSAL Ranking, noting that according to the organization's latest rankings, Khazar University's School of Economics and Management ranks first among Azerbaijani business schools.

(*To be continued page 8*)





Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova nüfuzlu təşkilatların reytinq cədvəllərində Xəzər Universitetinin son illərdəki irəliləyişini qeyd edərək, QS Reytinq Agentliyinin "İnkişaf etməkdə olan Şərqi Avropa və Mərkəzi Asiya" regionu üzrə yeni reytinq cədvəlində Xəzər Universitetinin yenə Azərbaycan universitetləri arasında 1-ci yerə çıxdığını nəzərə çatdırdı.

Xəzər Universitetinin yerli və beynəlxalq layihələrdə iştirakı haqqında İnkişaf Ofisinin direktoru Raziyə İsayeva hesabatla çıxış etdi. O, ERASMUS+, CREATİVE SPARK, MEDİATS və digər beynəlxalq layihələrdə iştirak haqqında geniş məlumat verdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxışında əldə edilmiş uğurları təqdir etməklə yanaşı, qeyd etdi ki, universitetin potensialı nailiyyətləri artırmağa imkan verdiyinə görə işlərin genişləndirilməsi və yeni əlaqələrin yaradılması zəruridir. O, müzakirə olunan sahələr üzrə yeni vəzifələr qarşıya qoydu, tövsiyələr verdi.

Sonda Xəzər Universitetini yerli və beynəlxalq layihələrdə müvəffəqiyyətlə təmsil edən tələbələrə sertifikat təqdim olundu.

Lyudmila Sotova, Director of the Quality Assurance Canter, pointed out Khazar University's progress in recent years in the rankings of prestigious organizations, noting that Khazar University once again ranked first among Azerbaijani universities in the QS Rating Agency's new "Emerging Eastern Europe and Central Asia" rankings.

Raziya Isayeva, Director of the Development Office, made a report on Khazar University's participation in local and international projects. She gave detailed information about participation in ERASMUS+, CREATIVE SPARK, MEDIATS and other international projects.

In his speech, Professor Academic Hamlet Isaxanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, praised the successes, noting that the university's potential allows it to increase its achievements and build new relationships. He set new tasks and made recommendations in the areas under discussion. At the end, students who successfully represented Khazar University in local and international projects were awarded certificates.















XƏZƏR UNİVERSİTETİNDƏ 50-Cİ MƏZUNLUQ TƏDBİRLƏRİ KEÇİRİLDİ

Dekabrın 24-25-də universitetin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində 50-ci məzunluq tədbirləri keçirildi. Tədbirlərdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr, qonaqlar iştirak edirdilər.

Tədbirlər Xəzər Universitetinin Kamera orkestri tərəfindən Azərbaycan Respublikası Dövlət Himninin ifası ilə başlandı.

Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova tədbirlərdə çıxış edərək, məzunları universiteti bitirmələri münasibətilə təbrik etdi, müstəqil həyat yollarında onlara uğurlar arzuladı.

Dekabrın 24-də Təbiət elmləri və mühəndislik fakültəsinin, Humanitar, təhsil və sosial elmlər fakültəsinin bakalavr məzunlarına, 25-də Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin məzunlarına, İqtisadiyyat və menecment fakültəsinin bakalavr məzunlarına diplomlar təqdim olundu.

(Ardı səh.12-də)





KHAZAR UNIVERSITY HOSTED 50TH GRADUATION EVENTS

On December 24-25, the 50th graduation event was held at the Fikret Amirov Conference and Concert Center of the University. The event was attended by university administration and staff members, students and guests.

The events began with the performance of the National Anthem of the Republic of Azerbaijan by the Chamber Orchestra of Khazar University.

Speaking at the event, Khazar UniversityRector Associate Professor Irada Khalilova congratulated the graduates and wished them success in their independent lives.

Diplomas were presented to bachelors of the School of Sciences and Engineering, School of Humanities, Education and Social Sciences on December 24, graduates of the Graduate School of Sciences, Arts and Technology, and bachelors of the School of Economics and Management.

(*To be continued page 13*)





Diplomları məzunlara universitetin rəhbərliyi, dekanlar və departament müdirləri, müəllimlər təqdim etdilər. Tələbələr Xəzər Universitetinin andını səsləndirdilər, xatirə şəkilləri çəkdirdilər.

Xəzər Universitetinin öncəki məzunları adından universitetin müəllimi, Azərbaycan Respublikasının Mərkəzi Bankının Maliyyə Savadlılığı Şöbəsinin rəisi Xumar Hüseynova çıxışında unversitetin yüksək ixtisaslı kadrlar yetişdirilməsi sahəsindəki xidmətlərinə görə rəhbərliyə, professor - müəllim heyətinə təşəkkürünü bildirdi.

Tədbirlərdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış etdi, universitetin keçdiyi şərəfli yola və uğurlarına nəzər saldı, məzunlara çalışacaqları sahələrdə müvəffəqiyyət qazanmaq üçün tövsiyələrini verdi.

Məzunluq tədbirləri universitetin Kamera orkestri və tələbələrdən ibarət rəqs kollektivinin konserti ilə müşayiət olundu.





Diplomas were presented to the graduates by the university administration, deans and heads of departments, teachers. Students took the Khazar University oath and photos.

On behalf of former Khazar University alumni, Khumar Huseynova, a lecturer at the university and head of the Financial Literacy Department of the Central Bank of the Republic of Azerbaijan, thanked the university's management and faculty for their role in training highly qualified personnel.

Professor Academic Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, spoke at the event, looked at the university's glorious path and success, and gave recommendations to graduates to succeed in their fields of work.

The graduation ceremony was accompanied by a concert by the university's Chamber Orchestra and the student dance troupe.



PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMLƏRİ İTV-NİN "*SABAHA SAXLAMAYAQ*" VERİLİŞİNDƏ

FACULTY MEMBERS OF PSYCHOLOGY DEPARTMENT ON ITV'S "*SABAHA SAXLAMAYAQ*" BROADCAST

Noyabrın 23-də Xəzər univerisiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova və departamentin müəllimi Ramin Allahverdiyev İctimai Televiziyanın "*Sabaha saxlamayaq*" verilişinin qonağı olublar.

Verilişin mövzusu çox aktual olub, psixoloqların peşə fəaliyyəti və təhsili ilə bağlı maraqlı müzakirələrlə zəngin idi.Verilişdə "psixoloq kimdir", "psixoloq seçimində necə edək yanılmayaq", "psixoloji xidmətdə etik prinsiplər nədir" kimi mövzularda fikir mübadilələri aparıldı. Psixoloq Mələk Kərimova bu sahədə təhsil alanların 78 ixtisas fənni keçdiklərini və ən azı dörd illik bakalavr təhsilinin zərurətini qeyd edərək, bir illik ixtisasartırma kursları ilə psixoloq yetişdirməyin mümkün olmayacağı fikrini səsləndirdi.

Ramin Allahverdiyev də peşakar psixoloqların yetişməsi üçün ən azı bakalavr səviyyəsində təhsilin əhəmiyyətini, dünyada bu təhsilə qoyulan tələblərdən və ömür boyu öyrənmə prinsipinin əhəmiyyətini qeyd etdi.

Coordinator of the Department of Psychology of Khazar University Malak Karimova and the lecturer of the department Ramin Allahverdiyev were guests of the Public Television program "*Sabaha saxlamayaq*"(Let`s not to put off till tommorow).

The program covered very topical and interesting discussions on the professional activities and education of psychologists. The program exchanged views on such topics as "who is a psychologist", "how not to make a mistake in choosing a psychologist", "what are the ethical principles in psychological services". Psychologist Malak Karimova noted that students in this field have passed 78 specialized subjects and that at least a four-year undergraduate education is required, and that it will not be possible to train psychologists with one-year training courses.

Ramin Allahverdiyev also emphasized the importance of at least undergraduate education for the training of professional psychologists, as well as the requirements for this education in the world and the importance of the principle of lifelong learning. The program can be watched at the link below:

https://www.youtube.com/watch?v=Cew0mEzGHcQ

"XƏZƏR"İN MÜƏLLİMİ İCTİMAİ TV-NİN "*DİKDABAN*" VERİLİŞİNDƏ

KHAZAR FACULTY MEMBER ON ICTIMAI TV`S "*DIKDABAN*" PROGRAM

2021-ci il noyabrın 23-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə İctimai TV-də yayımlanan "*Dikdaban*" verlişinin qonağı olub. Psixoloq hazırda aktual mövzulardan biri olan xroniki yorğunluq və stress halları haqqında danışaraq, son elmi araşdırmaların bu sahədə açıqladığı yenilikləri, şəxsiyyət tiplərinin streslə mübarizə metodlarını, psixoloji xəstəliklərdə qadın və kişi fərqləri və sindromun yaranma halları haqqında müzakirələr aparıb.

Verlişi aşağıdakı link vasitəsilə izləmək olar:

On November 23, 2021, Nilufar Alizadeh, the lecturer and doctoral student in the Department of Psychology at Khazar University, was a guest on "*Dikdaban*"(High heel) program broadcast on Public TV.

Talking about chronic fatigue and stress, which is one of the topical issues, the psychologist discussed the latest scientific research, methods of coping with stress, differences between men and women in psychological diseases and the occurrence of the syndrome.

The program can be viewed via the following link:

https://www.youtube.com/watch?v=jwZt3zUkvrY&ab_channel=%C4%B0CT%C4%B0MA%C4%B0TV

PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU AZTV-NİN "*GÜN BAŞLADI*" VERİLİŞİNDƏ

COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT ON AZTV'S "*GÜN BAŞLADI*" PROGRAM

2021-ci il noyabrın 25-də Xəzər universiteti Psixologiya Departamentinin koordinatoru Mələk Kərimova AZTV-nin *"Gün başladı"* verilişinin qonağı oldu. Xədicə Sənanqızının təqdimatında olan verilişin mövzusu ailədə ataların rolu, ona yüklənən məsuliyyətlər, uşaq tərbiyəsində rolu ilə bağlı idi. Verilişdə ailə dinamikaları, ailədə valideynlər arasında münasibətin uşağa təsirləri kimi mövzulara da toxunuldu.

On November 25, 2021, Malak Karimova, Coordinator of the Department of Psychology at Khazar University, was a guest on AZTV's *"Gün başladı"* (The day has started) program. The theme of the program, presented by Khadija Sanangiz, was related to the role of fathers in the family, their responsibilities and their role in raising children.

The program also touched upon the topics such as family dynamics and the impact of parent-child relationships on the child.

PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORUNUN *OLAYLAR.AZ* XƏBƏR PORTALINDA MÜSAHİBƏSİ

INTERVIEW OF COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT ON NEWS PORTAL *OLAYLAR.AZ*

2021-ci il noyabrın 25-də *Olaylar.az* online xəbər portalında Xəzər univerisiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın müsahibəsi dərc edilib.

Müsahibədə intihar hadisəsinə təsir edən faktorlar, intihar hadisəsi ilə əlaqədar cəmiyyətin diqqət edəcəyi həyəcan siqnallarının nə olduğu, qadın və kişilərdə intihar statistikası, intiharın növləri və s. kimi mövzular işıqlandırılıb. İnsanın cəmiyyətlə münasibətinin pozulmasının intihar prosesini sürətləndirə biləcəyi və cəmiyyətdə olan hər bir vətəndaşın bu kömək çağırışlarına diqqətlə və həssaslıqla yanaşılmasının zəruriliyi nəzərə çatdırılıb.

Müsahibə aşağıdakı linkdə:

On November 26, 2021, the *Olaylar.az* online news portal published an interview with Malak Karimova, Coordinator of the Department of Psychology, Khazar University.

The interview covered the issues as factors influencing the suicide, what are the alarms that the society will pay attention to in connection with the suicide, suicide statistics in women and men, types of suicide et c. It was pointed out that the violation of human relations with the society can accelerate the suicide process, and that every citizen in the society should respond to these calls for help with care and sensitivity.

Interview can be read via the following link:

https://olaylar.az/news/sosial/438711

BAMF-DA AZƏRBAYCANIN İLK "3ZERO" KLUB ÜZVLƏRİ İLƏ GÖRÜŞ

IEPF HOSTED MEETING WITH MEMBERS OF AZERBAIJAN'S FIRST "3ZERO" CLUB

Noyabrın 24-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun ofisində UNEC, ADA və Xəzər Universitetinin "3Zero" klub üzvləri ilə görüş keçirilib.

İlk dəfə baş tutan görüşdə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) Prezidenti Umud Mirzəyev də iştirak edib. O, klub üzvləri ilə tanışlıqdan sonra təşkilat tərəfindən hər zaman gənclərə dəstək göstərildiyini bildirib və bunun BAMF-ın əsas prinsiplərindən biri olduğunu vurğulayıb.

"3Zero" klubunun əsas simaları olan Xudaverdi Quliyev, Con Ayomide Aroqun və Mədinə Vəliyeva fəaliyyətləri və görüləcək işlərlə bağlı çıxış ediblər. Onlar qeyd ediblər ki, tədbirin əsas məqsədi klubların hədəflərini müəyyən etmək və birgə fəaliyyət aparılması üçün əlaqələri genişləndirməkdir.

Qeyd edək ki, BAMF Prezidenti Umud Mirzəyevin şəxsi dostu, Nobel Sülh Mükafatı Laureatı, professor Məhəmməd Yunusun ideyaları əsasında yaradılan "3Zero" klubu üç sıfırdan ("000" – red.) ibarət olan dünya yaratmaq düşüncəsini qloballaşdırır. Azərbaycanda bu klubların yaradılması BAMF-ın dəstəyi ilə həyata keçirilib.

Tədbirin sonunda klub üzvləri ilə xatirə fotosu çəkilib.

Ed Eurasiya Diary Beynəlxalq Analitik İnformasiya Portalı tədbir haqqında Azərbaycan və ingilis dillərində xəbər yayımlayıb:

On November 24, a meeting was held at the office of the International Eurasian Press Foundation with members of the 3Zero Clubs of UNEC, ADA, and Khazar University.

President of the International Eurasian Press Foundation (IEPF) Umud Mirzayev also attended the meeting. After getting acquainted with the members of the club, he said that the organization has always supported young people, emphasizing that this is one of the main principles of the IEPF.

Khudaverdi Guliyev, John Ayomide Arogun and Madina Valiyeva, the main figures of the 3Zero club, spoke about their activities and work to be done. They noted that the main purpose of the event is to define the goals of the clubs and expand ties for joint activities.

Note that the "3Zero" club, created on the ideas of IEPF President Umud Mirzayev's friend, Nobel Peace Prize Laureate, Professor Muhammad Yunus, globalizes the idea of creating a world of three zeros ("000" - ed.). The establishment of these clubs in Azerbaijan was carried out with the support of the IEPF.

At the end of the event, a memorial photo was taken with the club members. *Ed Eurasia Diary* International Analytical Information Portal published news on the event:

https://ednews.net/az/news/society/489842-bamf-azerbaycanin-ilk-3zero-klub
https://ednews.net/en/news/society/489843-members-azerbaijans-first-3zero-club



UNİVERSİTETİN OMBUDSMANI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

THE UNIVERSITY OMBUDSMAN MET WITH STUDENTS

Noyabrın 25-də Xəzər Universitetinin Ombudsman Mərkəzinin rəhbəri Aytac İbrahimli Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri ilə görüşüb. Görüşdə Ombudsman Mərkəzinin fəaliyyəti, müraciətlərin qəbul edilmə növləri, problemlərin həlli mexanizmi barədə tələbələrə ətraflı məlumat verilib və onların sualları cavablandırılıb.

Görüşün sonunda bir neçə tələbə onları maraqlandıran məsələlərlə bağlı Ombudsmanla fərdi görüşmək istədiklərini bildiriblər və onların bu istəyi təmin olunub.

On November 25, Aytaj Ibrahimli, the head of the Ombudsman Center at Khazar University, met with students of the School of Science and Engineering. During the meeting, the students were informed in detail about the activities of the Ombudsman Center, the types of appeals, the mechanism for solving problems and their questions were answered.

At the end of the meeting, several students expressed their desire to meet with the Ombudsman in person on issues of interest to them, and their requests were granted.

UNİVERSİTETİN OMBUDSMANI SORĞU KEÇİRİB

THE UNIVERSITY OMBUDSMAN CONDUCTED SURVEY

Noyabrın 25-26-da Xəzər Universitetinin Ombudsmanı Aytac İbrahimli 200 tələbənin iştirak etdiyi sorğu keçirib. Sorğu Ombudsman mərkəzinin iş keyfiyyətinin yaxşılaşdırılmasına və tələbələrin öz irad və təkliflərini anonim şəkildə bildirməsinə yönəlib.

Keçirilən sorğuların nəticələrinə uyğun olaraq, fəaliyyət planına yeniliklər əlavə edilib.

On November 25-26, Khazar University Ombudsman Aytaj Ibrahimli conducted a survey of 200 students. The survey is aimed at improving the quality of work of the Ombudsman Centre and allowing students to express their comments and suggestions anonymously.

According to the results of the survey, updates were added to the action plan.





OMBUDSMAN TƏLƏBƏLƏRLƏ MÜZAKİRƏ APARIR

THE UNIVERSITY OMBUDSMAN HOLDS DISCUSSIONS WITH STUDENTS

Xəzər Universitetinin Ombudsman Mərkəzinin rəhbəri Aytac İbrahimli noyabrın 26-da Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri ilə görüşüb. Görüşdə tələbələri maraqlandıran ümumi məsələlər, tələbə həyatında edilə biləcək yeniliklər müzakirə olunub.

Görüşdə aparılan müzakirədən sonra tələbələrdən birinin rəhbərliyi ilə Xəzər Kitab Klubunun yaradılması üçün Ombudsman Mərkəzi tərəfindən dəstək göstərilib.

On November 26, Aytaj Ibrahimli, the head of Khazar University's Ombudsman Center, met with students of the Faculty of Humanities, Education, and Social Sciences. The general issues of interest to students and possible innovations in student life were discussed at the meeting.

Following the discussions at the meeting, the Ombudsman Center supported the establishment of the Khazar Book Club under the leadership of one of the students.

DEPARTAMENT MÜDİRİ TÜRK CÜMHURİYYƏTLƏRİNİN MÜSTƏQİLLİKLƏRİNİN 30-CU İLDÖNÜMÜNƏ HƏSR EDİLMİŞ KONFRANSDA

DEPARTMENT HEAD AT THE CONFERENCE DEDICATED TO THE 30TH ANNIVERSARY OF THE INDEPENDENCE OF TURKISH REPUBLICS

Noyabrın 26-da Ankarada Türk Dünyası Parlamentlər Birliyinin təşkilatçılığı ilə Türkiyənin bir çox dövlət adamları, Türk dövlətlərinin Ankaradakı səfirləri və millət vəkillərinin iştirakıyla Türk cümhuriyyətlərinin müstəqilliklərinin 30-cu ildönümünə həsr edilmiş konfrans keçirilib.

Konfransda Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu da Türk Dünyası vətəndaşlığı qavramının aktiv şəkildə müzakirə edilməsi, ortaq təhsil və mədəniyyət proqramlarının tərtib edilməsi və tarix dərsliklərinin hazırlanması mövzusu ətrafında geniş məruzə ilə çıxış edib.

A conference dedicated to the 30th anniversary of the independence of the Turkish republics was held in Ankara on November 26, organized by the Turkic World Parliamentary Union with the participation of several Turkish statesmen, ambassadors of Turkish states to Ankara and MPs.

Associate Professor Telman Nusratoglu, Head of the Department of History and Archaeology, delivered a lecture at the conference as well on the active discussion of the concept of Turkish World Citizenship, the development of joint educational and cultural programs and the preparation of history textbooks.



XƏZƏR UNİVERSİTETİNİN DEKANI VƏ MÜƏLLİMİ QAZİ UNİVERSİTETİNDƏ KEÇİRİLƏN "TÜRK DÜNYASI TƏHSİL ELMLƏRİ KONGRESİ"NDƏ İŞTİRAK EDİBLƏR

DEAN AND FACULTY MEMBER OF KHAZAR UNIVERSITY PARTICIPATE IN "TURKISH WORLD CONGRESS OF EDUCATIONAL SCIENCES" AT GAZI UNIVERSITY

Noyabrın 24-26-da Qazi Universiteti Təhsil İnstitutunun təşkilatçılığı ilə "Türk Dünyası təhsil elmləri kongresi" adlı beynəlxalq konqres keçirilmişdir. Konqresdə Türk dünyasının müxtəlif ölkələrindən gələn nümayəndələr iştirak etmişdir.

Xəzər Universitetini Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədli və Dillər və ədəbiyyatlar departamentinin müəllimi fil.ü.f.d.Zəminə Ziyayeva həmin konqresdə məruzə ilə çıxış ediblər.

On November 24-26, the International Congress "Turkish World Congress of Educational Sciences" was organized by the Gazi University Institute of Education. The congress was attended by representatives from different countries of the Turkic world.

Dean of the Faculty of Humanities, Education, and Social Sciences at Khazar University, Associate Professor Elza Samadli, and Lecturer in the Department of Languages and Literature, Ph.D. Zamina Ziyayeva, delivered lectures at the congress.



DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ ONLAYN KONFRANSDA

FACULTY MEMBER OF THE DEPARTMENT OF LANGUAGES AND LITERATURES AT ONLINE CONFERENCE

Noyabrın 28-də Sankt-Peterburqda Elger Beynəlxalq Elm-təhsil Mərkəzi tərəfindən "Mədəniyyətlərarası dialoq" adlı XX Beynəlxalq elmi konfrans keçirilmişdir.

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Şəlalə Mirzəyeva onlayn konfransda iştirak edərək, sertifikat almışdır.

On November 28, the XX International Scientific Conference "Intercultural Dialogue" was held by the Elger International Science and Education Center in St. Petersburg.

Shalala Mirzayeva, the lecturer of the Department of Languages and Literature, Khazar University, participated in the online conference and received a certificate.

XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ TƏHSİL NAZİRİNİN MÜAVİNİNİN İŞTİRAKI İLƏ KEÇİRİLƏN ONLAYN GÖRÜŞDƏ

KHAZAR UNIVERSITY ADMINISTRATION ATTENDS ONLINE MEETING WITH DEPUTY MINISTER OF EDUCATION

Noyabrın 30-da Təhsil nazirinin müavini İdris İsayevin iştirakı ilə ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri ilə onlayn görüş keçirildi. Görüşdə "Təhsil tələbə krediti" məsələsi müzakirə edildi. Xəzər Universiteti görüşdə tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev və İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı ilə təmsil edilmişdi.

Müzakirələr zamanı İsaxan İsaxanlı Azərbaycanda son illərdə təhsil sahəsində atılan müsbət addımlardan qısaca danışdı, "Təhsil tələbə krediti"nin verilməsində İngiltərə təcrübəsinə toxundu və götürülmüş təhsil kreditinin geri qaytarılma mexanizmi ilə bağlı fikrini bildirdi. Qaldırılan məsələ ətrafında Nazir müavini İdris İsayev geniş izahat verdi.

On November 30, an online meeting was held with the heads of higher and secondary special education institutions with the participation of Deputy Minister of Education Idris Isayev. The issue of "Education- student loan" was discussed at the meeting. Khazar University was represented by Mahammad Nuriyev, Vice Rector for Academic Affairs, and Isakhan Isaxanli, Vice Rector for Management and Student Affairs.

During the discussions, Isakhan Isaxanli briefly spoke about the positive steps taken in Azerbaijan in the field of education in recent years, touched upon the British experience in issuing "Education- Student Loans" and expressed his opinion on the mechanism of repayment of student loans. Deputy Minister Idris Isayev gave a detailed explanation on the issue.

"XƏZƏR"İN TƏLƏBƏSİ "*GIRLS MAKING CHANGE*" SOSİAL LAYİHƏSİNİN QALİBİ OLDU

KHAZAR UNIVERSITY STUDENT WINS "*GIRLS MAKING CHANGE*" SOCIAL PROJECT

ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən maliyyələşdirilərək, may-noyabr ayları ərzində keçirilmiş "Girls Making Change" sosial layihəsinin nəticələri açıqlanmışdır.

Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin 2-ci kurs tələbəsi Afət Əhmədovanın da iştirak etdiyi layihəyə 1000-ə yaxın şəxs müraciət etmiş və seçilən 100-dən çox iştirakçı imtahan mərhələsinə buraxılmışdır.

İmtahan nəticələrinə əsasən 63 nəfər qadın müsahibə mərhələsində, 20 nəfər qadın isə maksimum nəticə göstərdiyinə görə birbaşa layihədə iştirak hüququ qazanmışdır. Afət Əhmədova maksimum nəticə göstərənlərdən biri olmuşdur. Bütün mərhələlər tamamlandıqdan sonra isə 45 nəfər xanımın layihədə iştirakı təsdiqlənmişdir.

Sonda Hackathon yarışı keçirilmiş və Afət Əhmədovanın "Victory" komandası 1-ci yerə layiq görülmüşdür.

Afət Əhmədovanın layihədə iştirakı və qazandığı təcrübə haqqında təssüratları aşağıdakı linkdə:

The results of the "Girls Making Change" social project, funded by the US Embassy in Azerbaijan and held in May-November, have been announced.

Nearly 1,000 people applied to the project, in which Afat Ahmadova, 2nd year student of the School of Sciences and Engineering, Khazar University, also participated and more than 100 selected participants were admitted to the exam stage.

According to the results of the exam, 63 women were interviewed, and 20 women were eligible to participate directly in the project due to their maximum results. Afat Ahmadova was one of those who showed maximum results. After the completion of all stages, the participation of 45 women in the project was confirmed.

In the end, Hackathon competition was held and Afat Ahmadova's "Victory" team was awarded the first place.

https://youtu.be/zAJToMwMOvw

MİLLİ ISBN AGENTLİYİNİN KİTAB KOLLEKSİYASINA SƏRBƏST GİRİŞ

PUBLIC ACCESS TO NATIONAL ISBN AGENCY BOOK COLLECTION

Milli ISBN Agentliyinin kitab kolleksiyası Xəzər Universiteti KİM-in kitabxana və nəşriyyat sektorunda artmaqda olan kitab kolleksiyasının bir hissəsidir. Bu yolla formalaşan Azərbaycan nəşrlərini Azərbaycan mədəniyyətinin, bədii, texliki və elmi fəaliyyətin bütün sahələrini araşdırmağa imkan yaradır.

Xəzər Universitetinin elektron kataloqu digital catalogue və DSpace elektron arxivi Institutional Repository vasitəsilə kitabxana istifadəçilərinə çap və rəqəmsal ISBN nəşrləri haqqda məlumat təqdim edilir. ISBN kolleksiyasının çap və rəqəmsal nəşrlərinin inteqrasiyası KİM-in istifadəçilərinin ədəbiyyat seçimində müxtəlif formatdan olan ədəbiyyatdan istifadəsini əlçatan edir. Belə ki, açıq rəf üsülü və DSpace e-arxivi kitabxana məkanında çap və rəqəmsal ədəbiyyatın sərgilənməsini təmin edir.

National ISBN Agency Book Collections is part of a growing collection of Khazar University Library & Information Center (LIC) within the Khazar University library and publishing sector. The comprehensive collections of Azerbaijan publications formed in this way provide the means for research into all aspects of Azerbaijan life, culture, and artistic, commercial, technical and scientific endeavour.

There are some possibilities to provide library visitors information on print and digital ISBN publications via Khazar University digital catalogue and Institutional Repository by DSpace platform. It possible to better integrate the paper and digital collection of ISBN publications and to invite visitors of Khazar University LIC not to limit the literature they use to one format, as currently is the case with the digital oriented students. Open access shelves with DSpace provide the opportunity to exhibit both paper and digital literature in the library space.



ASAAİ "ASİYA-SAKİT OKEANIN BİLİNMƏYƏN TƏRƏFİ" MÖVZUSUNDA BEYNƏLXALQ TƏDBİR KEÇİRDİ

IAPAS HOLDS EVENT ON "HIDDEN' DIMENSION OF THE ASIA-PACIFIC"

Noyabrın 30-da Xəzər Universitetinin Asiya-Sakit okean və Afrika Araşdırmaları İnstitutu (ASAAİ) "Asiya-Sakit okeanın bilinməyən tərəfi" mövzusunda beynəlxalq tədbir təşkil etmişdir. Tədbirə Sakit Okean Alyansı üzvlərinin Azərbaycanda fəaliyyət göstərən üç nümayəndəsi - Meksika Birləşmiş Ştatlarının səfiri Rodrigo Labardini, Kolumbiya Respublikasının səfiri Luis Antonio Dimaté və Çili Respublikasının müvəqqəti işlər vəkili Fidel Koloma dəvət olunmuşdular.

(*Ardı səh.24-də*)

On 30 November Khazar University's Institute of Asia-Pacific and African Studies (IAPAS) arranged a high-profile event of international significance on "Hidden' dimension of the Asia-Pacific". The three Azerbaijan-based high-level representatives of the members of the Pacific Alliance Ambassador of the United Mexican States Rodrigo Labardini, Ambassador of the Republic of Colombia Luis Antonio Dimaté and Chargé d'Affaires of the Republic of Chile Fidel Coloma were invited to the event.

(*To be continued page 24*)









Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı tədbiri açaraq, ASAAİ-nin - bu yeni tədqiqat və araşdırma sahəsinin əhəmiyyətini vurğuladı, qeyd etdi ki, institut yeni tərəfdaşlarla səmərəli əlaqələrin qurulması və inkişafına kömək edəcək. H. İsaxanlı, həmçinin, ASAAİ-nin Xəzər Universitetinin gələcək illərdə inkişafı üçün də əhəmiyyətini nəzərə çatdırdı.

Professor, Academician Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees giving the opening remarks, underlined the importance of this new area of studies and research, and noted that the institute will help to establish and develop effective relations with new partners. In addition, Professor Isaxanli highlighted the significance of the IAPAS-linked field of studies for the development of Khazar University in many years to come as well.





Panel müzakirəsinə başlamazdan əvvəl tədbirin moderatoru, Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora Sakit Okean Alyansının və onun üzvlərinin bütün Asiya-Sakit okean regionu və onun hüdudlarından kənarda xüsusi rolunu qeyd edərək, mövzu haqqında qısa məlumat verdi.

(Ardı səh.27-də)

Before the panel commenced the discussion, the event's moderator Mr. Vlad Vernygora, Vice Rector for International Relations, Khazar University, offered a brief introduction on the contexts, specifying particular roles of the Pacific Alliance and its members for the whole Asia-Pacific region and beyond.

(To be continued page 27)




KHAZAR UNIVERSITY


Khazar
University
Alianza del
Pacífico

Səfir Rodrigo Labardini, səfir Luis Antonio Dimaté və Müvəqqəti işlər vəkili Fidel Koloma panel məruzəçiləri kimi Sakit Okean Alyansının geostrateji əhəmiyyəti, eləcə də ticarət blokunun Azərbaycanla mövcud və perspektiv əməkdaşlığı haqqında danışdılar, məsələnin hərtərəfli şəkildə struktur və təşkilati cəhətdən fərqləndirici xüsusiyyətlərinə toxundular, onun həm Latın Amerikası, həm də Sakit okean regionu üçün unikallığını vurğuladılar.

ASAAİ-nin kollokvium formatında təşkil olunan tədbirində Milli Məclis, Xarici İşlər Nazirliyi və Təhsil Nazirliyinin nümayəndələri də daxil olmaqla xarici ölkələrlə əməkdaşlıq sahəsində çalışan 50-dən çox şəxs iştirak edirdi.

The panel speakers, Ambassador Rodrigo Labardini, Ambassador Luis Antonio Dimaté and Chargé d'Affaires Fidel Coloma delivered their presentations regarding the geo-strategic value of the Pacific Alliance as well as the trading bloc's existing and prospective cooperation with Azerbaijan, as well as, they touched upon structural and organisational distinguishing features of the framework, emphasising its uniqueness for both Latin America and the Pacific area.

The event, being organised in the form of the IAPAS high-level colloquium, was attended by more than 50 people, including representatives from Milli Majlis, the Ministry of Foreign Affairs, and the Ministry of Education who work in the field of cooperation with foreign countries.





PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ NİZAMİ GƏNCƏVİYƏ HƏSR OLUNMUŞ USTAD DƏRSİ

PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI'S MASTER CLASS DEDICATED TO NIZAMI GANJAVI

Dekabrın 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri professor, akademik Hamlet İsaxanlı Yaradıcı yazı (Creative Wrting) fənni çərçivəsində "Nizami Gəncəvinin coğrafi məkan və tarix fəlsəfəsi" mövzusunda ustad dərsi keçmişdir.

Əvvəlcə bədii üslub, onun ifadə imkanlarından bəhs edən H.İsaxanlı Azərbaycanın müətəfəkkir şairi Nizami Gəncəvinin yaradıcılığında məkan və zaman (xronotop) problemlərindən geniş söhbət açmışdır. Şairin çoxqatlı yaradıcılığında təcəssüm olunan dünya mədəniyyətlərinin, tarixinin, coğrafiyasının fərqli aspektlərdən öyrənilməsinin vacibliyini vurğulamışdır. N.Gəncəvinin "Yeddi gözəl" və "İskəndərnamə" poemalarını təhlilə cəlb edərək, coğrafi determinizm, tarix və bədii həqiqət məsələlərini geniş şərh etmişdir. Bundan başqa, H.İsaxanlı Nizami irsinin sovet dövrü tərcümələrində ideologiyanın mahiyyətindən gələn təhriflərin olduğunu da söyləmişdir.

Ustad dərsinin sonunda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılmışdır.

On December 2, Professor Academician, Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave a master class on "Nizami Ganjavi's Philosophy of Geographical Space and History" as part of the Creative Writing course.

First of all, H. Isakhanlı talked about the artistic style and possibilities of expression in the works of Azerbaijani poet Nizami Ganjavi, and talked about the problems of space and time (chronotope). He stressed the importance of studying the world cultures, history and geography embodied in the poet's multi-layered work from different aspects. Analyzing N. Ganjavi's poems "Seven beauties" and "Iskendername", he commented on the issues of geographical determinism, history and artistic truth. In addition, H. Isakhanli said that the translations of Nizami's legacy in the Soviet period were distorted due to the essence of ideology.

At the end of the master class, students' questions on the topic were answered.









İSTANBUL AYDIN UNİVERSİTETİNİN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

MEETING WITH AYDIN UNIVERSITY ADMINISTRATION

Dekabrın 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Surasının sədri professor, akademik Hamlet İsaxanlı İstanbul Aydın Universitetinin (İAU) rəhbərliyi ilə görüşmüşdür.

Görüşdə İstanbul Aydın Universitetindən mütəvəlli heyətin rəhbəri Dos., Dr. Mustafa Aydın, mütəvəlli heyətin rəhbər köməkçisi Dr. Fatih Aydın, müşavirlər Mümine Elif Aydın və Hanife İrem Kabakçı, Xəzər Universitetindən Direktorlar və Qəyyumlar Surasının sədri professor, akademik Hamlet İsaxanlı, rektor dosent İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimaiyyətlə əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli iştirak etmişlər.

Görüş ziyarət məqsədilə keçirilmişdir. Sonra qonaqların şərəfinə ziyafət verilmişdir.

On December 2, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, met with the administration of Istanbul Aydin University (IAU).

The meeting was attended by the head of the delegation from Istanbul Aydin University, Assoc. Prof. Mustafa Aydin, Assistant to the Board of Trustees, Dr. Fatih Aydin, Advisors Mumine Elif Aydin and Hanife Irem Kabakci, Chairman of the Board of Directors and Trustees of Khazar University, Professor, Academician Hamlet Isakhanli, Rector Associate Professor Irada Khalilova, Vice Rector for Management and Student Affairs Isakhan Isakhanli, Director of Public Relations and Media Alovsat Amirbayli.

The meeting was held for the purpose of visit. Then a banquet was given in honor of the guests.





PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU İTV-NİN *"SABAHA SAXLAMAYAQ"* VERİLİŞİNDƏ

COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT ON ITV'S *"SABAHA SAXLAMAYAQ"* BROADCAST

2021-ci il dekabrın 6-da Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova İctimai Televiziyanın "*Sabaha saxlamayaq*" verilişinin qonağı oldu. Verilişin mövzusu internat uşaqlarının cəmiyyətə inteqrasiyası ilə bağlı olub, onların yaşadıqları çətinliklər, psixoloji maneələr kimi məsələlərlə bağlı idi. Belə ki, valideyn himayəsindən məhrum olmuş və ya valideynini itirən uşaqların cəmiyyətə asan uyğunlaşa bilmələri üçün sosial, psixoloji və hüquqi məsələlərə toxunuldu

Verilişi aşağıdaki linkdən izləmək olar:

On December 6, 2021, Malak Karimova, Coordinator of Psychology Department at Khazar University, was a guest on Public Television's "*Sabaha saxlamayaq* "(Let`s not to put off till tommorow) The program covered issues related to the integration of boarding school children into society, their difficulties and psychological barriers.

Social, psychological and legal issues were touched upon so that children deprived of parental care or orphans could easily adapt to society.

The program can be watched at the following link:

https://www.youtube.com/watch?v=gVpoWY5jcBw

SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN ƏMƏKDAŞININ TƏRCÜMƏSİ YAYIMLANMAQDADIR

TRANSLATION BY FACULTY MEMBER OF THE POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT PUBLISHED

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, fəlsəfə doktoru Anar Cəfərov məşhur britaniyalı filosof Bertran Rasselin dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan "Fəlsəfənin problemləri" (The Problems of Philosophy) əsərini ingilis dilindən Azərbaycan dilinə tərcümə etməkdədir. Əsər on beş fəsildən ibarətdir və onların hər biri mühüm bir fəlsəfi mövzuya həsr olunmuşdur.

Tərcümə Bakı Araşdırmalar İnstitutunun internet səhifəsində yayımlanmaqdadır.

Dr. Anar Jafarov, the full-time lecturer in the Department of Political Sciences and Philosophy at Khazar University, is translating Bertrand Russell's The Problems of Philosophy, which is a celebrated work written for a wider audience, from English into Azerbaijani. The work consists of fifteen chapters. Each chapter, after having been translated, is being published on the website of Baku Research Institute.

The translation is being published in the website of Baku Research Institute.

DEPARTAMENT MÜDİRİ İCTİMAİ TV-NİN "*SABAHA SAXLAMAYAQ*" VERİLİŞİNDƏ

DEPARTMENT HEAD IN THE PROGRAM "*SABAHA SAXLAMAYAQ*" ON PUBLIC TV

Dekabrın 10-da Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov İctimai TV də "*Sabaha Saxlamayaq*" verilişinin qonağı olmuşdur. Verilişdə Xəzər Dənizi faunası və ekologiyasının müasir vəziyyəti haqqında müzakirə aparılmışdır.

Rövşən Abbasov öz çıxışında Xəzərin balıq resurslarının bərpa olunması üçün ekosistemlərin qorunmasının və dənizə axıdılan çirkləndiricilərin azaldılmasının vacib olduğunu qeyd etmişdir. Sonda bu istiqamətdə aparılan elmi araşdırmalar müzakirə edilmişdir.

On December 10, Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, was a guest on Public TV's "*Sabaha saxlamayaq*"(Let's not to putt of till tomorrow) The program discussed the current state of the fauna and ecology of the Caspian Sea.

In his speech, Rovshan Abbasov noted the importance of protecting ecosystems and reducing pollutants discharged into the sea to restore the fish resources of the Caspian Sea.

At the end, scientific researches in this direction were discussed.

DEPARTAMENT MÜDİRİ AZTV-NİN "*ƏSAS MƏSƏLƏ*" VERİLİŞİNDƏ

DEPARTMENT HEAD IN AZTV'S "*ƏSAS MƏSƏLƏ*" BROADCAST

2021-ci il dekabrın 21-də Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu Türkiyənin TRT Avaz kanalının rəhbərləri Sedat Sağırkaya və Gökçe Oğanla birlikdə AzTV-də yayımlanan "*Əsas məsələ*" verilişinin qonaqğı olmuşdur.

Telman Nüsrətoğlu verilişdə Türk Dünyasının ortaq media platformunun qurulması, Azərbaycan-Türkiyə arasındakı media əməkdaşlığının tarixi mövzusunda çıxış etmişdir.

On December 21, 2021, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu, together with the heads of the Turkish TRT Avaz channel Sedat Sagirkaya and Gokce Ogan, was a guest of the "*Əsas məsələ*"(The main issue) program on AzTV.

Telman Nusratoglu spoke on the establishment of a joint media platform of the Turkic World, the history of media cooperation between Azerbaijan and Turkey.

"XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞI AZƏRBAYCAN RADİOSUNUN "*XATİRƏLƏR İŞIĞI*" VERİLİŞİNDƏ

STAFF MEMBER OF "KHAZAR KHABAR" IN "*XATIRƏLƏR İŞIĞI*" PROGRAM OF AZERBAIJAN

2021-ci il dekabrın 22-də Azərbaycan Radiosunun Ədəbi-dram və folklor redaksiyasının füzulişünas alim Məmmədəli Əsgərovun anadan olmasının 100 illiyi münasibətilə hazırladığı "*Xatirələr işığı*" verilişində Əməkdar elm xadimi Qəzənfər Paşayev, Xalq artisti Alim Qasımov, Əməkdar incəsənət xadimi Aqil Məlikov, Əməkdar artist Ağalar Bayramov və Əməkdar jurnalist, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini Əlirza Balayev çıxış edərək, xatirələrini söyləmişlər.

Ə. Balayev çıxışında orta məktəb illərindən müəllimi olmuş Məmmədəli Əsgərovu klassik Azərbaycan və Şərq ədəbiyyatının, əruz vəzninin mahir bilicisi, görkəmli ədəbi tənqidçi, pedaqoq və natiq kimi səciyyələndirmişdir.

On December 22, 2021, Honored Scientist Gazanfar Pashayev, People's Artist Alim Gasimov, Honored Art Worker Agil Malikov, Honored Artist Agalar Bayramov and Honored Journalist, Deputy Editor-in-Chief of "Khazar Khabar" journal Alirza Balayev participated in the program "*Xatirələr İşığı*"(In the light of memories) prepared by the Literary-Drama and Folklore Chief Editorial Department of Azerbaijan Radio on the occasion of the 100th anniversary of the birth of scientist Mammadali Askerov who studies Fuzuli, and shared their memories.

In his speech, A.Balayev described Mammadali Askerov- his teacher at high school, as a master of classical Azerbaijani and Oriental literature and eruz, a prominent literary critic, pedagogue and speaker.

ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ FRANSA SƏFƏRİ

VISIT TO FRANCE WITHIN THE *ERASMUS+ ECAR* PROJECT

Bakı Biznes Universitetinin koordinatoru, Xəzər Universitetinin də tərəfdaş olduğu Avropa Komissiyası tərəfindən maliyyələşən *Erasmus+ ECAR* layihəsi çərçivəsində 2021-ci il noyabrının 22-26-da layihə tərəfdaşlarının nümayəndələrindən ibarət heyətin Fransaya səfəri təşkil edilmişdir. Səfərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və layihənin tərəfdaşı olan Azərbaycan universitetlərindən prorektor və rəhbər heyətindən ibarət 30 nəfərlik nümayəndə iştirak etmişdir.

Görüşdə Xəzər Universitetini İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova təmsil edirdilər. İşgüzar görüşlər Fransa Rektorlar Konfransı (CPU) və Fransa Beynəlxalq Təhsil Mərkəzinin (FEI) təşkilatçılığı ilə həyata keçirilmişdir. Görüşlər çərçivəsində CPU-nun Beynəlxalq əlaqələr üzrə koordinatoru, Rouen Universitetinin keçmiş rektoru Jean Luc Nahel Fransa təhsil sistemi və CPU-nun ali təhsildə rolu barədə ətraflı məlumat verdi. Görüş müddətində qurumun Avropa Birliyindəki təmsilçisi Carle-Bonafous Murat Avropa-Fransa təhsil münasibətləri haqqında ətraflı danışmış, konfransın təsir gücünün yalnız ölkə hüdudları ilə məhdudlaşmadığını vurğulamışdır.

Fransa Beynəlxalq Təhsil Mərkəzinin (FEI) proqram meneceri Marion Poutrel CPU-nun Nizamnaməsi və hüquqi statusu barədə əsas prinsipləri izah etdi. CPU Beynəlxalq Əlaqələr üzrə Komissiyasının sədri, eyni zamanda Toulouse Jean Jaurès Universitetinin rektoru Emmanuelle Garnier CPU-nun təşkilati strukturu, plenar iclas, müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış daimi komissiyalar, müvəqqəti işçi qrupları haqqında məlumat verdi. Məruzəçi, eyni zamanda qeyd etdi ki, CPU-da görüşləri təşkil edən, CPU-nun gündəliyini müəyyənləşdirən 20 rektordan ibarət CP2U adlı daimi heyət fəaliyyət göstərir.

Fransa Ali Təhsil, Tədqiqat və İnnovasiya Nazirliyinin nümayəndəsi Manuel Bouard Azərbaycan Təhsil Nazirliyinin nümayəndəsi Nicat Məmmədli ilə birlikdə Fransa Təhsil Nazirliyi və CPU arasında əməkdaşlıq və koordinasiya məsələləri haqqında iştirakçılarla ətraflı müzakirələr apardılar.

Sonra CPU-da üzvlük, strateji planlama, qərar qəbul etmə prosesləri, maliyyələşmə mexanizmləri və.s kimi məsələlər haqqında fikir mübadiləsi aparıldı.

Tədbirin son günündə Fransanın ən qədim universitetlərindən biri olan Sorbon universitetinə səfər təşkil edildi. Səfərdə iştirak edən Bakı Biznes Universitetinin rektoru İbad Abbasov CPU-nun medalı ilə təltif olundu.

Səfər çərçivəsində Azərbaycan universitetlərindən olan heyət Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov və Ceyhun Hacıbəylinin məzarını ziyarət etdi. Nümayəndə heyəti Azərbaycan-Fransa Mədəniyyət evində keçirilən tədbirdə də oldu.

On November 22-26, within the framework of the *Erasmus+ ECAR* project funded by the European Commission, coordinated by Baku Business University and to which Khazar University is a partner, a visit of a delegation of project partners to France was organized. The visit was attended by 30 representatives from the Ministry of Education of the Republic of Azerbaijan and Azerbaijani universities that are partners of the project, consisting of vice-rectors and management staff of Azerbaijani universities.

Khazar University was represented at the meeting by Raziya Isayeva, Head of the Development Center, and Fakhranda Alimardanova, Dean of the Faculty of Sciences and Engineering. The business meetings were organized by the French Rectors' Conference (CPU) and the French Center for International Education (FEI). During the meetings, the CPU Coordinator for International Relations, former rector of the University of Rouen Jean-Luc Nahel gave detailed information about the French education system and the role of the CPU in higher education. During the meeting, the representative of the organization in the European Union Carle-Bonafous Murat spoke in detail about the European-French educational relations, emphasizing that the impact of the conference is beyond the borders of the country.

Marion Poutrel, program manager at the French Center for International Education (FEI), explained the basic principles of the CPU's charter and legal status. Emmanuelle Garnier, Chairman of the CPU Commission on International Relations and Rector of the University of Toulouse Jean Jaurès, briefed on the organizational structure of the CPU, the plenary session, standing commissions specializing in various areas, and temporary working groups. He also noted that the CPU has a permanent staff of 20 rectors called CP2U, which organizes meetings and determines the agenda of the CPU.

Manuel Bouard, a representative of the French Ministry of Higher Education, Research and Innovation, together with Nijat Mammadli, a representative of the Azerbaijani Ministry of Education, held detailed discussions with the participants on cooperation and coordination between the French Ministry of Education and the CPU.

Then they exchanged views on issues such as membership in the CPU, strategic planning, decision-making processes, funding mechanisms.

On the last day of the event, a visit was organized to the Sorbonne University, one of the oldest universities in France. Rector of Baku Business University Ibad Abbasov, who took part in the visit, was awarded the CPU medal.

Co-funded by the
Erasmus+ Programme
of the European Union





TƏHSİL DEPARTAMENTİNİN KOORDİNATORU BOLTON UNİVERSİTETİNİN TƏŞKİL ETDİYİ BEYNƏLXALQ TƏDBİRDƏ

COORDINATOR OF THE DEPARTMENT OF EDUCATION AT AN INTERNATIONAL EVENT ORGANIZED BY THE UNIVERSITY OF BOLTON

Noyabrın 17-də Xəzər Universiteti Təhsil departamentinin koordinatoru Cavid Cəfərov İngiltərənin Bolton Universitetinin nəzdində fəaliyyət göstərən Pedaqogika Mərkəzinin təşkil etdiyi onlayn beynəlxalq tədbirdə iştirak edib.

"Post-Covid dövründə tədris və öyrənmə: təhsilin gələcəyi" adlanan tədbirdə dünyanın müxtəlif ölkələrindən təhsil sahəsində çalışan 160-dək tədqiqatçı iştirak edib. Tədbir Covid pandemiyasının təhsil sahəsinə təsiri və pandemiyadan sonra təhsil sahəsini nələrin gözlədiyini əhatə edən elmi araşdırmaların müzakirəsinə həsr olunub.

On November 17, Javid Jafarov, Coordinator of the Department of Education, Khazar University attended an online international event organized by the Center for Pedagogy at the University of Bolton, England.

The event, entitled "Teaching and Learning in the Post-Covid Period: The Future of Education", was attended by about 160 researchers working in the field of education from around the world. The event was dedicated to discussing the impact of the Covid pandemic on education and research, including what the post-pandemic holds for the education sector.

TƏHSİL DEPARTAMENTİNİN MAGİSTR VƏ DOKTORANTLARI BEYNƏLXALQ KONFRANSDA

MASTER'S AND DOCTORAL STUDENTS OF THE DEPARTMENT OF EDUCATION AT THE INTERNATIONAL CONFERENCE

Noyabrın 22-25-də Təhsil Departamentinin magistr tələbəsi Böyükxanım Babayeva, doktorantları Rəqsanə Haqverdiyeva və Oluwaseyi Olubunmi Sodiya Şotlandiya Təhsil Tədqiqatları Assosiasiyasının (SERA) təşkil etdiy beynəlxalq konfransada iştirak ediblər.

Online təşkil olunan "Təhsildə Beynəlxalq Mövzular" adlı konfransa Edinburq, Qlazqo və Aberdin kimi Şotlandiya universitetləri ilə yanaşı, dünyanın bir neçə nüfuzlu universitetlərinin təmsilçiləri də qatılmışdır.

On 22-25 November master's and doctoral students of Education Department, Boyukkhanim Babayeva, Ragsana Hagverdiyeva and Oluwaseyi Olubunmi Sodiya participated at the international conference organized by the Scottish Educational Research Association (SERA).

The online conference entitled as "International Themes in Educational Research" attracted numerous researchers from not only Scottish universities such as Edinburg, Glasgow and Aberdeen, but also other prestigious international universities worldwide.

SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN TƏŞKİLATÇILIĞI İLƏ SEMİNAR

SEMINAR ORGANIZED BY THE DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY

Dekabrın 1-də Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə Jan Tomek`in (PhD, Oxford Universiteti) rəhbərliyi ilə akademik seminar keçirilib. Seminarda Jan Tomek Mərkəzi Asiyada regional əlaqəlilik və xarici siyasət mövzusunda olan PhD işini təqdim edib. Seminarda departamentin rəhbəri, assistenti, müəllimlər və tələbələr iştirak ediblər.

On December 1, the Department of Political Science and Philosophy organized an academic seminar led by Jan Tomek(PhD, Oxford University). At the seminar, Jan Tomek presented his PhD thesis on regional connectivity and foreign policy in Central Asia. The seminar was attended by the head of the department, assistant, teachers and students.

ABERDEEN UNİVERSİTETİNİN PROFESSORU XƏZƏR UNİVERSİTETİNİN "EXPERT TALKS" TƏDBİRİNDƏ

PROFESSOR OF ABERDEEN UNIVERSITY AT KHAZAR UNIVERSITY' S "EXPERT TALKS"

Dekabrın 3-də Şotlandiyanın Aberdeen Universitetinin professoru Rachel Shanks Təhsil Departamentinin təşkil etdiyi "Expert Talks" tədbirlər seriyasının ilk tədbirində qonaq məruzəçi qismində çıxış edib. Rachel Shanks`ın "Şotlandiyada müəllim hazırlığı" mövzusunda çıxışı online olaraq, ZOOM platforması vasitəsilə təşkil olunub. 30-dan çox iştirakçını bir araya gətirən tədbirdə Xəzər Universitetinin bir neçə müəllim və tələbələri ilə yanaşı, Azərbaycan, Türkiyə, Şotlandiya və Qazaxıstandan olan qonaqlar iştirak edib.

Şotlandiyada müəllim hazırlığının tarixi haqqında məlumat verən qonaq məruzəçi daha sonra hazırkı dövrdə Şotlandiyada müəllim hazırlığının təşkili ilə bağlı məlumat vermişdir. Mühazirəsini müqayisəli şəkildə təşkil edən Rachel Shanks bu sahədə Şotlandiya təcrübəsinin İngiltərə, Uels və Şimali İrlandiyadan hansı məsələlərdə fərqləndiyini də nümunələrlə qeyd etmişdir.

On December 3, Rachel Shanks, the professor at the University of Aberdeen in Scotland, was a guest speaker at the first event of the "Expert Talks" series of events organized by the Department of Education. Rachel Shanks' speech on "Teacher training in Scotland" was delivered online via the ZOOM platform. The event, which brought together more than 30 participants, was attended by several faculty members and students from Khazar University, as well as guests from Azerbaijan, Turkey, Scotland, and Kazakhstan.

After giving information about the history of teacher training in Scotland, the guest speaker gave information about the organization of teacher training in Scotland at the present time. Rachel Shanks, who delivered a comparative lecture, also gave examples of how the Scottish experience in this field differs from that of England, Wales and Northern Ireland.

ANKARA HACI BAYRAM VELİ UNIVERSITY

ANKARA HACI BAYRAM VELİ UNİVERSİTETİNİN PROFESSORU XƏZƏR UNİVERSİTETİNDƏ MƏRUZƏ ETMİŞDİR

PROFESSOR OF ANKARA HACI BAYRAM VELI UNIVERSITY DELIVERED A LECTURE AT KHAZAR UNIVERSITY

Dekabrın 2-də Xəzər Universitendə Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə "Nizami Gəncəvi-880" layihəsi çərçivəsində növbəti elmi seminar keçirilmişdir. Seminarın qonağı Ankara Hacı Bayram Veli Universitetinin müəllimi Prof. Dr. Ayşe Yıldız "Türkcə yazılmış Leyli və Məcnun məsnəvilərində Nizami Gəncəvinin təsiri" adlı məruzə etmişdir.

Onlayn təşkil edilən tədbiri Dillər və ədəbiyyatlar departamentinin müəllimi dosent Xatirə Yusifova açaraq, həm qonaq haqqında, həm də mövzu haqqında tələbələri və qonaqları məlumatlandırmışdır. Sonra Prof. Dr. Ayşe Yıldız Anadolu Türk şairlərinin - Şahidi, Hamdi, Cəlili və Ahmedi-Rıdvan`ın yazdıqları "Leyli və Məcnun" məsnəvilərini Nizami Gəncəvinin "Leyli və Məcnun" məsnəvisi ilə forma və məzmun baxımından müqayisə etmişdir.

Tədbirin sonunda məruzəçi tələbələrin suallalarını cavablandırmışdır.

On December 2, the next scientific seminar coordinated by the Department of Languages and Literature at Khazar University was held as part of the Nizami Ganjavi-880" project. The guest of the seminar from Ankara Haci Bayram Veli University Prof. Dr. Ayşe Yıldız delivered a lecture entitled "Influence of Nizami Ganjavi on Leyli and Majnun Masnavi written in Turkish".

The online event was opened by the lecturer of the Department of Languages and Literature, Assoc Prof. Khatira Yusifova, who informed the students and guests both about the guest and the topic. Then Prof. Dr. Ayşe Yıldız compared the "Leyli and Majnun" masnavi written by Anatolian Turkish poets - Shahidi, Hamdi, Jalili and Ahmedi-Ridvan with Nizami Ganjavi's masnavi"Leyli and Majnun" in terms of form and content.

At the end of the event, the speaker answered students' questions.



SEMİNAR: "TEODOR DRAYZER VƏ AZƏRBAYCAN"

SEMINAR: "THEODORE DREISER AND AZERBAIJAN"

Dekabrın 3-də İngilis dili və ədəbiyyatı departamenti görkəmli Amerika yazıçısı Teodor Drayzerin 150 illik yubileyi münasibətilə seminar keçirdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı giriş sözü ilə Drayzerin ədəbi yaradıcılığına və onun ictimai-siyasi baxışlarına tənqidi münasibətin təkamülü prosesindən bəhs etdi.

Bakı Slavyan Universitetindən olan qonaq məruzəçi Dr. Rahilə Qeybullayeva müəllifin həyat və yaradıcılığı ilə bağlı məkanlar haqqında təəssürat və düşüncələrini bölüşdü.

Seminarın əsas məruzəçisi, Azərbaycan Dillər Universitetinin əməkdaşı Dr. Nurlana Nuriyeva Drayzerin Bakı səfəri kimi həyatının az məlum olan məqamları haqqında çıxış etdi.

Sonra universitetin müəllim və tələbələrinin, qonaqların iştirakı ilə müzakirələr aparıldı.

On December 3rd, the Department of English Language and Literature hosted a seminar in honor of the 150th anniversary of a prominent American author Theodore Dreiser. In his opening speech, Professor, Academician Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, highlighted the evolution of the critical though concerning Dreiser's literary work and his socio-political views. Guest speaker Dr. Rahile Geybullayeva from Baku Slavic University shared her impressions and thoughts inspired by the places associated with the author's life and work.

The seminar's resource speaker, Dr. Nurlana Nuriyeva of Azerbaijan University of Languages delivered a meaningful speech on the lesser-known aspects of Dreiser's life such as his Baku visit.

Then a lively discussion was held with the participation of the university professor and student staff, and guest attendees.







SON GÖRÜŞ OLMAYAYDI...

Hamlet İsaxanlı

Həyat yamanca dəyişdi

İnsan xatirələrlə yaşayır. İnsanın kimliyi onun keçmişi ilə bağlıdır. Kim olduğumuzu söyləmək üçün, həyatımız barədə danışmaq üçün yaddaşımızı işə salırıq – hansı ailədə doğulmuşuq, uşaqlığımız harada və necə keçib, hansı məktəbdə və necə oxumuşuq, ailəmiz necə olub, qohum, qonşu, dost və tanışlarla necə ünsiyyətdə olmuşuq?! Mayamız keçmişdə yoğrulub. Keçmiş keçib gedib, ötən günlər geri qayıtmır, amma keçmişimiz yaddaşımıza yazılıb. Yaddaşımız keçmişi gözümüz önündə canlandırır, danışdırır. Yaddaşımızın övladıyıq. Həyat yolu yaşadığımız dünəndən sabaha, xatirələrlə dolu keçmişdən dumanlı gələcəyə doğru hərəkətdir. Keçmişin həsrətini çəkirik, gələcəyə ümid bəsləyirik.

Gələcək arzumdur, keçmiş xəyalım
Biri əlçatmazdır, biri – ünyetməz
Birindən pay umar eşqim, amalım
Birinin həsrəti, nisgili bitməz.

Əzizim Nailə, gözəlim Nailə xanım, əl-ələ, çiyin-çiyinə verib, bərabər getdiyimiz yol bitdi. Sevgi dolu xoşbəxt həyat yaşadıq sənlə. Amma, bu xoşbəxtlik yox oldu, o cənnət yoxa çıxdı, mən yaşamağa davam etsəm də, həyatım dəyişdi, soldu, qəm-qüssə ilə, göz yaşları ilə doldu.

Həyat yamanca dəyişdi
Əlimdə titrəyir qələm
Bilirəm ki, o behişti
Bir daha görən deyiləm.

Səni tanıyan hamı sarsıldı. Və hamı səni gözəl xatirələrlə andı. İnsan xoş ünsiyyətdə olduğu şəxsi unutmur. Yaddaşda oturmuş, yer tutmuş xatirələr canlanır, danışılır, yazılır, başqa insanlara çatır, tarixin məhsuluna çevrilir. O əlçatmaz keçmişə yalnız xatirələrlə dönə bilirik. Gözəl insan barədə xatirələrə monopoliya yoxdur. Tanış, yaxın, dost olan hər kəsin yaddaşında başqalarından fərqli,

başqalarının bilmədiyi, eşitmədiyi xatirə yuva salır. Səni yada salan, hüznlə xatirə söyləyən və yazan, adın gələndə kökə ötürən və eyni zamanda xoş təbəssümlə səni anan nə qədər insan varmış! Bu insanlardan biriyəm mən. Amma, sənin sevgilin, ömür-gün yoldaşın, həyat yoldaşın, yaxın dostun, güvəndiyin, səni çoox, laap çoox sevən, sənin həyatında böyük yer tutmuş şəxsəm mən.

Sənsiz həyatı təsəvvür etməmişəm, sənin varlığın həyatımı bəzəmiş, məni yaradıcı həyata səsləmiş, xoşbəxt etmişdir. Keçmiş mənim həyatımın ən əziz hissəsidir. İndi sən cismani olaraq yanımda deyilsən, ömürlük belə olacaq. Mən sənsiz qalmışam, amma, hər saatım, hər günüm sənlə bağlıdır. Səni düşünürəm, düşünə - düşünə içim yanır. İlk tanışlığımızdan son günə qədər uzanan həyatımız barədə düşüncələrlə yaşayıram. Xatirələr məni sənə bağlayır. Yanımda olsan, bu xatirələri qələmə aldıqdan sonra sənə oxusam, nə qədər əlavələr, dəqiqləşmələr edər, mənim demədiyim, unutduğum maraqlı söz və hərəkətləri yada salardın. Sən başımıza gələn bütün əhvalatları məndən daha ətraflı və dəqiq təsvir edirdin.

İndi sənlə söhbət edirəm, həyatımızda baş vermiş bəzi hadisələri yada salıram, sənsizliyimi səni yada salmaqla keçirirəm...

Ayişə xala və Anya xala

İlk görüşümüzlə son görüşümüz arasında, hardasa, 53 il keçdi. İlk görüş – birgə getdiyimiz yolun başlanğıcı həyatımızdakı ən xoş xatirələrdən birinə çevrildi. Gələcək xoşbəxt binamızın təməli ilk görüşdə atıldı, xoşbəxt həyatımızın toxumu ilk görüşdə səpildi.

Azərbaycan Dövlət Universitetində oxuyurdum, mexanika-riyaziyyat fakültəsində (İndiki Bakı Dövlət Universitetində). Tələbə yataqxanasında özümü rahat hiss etmirdim. Tezliklə ev kirayə etməli oldum. Poluxin küçəsində (№ 13; indiki Murtuza Muxtarov küçəsi) çox gözəl bir insanın, tatar əsilli Ayişə xalanın evində qalmağa başladım – yerlimiz olan iki tələbə yoldaşla birlikdə. Ayişə xala Nəriman Nərimanovla tanış imiş, onun Həştərxandakı fəaliyyəti barədə danışırdı, ümumiyyətlə, məlumatlı qadın idi, çox dost olduq. Məni qızlardan qoruyurdu; həmin həyətdə yerlimiz tələbə qızlar yaşayırdı, onlar bəzən hansısa bir sualla, çox zaman riyaziyyatla bağlı mənə müraciət etmək istəyirdilər. Mən evdə tək məşğul olanda Ayişə xala onları içəri buraxmırdı – "oğlum məşğul olur, ona mane olmayın". İki ilə yaxın vaxt keçdi, Ayişə xalanın oğlunun hansısa qohumunun ailəsi ev məsələsində korluq çəkirmiş. Biz Ayişə xaladan ayrılmalı olduq – hər iki tərəf qucaqlaşıb ağlaya-ağlaya.

Yaxında bir ev tapdıq, orada işimiz o qədər yaxşı olmadı, hay-küy çoxdu... Yeni ev axtarmağa başladıq. Həzi Aslanov küçəsində (№ 31) yaşayan Anya xala (Тетя Аня) məni və yerlimiz tələbə İlyası evində saxlamağa razı oldu. Həyətdə, birinci mərtəbədə yerləşən mənzil iki otaqdan ibarət idi, kiçik giriş otağında Anya xala özü qalırdı, bu otağın həyət tərəfi şüşəbənd olduğuna görə həm işıqlı idi, həm də ordan həyət görünürdü. Anya xalanın yanından keçib bizim yarıqaranlıq otağa daxil olurduq. Otağımızın bir kiçik arxa pəncərəsi dalana baxırdı və əsasən bağlı olurdu. O pəncərəni işıq üçün deyil, havanı bir qədər dəyişdirmək üçün açırdıq. Digər pəncərə isə həyət tərəfə, daha doğrusu, Anya xalanın otağına açılırdı; oradan işıq gəlirdi. Anya xala "mənim otağımda kitab oxuyub, çalışa bilərsiniz" demişdi. O, evdə olmayanda həmişə orda otururdum, əslində isə o, evdə olanda da "gəl burda otur, oxu" deyirdi. İlyas gündüz işləyib, gecə oxuyurdu, mən günün ikinci yarısı universitetdən qayıdanda Anya xalanın otağında rahat oxuyub-yaza bilirdim.

Pilləkənlə qalxıb-düşən qız

Bizim mənzilin qapısı önündən iki-üç addım aralıda ikinci mərtəbəyə pilləkən qalxırdı. İkinci mərtəbədə yaşayan və bu pilləkənlə qalxıb-düşən bir qız vardı. Bir dəfə o aşağı enərkən qapını açdım, məni gördü, xəfif bir təbəssümlə salam verib keçdi. Onun aydın gözləri, məsum sifəti, ceyran yerişi yadımda qaldı. İkinci mərtəbədən tez-tez fortepiano səsi gəlirdi – gah hansısa klassik musiqi parçası, gah müxtəlif, sürətli qammalar, gah da Azərbaycan mahnıları. Anya xala "bu Nelya`dır, musiqi məktəbində oxuyur, yaxşı qızdır" dedi. Bir dəfə Anya xala, İlyas və mən söhbət edirdik, həmin qız pilləkənlə aşağı enirdi. Anya xala mənim ona tərəf baxdığımı görüb göz vurdu, "tanış olmaq istəyirsinizmi" deyə soruşdu və cavab gözləmədən, "Nelya, gəl bura, oğlanlarımla tanış ol" dedi.

Sən içəri daxil oldun, sakit salam verdin, Anya xalanın taxtında (taxta divan-çarpayı`da), onun yanında oturdun. Anya xala bizə baxıb, "özünüzü Nelyaya təqdim edin görüm" dedi. İlyas mənə baxdı, mən dillənmədim, İlyas davam etdi, adını, hardan gəldiyini, harada, neçənci kursda oxuduğunu dedi, sonra üzünü mənə tutub, "bu da Hamletdir, yerliyik" dedi. Anya xala onu dayandırdı: "deyirsən ki, Hamletin dili yoxdur? Qoy özü danışsın".

Mən, deyəsən, üzümdəki təbəssümdən başqa bir şey nümayiş etdirmək həvəsində və bəlkə də iqtidarında deyildim. Üstəlik, ən azı, İlyasdan daha utancaq idim. Sən köməyimə gəldin: "Nə yaxşı addır –Hamlet. Siz harada oxuyursunuz, ixtisasınız nədir?" Sən gəlməzdən əvvəl görkəmli Amerika alimi, riyaziyyatçı və kibernetik Norbert Wiener`in "I Am a Mathematician" kitabının ruscaya tərcüməsini oxuyurdum (Норберт Винер. Я – математик). Kitab hələ əlimdə idi, heç nə demədən, kitabın üzünü sənə tərəf tutdum, yəni, oxu – riyaziyyatçıyam. Sən gözlərinlə məni süzdün: "hə?! nə yaxşı". Nəhayət, mənim dilim açıldı: "Nelya? Yəni?" Mənim bu eyhamlı sualıma tez cavab verdin: "adım Nailə`dir, Nelya deyirlər".

Adam kimi danışmaq əvəzinə kitabın üzünü göstərməklə mən, az da olsa, bir yekəxanalıq etmişdim (bunu sonra başa düşdüm), indi də çoxbilmişlik etdim: "Nailə Nelyadan daha yaxşı səslənir". İstədim Nailə və Nelya arasındakı fərqləri – heca sayını, sait sayını, ahəngi, uzaltma-qısaltmanı deməklə fikrimi əsaslandırım, amma, bunları deyəcək qədər sərbəst deyildim, dayandım. Sən mənim qiymətverici fikrimi nəinki qınamadın, əksinə, çox gözəl bir söz dedin: "Nailə`dir əsl adım, sadəcə rusdillilər arasında Nelya deyirlər. Siz mənə Nailə deyin". Xeyli sonralar bildim ki, sənin əsl adın Nailəxanım`dır, doğum şəhadətnaməndə Nailəxanım İsmayıl qızı Əsgərli yazılıb.

Tanış olduq. İlk görüşdən xoşuma gəldin, ayrı-ayrı cizgilərlə deyil, bütövlükdə, varlığınla, məlahətinlə, ağlın və zərifliyinlə xoşuma gəldin. Amma, həyatıma möhkəm daxil olduğunu, həyatıma məna və xoş ahəng bəxş edəcəyini, sənsiz həyatı təsəvvür edə bilməyəcəyimi get-gedə, zaman keçdikcə anlayacaqdım.

İsmayıl kişi və Bilqeyis xanım

Səni və ətrafındakıları tanımağa başladım, əsasən sənin danışıqların və kiçik təmaslar nəticəsində. Atan - qubalı İsmayıl Əsgərli maliyyəçi idi, məsul vəzifələrdə çalışmışdı, çox dəqiq (hətta pedant), ehtiyatlı və sakit adam idi. Anan şəmkirli Bilqeyis xanım yeniyetmə yaşlarında yetim qalmış, Gəncədə qohumlarının yanında yaşamış, oxumuş, ictimai fəal şəxs olmuşdu. Əli Bayramov adına qadınlar klubunun fəal üzvü kimi qadınlar arasında ictimai iş aparmaq üçün Quba rayonuna göndərilmişdi. Qadınların çadralardan azad olunması üçün çalışmışdı. Əksəriyyəti savadsız olan qadınları başına yığıb, onlara sosializmin nə olduğunu başa salırmış, hətta, deyilənə görə, onlara Marks`ın Kapitalı`nı oxuyub, izah edirmiş. Respublika miqyaslı fərdi təqaüdçü idi. Qubada atanla tanış olmuş, evlənmişdilər. Bilqeyis xanım açıq təbiətli, deyib-gülən, əliaçıq, insaflı, rəhmdil qadın idi. Köhnə rəfiqələri və tanışları arasında çətin vəziyyətə düşmüş olanlara rast gələndə, onları evə gətirir, yedizdirir, ciblərinə müəyyən xərclik qoyurdu.

Sonralar, biz daha yaxın olanda, ata və ananın başlarına gələn bəzi hadisələri gülə-gülə danışardın. Bilqeyis xanım başında bir beret İçərişəhərdə yol gedirmiş, birdən bir yeniyetmə onun başından beretini qapıb, qaçmağa başlayır. Bilqeyis xanım nə etsə yaxşıdır? Oğlanın dalınca qışqırır: "Ay bala, ay bala, qaçma, yazıqsan, yıxılarsan, əzilərsən, qaçma, beretim halalın olsun".

Mir Cəfər Bağırov Bilqeyis xanıma Bakıda təcili yaxşı ev verilməsini əmr edir. "Gəlin sizə evləri göstərək, ürəyiniz istəyəni seçin götürün" deyirlər. Ev seçmək işi İsmayıl kişiyə həvalə olunur. O, "Monolit" deyilən evdəki yaxşı mənzilə "eh, ora kim çıxacaq" deyir, digər çox yaxşı mənzillərə də yox deyir, nəhayət, Həzi Aslanov küçəsindəki mənzili göstərəndə, "hə, bu yaxşıdır, ikinci mərtəbədir, yeri də yaxşıdır, amma bizə iki otaq bəsdir, üçüncü otağı götürün, başqa adama verin" deyir. Beləliklə, ailə bu şüşəbəndli ikiotaqlı mənzildə məskunlaşır.

Həmin evdə bir dəfə gecə vaxtı qapı açılır və tanıdıqları bir adam içəri bir çanta tullayıb qaçır. Həmin adam nəsə cinayət işlətmiş, işi məhkəmədə imiş. Çantanı açırlar – içi dolu pul! Belə çıxır ki, həmin adam Bilqeyis xanımdan bu işə kömək etməsini istəyir və buna görə rüşvət gətirib. Və rüşvəti geri qaytara bilməsinlər deyə, çantanı içəri ataraq, qaçıb gizlənib. Ər-arvad bilməyiblər nə etsinlər, bəlkə həmin adamı güdürlər və indi kimsə içəri girəcək ki, bu nə puldur?! İsmayıl kişi pul dolu

çantanı götürüb, evdən çıxır və əlində çanta səhərə kimi şəhərdə dolaşır, səhər açılanda o adamı tapıb pulunu, çantasını geri qaytarır. Ailə rahat nəfəs alır.

Qardaş, bacılar

Sən ailənin kiçik uşağı olubsan, qardaşın və iki bacınla aranızda yaş fərqi çox olub. Qardaşın Firidun həkim idi, idman həkimi, travmatoloq kimi çalışırdı. Çox şən və musiqi dolu insan idi. Ümumiyyətlə, ailənizdə musiqi çox sevilirdi. Gəncliyində anan qarmon, atan dəf çalarmış. Firidun pianoda çalıb oxuyurdu, rus romansları və Odessa mahnılarını ifa etməyi sevirdi, onun "madam, kupite papiğosı" oxuduğu yaxşı yadımdadır, "papirosı" deyil, məhz "papiğosı".

Bacın Alya gözəl, xanım-xatın bir insandı. Rus dili müəlliməsi idi. Pianoda çalır və oxuyurdu, oyun havaları çalmağı sevirdi. Biz evlənəndən sonra Alya xanımı daha yaxından tanıdım, çox yaxın dost olduq. Sən həmişə təbəssümlə xatırlayırdın – sən demə, Alya boynundan asdığı medalyonuna mənim şəklimi qoyubmuş. Həyat yoldaşı ona "Alya, mən sənin ərinəm, niyə mənim deyil, Hamletin şəklini gəzdirirsən?" deyə soruşanda, qısaca "sən yanımdasan, şəklini neynəyirəm" deyə cavab veribmiş. Bacın Ədilə`ni mən görmədim. Onu həmişə bir hüznlə xatırlayırdın, "ailəmizdə ən azərbaycanlı, ən milli adam o idi" deyirdin. Ədilə tar məktəbində oxuyur, yaxşı tar çalır, Azərbaycan mahnı və muğamlarını ifa edirmiş. Səid Rüstəmov "Tar məktəbi" kitabını öz imzası ilə Ədilə`yə bağışlayıbmış. Ədilə`də özündəngetmə, epilepsiya xəstəliyi varmış, bu səbəbdən dünyasını tez dəyişib.

Məktəb. Bakı və Quba

Qubada və Bakıda eviniz olub, atan Qubada, anan Bakıda işləyib-yaşayıblar. Məktəbi Bakıda oxumusan, yay zamanı isə əsasən Qubada dincəlmiş, bəzən də Şimali Qafqazın kurort yerlərində istirahət etmisiniz. İbtidai-orta məktəblə yanaşı musiqi məktəbində, piano sinfində oxumusan, ayrıca müəllimlərin də olub; Vaqif Mustafazadənin anası Zivər xanımdan İçərişəhərdə, evində piano dərsləri almusan. Bacı-qardaş hamı musiqi sevən və pianoda ifa edən olsa da, Azərbaycan mahnılarını çalmağı adətən səndən xahiş edirdilər. Orta məktəbin son sinfini Qubada oxumusan. Sinifdəki bəzi qızlar "şəhərdən gələn qız"ın sakitliyini, çox dinib-danışmamasını özünü dartmaq kimi anlamış, ona sataşmağa çalışmışlar. Lakin, tezliklə bu qızın çox utancaq, sadə və təvazökar olduğunu görüb, yaxınlaşıb üzr istəmişlər. İqbal, Zəminə, Dilarə və sən ayrılmaz dostlara çevrildiniz. Sən onları gözəl sayır, özünü bəyənmirdin. Əslində isə, sən o zaman (elə hər zaman) gözəl və məlahətli olmusan, xoş xasiyyətin ətrafındakıları isidir, gözəlliyini daha cazibəli edirdi.

Rus məktəbində oxumuşdun. Firidun və Alya da rusca oxumuşdular. İsmayıl kişi və Bilqeyis xanım isə rusca bilsələr də, doğma dildə danışmağa üstünlük verirdilər. Sən Azərbaycan türkcəsində də rahat danışırdın, sadəcə, arada bəzi səciyyəvi sözləri rusca deyirdin. Qubada məktəbin son sinfində oxumaqla yanaşı musiqi məktəbində piano dərsi də deyirdin. Həm Bakıda, həm rayonda yaşamaq, şəhəri də, kəndi də içdən anlamaq, yəqin ki, səndə insanları daha yaxşı tanımaq və qiymətləndirmək duyğusunu qidalandırmışdı.

Qonşuluq, şeir və musiqi

Kənddə qonşuluq ya şəhərdə qonşuluq – hər ikisi qonşuluqdur, adətən qonşular tez-tez bir-birini görür, hal-əhval tutur, qonşu uşaqlar bir-birilə oynayır, qonşular arasında gediş-gəliş olur. Kənddə hər ailənin öz ayrı evi, həyəti, bağı-bostanı var, amma, qonşulararası yaxınlıq var, birinin o birinə işi düşür, evdə olmayan şeyi qonşudan istəmək olur. Şəhərdə vəziyyət fərqlidir; çoxmərtəbəli evdə yaşayanlar hərə öz mənzilinə qapanır, qonşular bir-birini az görür, bir çox hallarda yaxşı tanış olmur, onların bir-birinə işi az düşür. Lakin, şəhərdə girişi-çıxışı bir olan ümumi qapalı həyət, həyətdən o azmərtəbəli evlərə açılan qapılar və yuxarı qalxan pilləkənlər sıx qonşuluq münasibəti yaradır; demək olar ki, hamı bir-birini tanıyır.

Beləliklə, sənlə qonşu oldum. Pianoda çaldığın zaman özümü sənin yanında xəyal edirdim. Çaldığın tanış mahnıları ürəyimdə və ya sakit səslə oxuyurdum. Hərdən Anya xala səni çaya dəvət edirdi. Ordan-burdan söhbət edir, mahnıları yada salırdıq. Orta məktəbdə oxuyarkən, radioda

populyar mahnıları dinləyir və sözlərini yazmağa çalışırdım; adətən iki dəfə qulaq asmaqla bir mahnının mətnini bərpa etmək olurdu. Az mahnı tapılardı ki, sözləri mənim qalın dəftərimdə olmasın. Məktəbdə, elə bütün kənddə də kim mahnı ilə maraqlanırdısa, məndən sözlərini istəyirdi. Bu səbəbdən sənin mahnı söhbətimiz məzmunlu alınırdı. Mənim sevdiyim bəzi köhnə mahnılar sənin repertuarında yoxdu, amma, "havasını yadıma sala bilərsənmi?" deyirdin. Mən utana-utana zümzümə edirdim və sən ürəyimi titrədən təbəssümünlə "sənin xatirinə öyrənib çalaram" deyirdin. Və həmən mahnının melodiyasını tutmağa və çalmağa başlayırdın.

Mahnıdan şeirə keçirdik. Mən Nəsimi və Füzuli, Vaqif, Vidadi və Nəbati, Sabir və Cəfər Cabbarlı, Səməd Vurğun və Müşfiq, Şəhriyar və Nazim Hikmət və digər şairlərin şeirlərini, həmçinin, xalq şeirlərini sənə söyləyirdim. Mən, adətim üzrə, şeiri hay-küysüz, yüksək həyəcan nümayiş etdirmədən, sadə şəkildə deyirdim. Sən elə təbii, səmimi maraq göstərirdin ki, mən şeir deməkdən əvvəllər duymadığım dərəcədə həzz alırdım. Rus şairlərindən də söz salırdıq – Puşkin, Lermontov, Yesenin, Axmatova... Yadımdadır, bir gün rusca bir neçə şeiri o dərəcədə gözəl səsləndirdin ki, məni heyrət bürüdü. Səsindəki enib-qalxan musiqi, yerində qoyduğun vurğular və pauzalar çox cəzbedici idi. "Yevgeni Onegin"dən Tatyananın Oneginə məktubunu necə gözəl söylədin, bunu təsvir etməkdə acizəm. Mən həmin məktubu S. Vurğunun tərcüməsində Azərbaycan türkcəsində sənə oxudum, sonra orijinalı və tərcüməni sətirbəsətir oxuyub müqayisə etdik, tərcümənin gözəlliyinə heyran qaldığını dedin.

Həyatımızı bəzəyən şeir və musiqi bizi ruhən yaxınlaşdırdı. Şeir və musiqi sevgisi həssaslığın, güclü hisslərin, həyat eşqinin göstəricisidir.

Qonşuda qız sevmək...

Qarşıdakı pilləkən maraq dairəmə daxil oldu. İstər-istəməz pilləkənin necə başlaması, necə burulması, maillik dərəcəsi, ikinci mərtəbədəki qapıya necə çatması kimi incəliklərə fikir verdim. Sənin pilləkan boyu atdığın addımları, necə qalxıb, necə enməyini izləmək xoşuma gəlirdi. Amma, həya-abır gözümü çəkməyə məcbur edirdi. Ağzımı açıb sənə baxdığımı ilk növbədə sənin görməni istəmirdim, ona görə diqqəti cəlb etmədən gözaltı baxır, baxıb başımı aşağı salırdım, yəni, sənin yuxarıdan aşağıya və ya aşağıdan yuxarıya doğru hərəkətini tam izləməkdən məhrum idim. Bu fikir məni yeni, gizli müşahidə üsuluna gətirib çıxardı. İki və ya üç güzgünü yanaşı, pilləkənin burulmasına uyğun bucaq altında düzməklə artıq pilləkana tərəf deyil, güzgülərə baxıb sənin mübarək addımlarını görürdüm. Yaşasın fizik və lirik birliyi!

Sənin ayaq basdığın pillələr mənim yer üzündə, birinci mərtəbədə doğulan sevgimi pillə-pillə yuxarı mərtəbələrə, səmalara qaldırdı...

Qonşuda qız sevmənin öz ləzzəti və öz çətinliyi var. Tez-tez görmək imkanı adamı darıxmağa qoymur, xüsusi görüş vaxtı, xüsusi görüş yeri ilə bağlı narahatlıq və qeyri-müəyyənlik yaranmır. Lakin, çox şeyin göz qabağında olması, göz qoymaq, göz yetirmək imkanı, "hardadır", "hara getdi", "nə vaxt getdi", "niyə getdi", "nə vaxt qayıdacaq" kimi suallar istər-istəməz adamın rahatlığını əlindən alır. Yadımdadır, qar yağmışdı və külək əsirdi. Sənin pilləkənlarla qaça-qaça düşdüyünü gördüm. Kitab oxuyurdum, hardasa 5-6 dəqiqəyə yarımçıq qalan mətni oxuyub geyindim, bayıra çıxdım. Görəsən, hara getmişdin? Həyətdə deyil, çıxıb küçədə dayandım və gözləməyə başladım. Xeyli vaxt keçdi, üşüdüm, narahatçılığım artdı, ürəyimdə səndən incidim. Hardasan? Mənə niyə deməmisən hara getdiyini? Bu boranda - qarda hara gedə bilərdin ki? Ağlıma ağılsız fikirlər də gəlməyə başlayırdı. Hirsli-hirsli evə qayıtdım və... həyətə girəndə piano səsi eşitdim, səs sizdən gəlirdi, "Qubalı qız"ı çalırdın. Bu sən idin! Bu necə oldu, ay Allah? Göydənmi düşdün? Məlum oldu ki, mənim başım kitaba qarışanda sən qaça-qaça çörək alıb qayıdıbsan. "Bəs niyə mənə deməyibsən, bərabər gedərdik?!" sualıma sadə cavab verdin: "Gördüm kitab oxuyursan, mane olmaq istəmədim". Mənim intizarda qalmağım boşa getmədi, xeyli güldük və daha bir kiçik hadisə xatirəyə dönüşdü...

İnsan ömrü boyu seçim edir

Həm Azərbaycan el dilində, həm də ədəbi dildə doğma türkcədən gələn sevgi və sevda sözləri ilə yanaşı, ərəbcədən gələn eşq və məhəbbət sözləri də geniş yayılmışdır. Sevgi hər yaşa xasdır, insan hər yaşda sevgi oduna, eşq atəşinə, məhəbbət alovuna yana bilir. Azyaşlı uşaq, məsələn, oğlan

barədə o, bir qızı sevir demək sadəcə o qızdan xoşu gəlir deməkdir; xoşu gəlmək hələ tam sevgi deyil. Sevgi təbiətin ən bütöv, təbii və şahanə hadisəsidir. Sevgi adamı tam istəyir, yarımçıq sevgi olmur, yarımçıqlıq ötəri hiss və ya ehtirasda ola bilir. Gerçək sevgi, onun doğurduğu aludəçilik, ehtiyac duyğusu, qısqanclıq, ayrılıq qorxusu, sevginin bəxş etdiyi xoşbəxtlik, yəqin ki, müəyyən yetkinlik çağında baş verə bilir. Adətən, 15-16 və daha böyük yaşlı uşaqlar, orta məktəbin ortadan yuxarı sinif şagirdləri aşiq ola bilir, onlarda sevgi, şiddətli bağlılıq istəyi yaranır. Dərin vurğunluq bəzi insanlara onların yaşlı vaxtında qismət olur; bu, ağır məsələdir, yaşlı vaxtda lazım gəldiyindən artıq tənqidi düşüncə insanla onun ətrafı arasına girib, insani münasibətlərə mane ola bilir.

İnsan ömrü boyu seçim edir – müstəqil surətdə və ya başqalarının məsləhəti ilə. Hər şəxs mövcud imkanlar daxilində hansı peşəyə yiyələnəcəyini, hansı ali məktəbə və ya orta-ixtisas məktəbinə daxil olacağını, iş yerini seçməli olur. İnsan kiminlə dost olacağını, harada yaşayacağını, harada istirahət edəcəyini seçir. Xoşuna gələnlər arasında kimi sevəcəyini də seçir – ağıl və hisslərin buyruğu ilə. Əslində, oğlan olsun ya qız, kişi olsun ya qadın, o, qarşı cinsdən olan çox insanlarla qarşılaşır, onlarla dostlaşır, onlardan xoşu gəlir. Yəni, heç bir oğlan deyə bilməz ki, mənim ancaq bir qızdan xoşum gəlib, eynilə, ömrü boyu yalnız bir oğlandan xoşlandığını deyən qız ola bilməz (qeyri-səmimilik və patoloji hallar istisna olmaqla). Xoşa gələnlər arasında birini seçmək, qərar qəbul etmək məsuliyyətli işdir.

Hər sevdiyi qismət olmur insana

Orta məktəbdə sinif yoldaşım olan ala gözlü bir qızla münasibətimiz get-gedə sevgiyə dönüşdü. Bakıda fərqli ali məktəblərə daxil olduq. Riyaziyyatçı olmaq qərarım ağır, arasıkəsilməz zəhmət tələb edirdi, tez-tez deyil, müəyyən fasilələrlə görüşür, şəhərdə bir az gəzişir, sonra gələn görüşədək ayrılırdıq. O qızla münasibətimizə kölgə salan bir cəhət vardı; atamın o qızın ailəsi ilə münasibəti yaxşı deyildi, səbəbini bilmirəm, amma gah özü bu məsələni qaldırır, gah da dost-yoldaşlar vasitəsilə mənə ciddi ismarıc göndərir, təkidlə o qızdan aralı durmamı istəyirdi. Mən geri çəkilməsəm də, kefsiz idim.

Səninlə tanış oldum, bu xoş tanışlıq addım-addım irəlilədi, boy atdı, sevgiyə dönməyə başladı. Mən ilk sevgimlə vidalaşmaq qərarına gəldim, bu, çox ağrılı idi. Böyük günah işlətdiyimi bilirdim, amma, əlacım yox idi, seçim etmək zamanı gəlmişdi. O qız ayrılıq faciəsinə dözə bilməyəcəkdi, bundan qorxurdum.

İlk sevgi istisna hallarda izdivaca çevrilir. İlk sevgi çox uzun sürməsə də, ürəkdə qalır, daha doğrusu, yaddaşda özünə həmişəlik yer tutur.

Hər sevdiyi qismət olmur insana
Ürəyində bəslədiyi sevgilər qalır ona.

Bir qədər sonra sənə hər şeyi danışdım – olduğu kimi – orta məktəbdə o qızı ürəkdən sevdiyimi, ali məktəbin ilk iki ili ərzində onunla görüşdüyümü, sonra görüşlərin seyrəldiyini söylədim. Bəzi şeirlərimin ona həsr olunduğunu deməyə ehtiyac yoxdu, hər şey aydın görünürdü. Sən bu etirafı rahat qarşıladın. Sonralar mənim orta məktəbi bitirməm ərəfəsində hazırlanmış ənənəvi vinyetkanı - sinif şagirdlərinin və müəllimlərin şəkillərindən ibarət lövhəni gətirib mənim evdəki iş otağımdan asdın; orada, təbii ki, həmin qızın şəkli də vardı...

Ay allah, yasəmənlərə bax

Anan Bilqeyis xanımla tanış olduq; kənd təbiiliyini və ləhcəsini qoruyub saxlayıb, aşıq musiqisini sevirdi. İlyasla məni, "tələbə balaları" yeməyə dəvət etdi. İlk dəfə evinizdə olduq. Səndən piano arxasına keçməni xahiş etdim. Populyar mahnılar çaldın, "ürəyinizdən nə keçir, deyin çalım" deyə müraciətinə bəzi xalq mahnıları, bəstəkar mahnıları və romansları çalmanı istədim. O gün sənin lə bir yerdə olmanın həzzini duydum, sənin lə xoşbəxt ola biləcəyimi düşündüm...

Ad günün ərəfəsində ağlıma bir fikir gəldi. Sənin gülləri, o cümlədən yasəməni çox sevdiyini bilirdim. Gecə yarı bulvara getdim. Oradakı çiçəkli yasəmən kolları çox xoşuma gəlirdi. Qucağım

tutan qədər çiçəkli budaqlardan qırdım və evə döndüm. Sizin şüşəbəndin quruluşu yadımda idi. Ehmalca ikinci mərtəbəyə qalxdım. Şüşəbəndin yarıaçıq pəncərəsini tam açıb, yasəmən budaqlarını döşəmənizə atdım. Sonrasını sən söylədin. "Səhər yuxudan qalxanda çiçək ətri məni tutdu. Təəccübləndim, bu qədər gözəl qoxu hardandır? Şüşəbəndə çıxdım. Ay allah, yasəmənlərə bax, nə gözəldir və nə qədərdir! Bir anlığa çaşdım, anlamadım bu hardandır. Sonra... sən gözümün qabağına gəldin. Sən nə yaxşı oğlansan... Çiçəkli budaqları qucağıma yığdım, onların ətrini içimə çəkdim, öpdüm onları. Səni çox sevdim...". Bu sadə əhvalat sənə çox təsir edibmiş ki, sonralar, yeri gəldikcə, onu məmnuniyyətlə yada salırdın.

Şahanə bir qısqanclıq

Universitetdə hərbi dərs keçirdik və qaydaya görə iki ay praktik hərbi təlim, hərbi hazırlıq keçib, imtahan verib hərbi rütbə almalıydıq. Bu təlimi keçmək üçün bizi Gəncədəki hərbi hissələrdən birinə göndərdilər. Bakı-Tbilisi qatarı ilə Gəncəyə gedəcəkdim. Sən məni ötürmək istədiyini dedin. Dünyanı mənə bağışladın sanki. Vağzala gəldin, mənim əmioğlumla birlikdə, kefin yaxşı idi, səmimi və bir az oynaq şəkildə mənə yaxşı yol arzuladın, sənsiz darıxacam dedin. Məni xoşbəxt etdin.

İki ay əsgərlik həyatım maraqlı oldu, sanki, bir kişilik məktəbi keçdik, tələbə yoldaşlar bir-birimizi daha yaxından tanıdıq, həm gözəl, həm də qəribə xasiyyətlər ortaya çıxdı. Axşamlar əsgərlik həyatından qaçıb şəhərə çıxmaq ləzzətindən bəhrələndik. Gəncə və gəncəlilərlə tanış olduq. Hacıkənd və Göygöl mənzərəsindən həzz aldıq.

Gəncə əsgərlik həyatımın ən yadda qalan, ən xoş günləri sənինlə məktublaşmaq, xüsusilə, səndən gələn məktubları oxumaq oldu. Orta məktəbdə aldığım bir neçə sətirlik kiçik bir məktub istisna olmaqla bu, mənim xoşuma gələn, sevdiyim qızdan aldığım ilk ciddi məktub idi. Bir-birimizə açıq sevgi elan etmirdik, amma, məktubların ruhu, xoş, bəzən də ikimənalı ifadələr, incə çalarlar hər şeyi deyirdi, bir-birimiz üçün darıxdığımızı yazırdıq. Mənim sənə sevgim gözümdə yazılmışdı, yəqin ki, bunu görürdün, amma sözdə, dildə bunu ifadə etməmişdim (amma bir dördlük yazmışdım):

Qüdrətdən pay versin Füzuli, Xəyyam
Vəsfinə gücüm yox, özgədir əyyam
Gözlərim söyləyir sənə sevgimi
Neyləyim, dilimi bağlaıb həyam.

Bir məktubunda yazmışdın ki, "mənə əsgər paltarında şəklini göndər". O zamanlar indiki mobil telefon kimi qıvraq vasitələr yoxdu. Mən, təbii ki, əsgər paltarımda fotoatelyeyə getdim, fotoqrafdan mənim "yaxşı" bir şəklimi çəkməsini xahiş etdim. Fotoqraf qabiliyyətli adama oxşayırdı, sənətimi, harada oxuduğumu, şəkli kimə göndərəcəyimi soruşdu və mənə "kresloda əyləş" dedi. Sevdiyim qayda ilə ayağımı ayağımın üstünə aşırdım, fotoqraf "elə yox, ayaqlarını yanaşı tut" və bir jurnal uzadıb, "bunu da əlində saxla" dedi, yəni, məni özü bildiyi "mədəni" vəziyyətə salıb şəklimi çəkdi. Əlimdə tutduğum nə jurnal idi, ona fikir vermədim. Tezliklə sənin şirin məktubun gəldi, bir kənara çəkilib, ürəyim döyünə-döyünə oxumağa başladım. Məktubun əvvəlində yazmışdın ki, "Əlində tutduğun jurnalın üzündəki qız kimdir? Səni ona qısqanıram". Qısqanclıq, ümumiyyətlə, yaxşı xüsusiyyət deyil, amma, bu, həyatda ən xoşuma gələn, şahanə bir qısqanclıq oldu...

"Yaxşı qıza oxşayır"

Gəncə əsgərlik həyatımdan sonra universitet təhsilimin son ili başlayacaqdı. Yayın sonu kəndimizə getdim. Evimizdə qadınlara yaxşı bir qızla tanış olduğum və gələcək barədə ciddi fikrim olduğuna işarə vurdum; atamla bu mövzuda danışmağa utandım. Təbii ki, söhbəti atama da çatdırdılar. Əslində, formal cəhətdən sənə evlənmə təklifi etməmişdim. Amma, bunu edəcəkdim və müsbət cavab alacağıma şübhə etmirdim. Düzdür, haqqımda sizin evdə "yaxşı oğlandır" qiyməti ilə yanaşı, "lap uşaqdır ki" sözü deyildiyi qulağıma çatmışdı. Bu "uşaq" ifadəsi nahaq deyilməmişdi, bir tərəfdən yaş baxımından aramızda bir neçə ay fərq vardı, yəni, sən məndən az da olsa, böyük idin. Digər yandan, məndə, doğrudan da, bir uşaqlıq sifəti vardı; sifət ifadəm, xarici görünüşüm və sadə,

bəzilərinə isə sadəlövh görünən uşaqsayağı davranışım, utancaqlığım məni belə tanıdıbmış. Ümid edirdim ki, sən məni elə-belə uşaq kimi yox, "yaxşı uşaq" kimi tanıyıbsan və gələcəkdə bu uşağın uşaq kimi qalmayacağını, "adam olacağını" başa düşübsən. Elmə, ədəbiyyat və tarixə marağımı bilirdin, gələcək haqqında bəzi nikbin düşüncələrimdən xəbərin vardı.

Payız gəldi. Bakıya qayıtdım. Sənlə görüşümüz çox təsirli oldu. Məktublaşma könüldən könülə yol salmışdı. Məni Gəncəyə yola salanda sənlə əl tutuşub ayrılmışdıq. İndi Bakıda heç bir sözlü hazırlıq aparmadan, icazə istəmədən, çəkinib-utanmadan səni qucaqladım. Sən də təbii surətdə qucağıma sıxıldın, qucağım səadətlə doldu.

Kənddə bizim evdə böyümüş bibim qızı (biz tərəflərdə "mamam qızı" deyirlər) Mehriban Neft daşlarında məsul vəzifədə çalışan bir yerlimizlə ailə qurub, Bakıda yaşayırdı. Mehriban böyük bacım rolunda idi, onun təkidi ilə tələbə olduğum illərdə hər həftə sonu onların evinə gedirdim. Nəticədə paltarlarım yuyulub ütülənir, dadlı ev xörəyi yeyir, yazıb-oxumaqla yanaşı, bir qədər dincəlirdim. Səni Mehribanla tanış etmək qərarına gəldim. Sonra bildim ki, sən demə, kənddə sənin varlığın haqqında sakit, amma, inamlı söhbətimdən sonra Mehribana tapşırıblar ki, sənin kim olduğunu, necə qız olduğunu öyrənsin. Mən bu görüşü necə təşkil etmək barədə düşündüm; sənə nə deyim, ya bəlkə deməyim, harada və necə görüşək, görüşüb nə etməliyik?

Tapdım! Mən sənlə yaxında yerləşən Mərkəzi univermağın qarşısından keçərkən "təsadüfən" bir-birilə söhbət edən əmioğlum və Mehribana rast gələcəyik (Mehribanla şərtləşdiyimiz vaxtda)... Görüşdük, Mehribanı "yaxın ailə üzvü", səni "qonşu dost qız" kimi yüngülcə bir-birinizə təqdim etdim. Hər ikiniz az danışdınız. Əmioğlum sən barədə xoş sözlər demək istədi, onu dayandırdım, zarafata keçdim, "şəxsiyyətə pərəstiş olmasın" dedim. Bir qədər sonra sən getmək üçün icazə istədin, səni evə ötürüb, geri qayıtdım. Əmioğlum səni açıq tərif etməkdə idi. Mehribanın bir xasiyyəti vardı: tərif etməyi sevmirdi, onun kimisə ürəkdən tərifləyini eşitməmişdim, əksinə, qəmiş qoymaqda usta idi. O, sən barədə sadəcə "yaxşı qıza oxşayır" deməklə kifayətləndi, sonra əlavə etdi: "yaxşı qızdır, təki sənin xoşuna gəlsin". Sonralar Mehribanla yaxın dost, bir-birinizə dayaq oldunuz, Mehriban ağır xəstəliyə düçar olanda onun müalicəsini tam öhdənə götürdün, hər cür qayğısını çəkdin...

Məlum deyil kimi kimə verdilər

Məni öz ailə üzvlərinlə və rəfiqələrinlə tanış etdin. Gediş-gəlişimiz artdı. Səni hara çağırdılarsa və ya hara göndərirdilərsə mənimlə gedirdin. Rusdilli rəfiqələrin məni görəndə üzümə "Kakoy xoroşiy, milıy mal`çik" ("какой хороший, милый мальчик") deyirdilər. Deyəsən, mənim haqqımda "uşaq" və "mal`çık" sözləri işlətmədən danışa bilmirdilər. Bu mənə bir qədər qəribə gəlirdi. Bununla onlar məni bəyəndiklərini bildirirdilər, ya bu uşağın hardan çıxdığına təəccüb edirdilər? Bilmirəm, mümkündür ki, bəyənirdilər, amma mən onların gözlədikləri şux, cüssəli, dildən pərgar, əsasən rusca danışan, spirtli içki içən, tez ünsiyyət quran şəhər gənclərindən deyildim. Hər halda, rus və azərbaycanlı rəfiqələrinlə get-gedə dostlaşdıq və mənim heç də darıxdırıcı adam olmadığıma əmin oldular, "mal`çik" sözündən əl çəkməsələr də, yeni sifətlər də daxil etdilər - əvvəlcə "interesnıy" ("интересный"), sonra "ser`eznıy" ("серьезный"). Rəfiqələrin mənim üstümə düşəndə sən gülümsəyir, heç nə demir, mənim qızardığımı görəndə mehribanlıqla əlimdən tutur, bəzən də şən təbəssümlə göz vururdun.

Mehriban xoş xəbər gətirdi: bizimkilər kənddən sizə elçi gəlmək istəyirlər! Məsələ ciddiləşməyə başladı. Eşqə düşmək, sevib-sevilmək yaxşı şeydir, insan sanki qanad açır, uçur. Evlənmək göylərdən yerə enməkdir, sərbəstlik kəskin şəkildə azalır, qanad açıb uçmaq əvəzinə gah düz, gah kələ-kötür torpaq üzərində yeriməli, addımlarını ölçüb-biçməli olursan, qayğılar artır. Lakin, evlənmənin gözəl tərəfi daha çoxdur – sevdiyin insanla birləşmək, əl-ələ tutub yeni yola çıxmaq, bu yola xas olan yeni hisslərə qovuşmaq həyata yeni məna verir. Bu birlik əksər hallarda bar verir, dünyaya yeni insanlar gətirir.

Elçilər gəldi. Mən gözə dəyməmək, gizlənmək istəyirdim, lakin, hər iki tərəf mənim və sənin meydanda olmamızı tələb etdilər. Xülasə, səni mənə verdilər. Bu ifadə bir az köhnəlmiş sayılır, məlum deyil kimi kimə verdilər. Mənimkilər kəndə dönəcək, mən Bakıda, yəni, sənin yanında qalacam, sonra, nə zamansa, səni götürüb gedəcəm kəndə. Daha sonra, yəqin ki, şəhərə qayıtmaq lazım gələcək. Hara getsək də, bir olmaq yazıldı alnımıza...

Əlindən tutub dünyanı gəzdirəcəm

Tezliklə kiçik nişan mərasimi baş tutdu. 1970-ci il yanvarın 1-də sizin evdəki böyük otaqda sənin və mənim dostlarımız, əsasən gənclərin iştirakı ilə bir məclis quruldu. Dostların bir qismi nişanlıları ilə gəlmişdilər. İç tərəfində 1.1.1970-ci il və adımız yazılmış nişan üzüklərini barmağımıza taxdıq. Çox şən, sözlü-musiqili məclis keçdi. Vokal qabiliyyəti olan dostumuz xahiş etdi ki, onu pianoda müşayiət edəsən. Biz də ona dəm tutduq, səsi olan da, olmayan da oxuyurdu.

Dostlardan biri maraq oyandırmaq və məni sınamaq istədi: "Nailə xanıma gələcək həyatınızda nə vəd edirsən? Bu gün, hamımızın şahidliyi ilə buyur, ona de, söz ver, biz də eşidək". Mən çaşdım. Nə vəd edim ki, dəyərli olsun? Tez cavab verdim: "Nailə, səni xoşbəxt etməyə çalışacam, yəni, çalışacam ki, birlikdə xoşbəxt olaq". Hay-küy qalxdı. Bəyənənlər də oldu, intriqanı böyüdənlər də. Kimsə "riyaziyyatçı olduğun bilinir, mücərrəd, çox ümumi şey vəd edirsən, yerə en, öhdənə konkret bir şey götür" dedi. Nə vəd edə bilərəm? Maddi nemət, var-dövlət, cah-cəlal vəd edə bilmərəm. Elmlə məşğul olmaq istəyirdim, bunu sən də bilirdin. Daha bir səs gəldi: "Elə şey de ki, sonra onu gözlə görmək, yoxlamaq mümkün olsun və Nailə xanım sənə sağ ol, vədini yerinə yetirdin deyə bilsin". Mən məclisin coşğun ruhuna uyğun səviyyədə qızışıb vəd etdim: "Nailə, dünyanı sənin ayaqların altına sərəcəm. Əlindən tutub dünyanı gəzdirəcəm. Əlbəttə, bəxtim müttəfiq olsa". Sən gülümsədin. Mənim bəzi planlarım barədə söhbətlərimiz olmuşdu, həyatımızın mənalı və xoş keçəcəyinə inamın vardı. Üstəlik, boş vəd verməklə aram olmadığını bilirdin. Təntənəli şəkil alan bu vədvermə müzakirəsi dayandı, şənlik davam etdi.

Nə qəribə adam olmuşam

Biz nişanlandıqdan sonra Bilqeyis xanım israrla "bura da sənin evindi, həmişə gəl, burada ye, iç, dincəl" deyir, sən də məni evinizdə görməyə ürəkdən şad olduğunu göstərirdin. Hərdənbir də sən bizə gəlirdin. Ara-sıra şəhərdə gəzməyə çıxır və ya kino-teatrlarda filmə tamaşa etməyə gedirdik. Mənim xahişimlə saçlarını bir qədər uzatmağa başlamışdın.

Mən oxuyur, diplom işi yazır, dövlət imtahanlarına hazırlaşırdım. Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutu məni işə götürmək istəyirdi. İşə girməklə yanaşı imtahan verib, aspiranturaya (indiki terminlə desək, PhD proqramına) daxil olmaq imkanından faydalana bilərdim. Bu uğurlu olacağı təqdirdə oxumaq-tədqiqat üçün Moskva Dövlət Universitetinə getmək ideyası da ortada idi. Bütün bunlar üçün gərgin çalışma birinci yerdə dursa da, həll olunması vacib olan və mənim çətinlik çəkdiyim bir məsələ də vardı – məzunların böyük əksəriyyətini rayonlardakı orta məktəblərə müəllim göndərir, digərlərini isə əsgərliyə aparırdılar. Mən müəllim göndərilməli olanlar arasında idim. Riyaziyyat və Mexanika İnstitutunda işə düzəlmək və aspiranturaya sənəd vermək üçün göndərildiyim rayondan "uçotdan çıxarma", yəni, "sənə ehtiyacımız yoxdur" adlı bir sənəd tələb olunurdu. Əhvalatı sənə danışanda "bəlkə atam buna kömək edə bilər" dedin və gümanın doğru çıxdı. Atan İsmayıl kişi Quba rayonunda sayılan kişilərdən biri idi. O, "universitetin verdiyi təyinat göndərməsini Quba rayonuna al" dedi və qısa bir zamanda Quba rayonunun mənə ehtiyacı olmadığı barədə sənəd əldə olundu. Sevincimin həddi-hüdudu yoxdu, indi elmlə məşğul olmaq üçün hər şey yalnız özümdən asılı idi.

1970-ci il yaddaşımızda böyük, mühüm yer tutdu. İlin ilk günü nişanlandıq. Bir-birimizə isnişdik, daha yaxın olduq. Mən universiteti bitirdim. Yay tətili ərəfəsində iş və aspirantura təhsili üçün Akademiyanın Riyaziyyat və Mexanika İnstitutuna müraciət etdim. Payızın əvvəlində uğurla imtahan verib aspiranturaya daxil oldum. Sonra Moskvaya getdim, elmi-tədqiqat işimi Lomonosov Moskva Dövlət Universitetinin riyaziyyat və mexanika fakültəsində, funksional analiz və funksiyalar nəzəriyyəsi kafedrası üzrə davam etdirmək hüququ qazandım. Yaxın illər nə işlə məşğul olacağımız tam müəyyənləşdi və evlənmək zamanı gəldi.

Noyabr ayının 24-də Bakıda, Səadət sarayında toyumuz oldu. Toyda Gülağa Məmmədov oxuyurdu. Bizi rəqsə dəvət etdilər. Çox utanırdım, rəqs etməkdən imtina etdim. Sən yaxşı rəqs edə bilirdin və əlbəttə, toyumuzda gərək rəqs edəydik, amma, bacarmadım. Sən normal insan kimi sözsüz ki, rəqs etmək istəyirdin, amma, mənim vəziyyətimi görüb üz vurmadın. Bilirəm ki, pis iş gördüm. Çox güman ki, bu yerdə sənin rəfiqələrin mənə, bu qeyri-normal uşağa, haqlı olaraq,

"stranıy mal`çik" ("странный мальчик") kimi yeni sifət yapışdırmışdılar (?!). Sonralar yadıma düşəndə xəcalət çəkirdim, doğrudan da, nə qəribə adam olmuşam, adam da öz toyunda öz nişanlısı ilə rəqs etməzmi?!

İki mələk

O biri gün, noyabrın 25-də, axşam atam Bakı-Tbilisi qatarında Bakıdan kəndə gedən toy adamları üçün bütöv bir vaqon götürmüşdü. Qatarda söhbət edə-edə kəndimizə yollandıq. Noyabrın 26-da toyumuzun 3-cü günü sən kəndimizə qədəm basdın. Adətimiz üzrə ayaqların altında qoç qurban kəsildi. Qapıdan içəri girəndə qapının ağzına bir nəlbəki qoydular, adətə görə sən onu ayağınla vurub sındırmalı idin. Əvvəl tuflinin ucu ilə yavaşca, sanki nişan alan kimi nəlbəkiyə toxundun, sonra tuflinin dabanı ilə zərbə endirdin, nəlbəki çilik-çilik oldu. Uşaqlardan kimsə əl çaldı. Ev adamları, xüsusilə kiçik yaşlı və orta məktəbdə oxuyan qardaşlarım, qohum və qonaqlar sənin başına yığılmış, maraqla və bir növ sınayıcı baxışlarla səni süzürdülər. Sən uşaqlarla tez dil tapdın, onlardan neçənci sinifdə oxuduqları, hansı fənləri sevdikləri barədə soruşurdun, uşaqlar məmnuniyyətlə danışır və sənə müəyyən xidmət göstərməyə çalışırdılar.

Bir neçə gün sonra qardaşın Firidun toy adətinə uyğun olaraq, qız evinin nümayəndəsi kimi kəndə gəldi – səni və bizləri görməyə. Yenə adətə görə bizim ailə üzvlərinə müxtəlif hədiyyələr gətirmişdi. Onun şən təbiəti, sadəliyi və açıqlığı hamının xoşuna gəlmişdi. Bizimkilər Firidunu hörmətlə, hədiyyələrlə Bakıya yola saldılar.

Artıq Bakıda, kəndə gəlməmişdən əvvəl sənə kəndə xas olan adətlər barədə məlumat vermiş, səni evdəki adamlar və yaxın qohumlarla qiyabi tanış etmiş, kənd yerində bəzi formal qaydalara əməl etmək lazım gəldiyini anlatmışdım. Sən heç bir çətinlik çəkmədən "kəndçi" ola bildin. "Ciji" dediyimiz nənəm Zeynəb qeyri-adi dərəcədə gözəl insan idi, başı bəlalar çəkmişdi. Gənc yaşlarında həyat yoldaşı, mənim babam məşhur Qaçaq İsaxan Sovet hökuməti tərəfindən pusquya salınıb öldürülmüş, onun qardaşının aqibəti də eyni olmuş, nənəm dörd kiçik uşağı ilə Qazaxıstana, sonra Qırğızıstana sürgün edilmiş, sonda vətənə qayıtmış, uşaqarını böyütmüşdü. Tale elə gətirmişdi ki, məni də körpə yaşlarımdan əsasən o əzizləmişdi, mən də onun ruhunu duymuş, onun qucağını sevmişdim. Mənə görə o, mələk idi; mələk deyəndə mən həmişə nənəm Zeynəbi düşünmüşəm. Nizami demişkən ("Leyli və Məcnun"), "o, zamanın ziynəti idi, adı da Zeynəb". Nənəm Zeynəb sonralar yazdığım "Ziyarət" poemasının baş qəhrəmanıdır. Mənim üçün mələk ideal qadın deməkdir. Sənինlə müəyyən həyat yolu keçdikdən sonra anladım ki, sən də mələksən, sən mənim ikinci mələyim oldun. İki mələk bir-birini çox gözəl anlayırdı.

Ümumiyyətlə, ailəmiz qəti mühafizəkar deyildi. Amma, yenə kənd kənddir. Kənd qaydalarına görə gəlin bir müddət qayınatasının üzünə çıxmamalı, çıxmağa başlayanda isə başı örtülü olmalıdır. Nənəm də belə düşünürdü. Lakin, gəldiyimiz günün sabahı atam səni masa arxasında bərabər yeməyə dəvət etdi və qapanmağa heç bir ehtiyac olmadığını bildirdi. Sən qısa zaman ərzində hamı ilə yaxşı münasibət qurmağa nail oldun, hamının sevimlisinə çevrildin. Səndə bir məlahət vardı, insanlara hörmət və məhəbbətlə yanaşırdın, öz növbəsində səni tanıyanlar sənə vururlur, səni sevirdilər.

Moskva. "Evimizdə yeməyimiz var"

Belə qərara gəldik ki, mən Moskvaya yola düşüm, can atdığım elmi araşdırmalar mühitinə daxil olum, yəni, əsas işimə başlayım, üstəlik, uyğun bir mənzil tapıb kirayə edim. Yeni ilə yaxın atam səni Moskvaya gətirsin və beləliklə, bərabər Moskva həyatına başlayaq. Belə də oldu. Xoşbəxt günlər yaşadıq Moskvada. Vaxtımın əsas hissəsini oxumaqla, Moskva universitetinin məşhur elmi seminarlarında iştirak etməklə keçirirdim. Mən universitetdə olanda sən evdə yemək-içmək hazırlayır, dincəlir, kitab oxuyur və ya yaxın ətrafda gəzib-dolanırdın. İmkan olduqca birlikdə gəzməyə çıxırdıq.

Bakıdan Moskvaya xeyli kitab aparmışdım. Sən riyazi kitablarla yanaşı, Azərbaycan ədəbiyyatına aid "Koroğlu" dastanı, sevgi dastanları, M.F. Axundov, Cəlil Məmmədquluzadə, Sabir, Cəfər Cabbarlı, Səməd Vurğun və İsmayl Şıxlı`nın əsərləri kimi kitabları görəndə çaşıb qaldın, "axı sən

bu kitabların hamısını oxuyubsan, çoxunu əzbər bilirsən, Moskvaya niyə gətiribsən bunları?" deyə təəccübünü bildirdin. Mənim cavabım, düşünürəm ki, gözlənilməz idi: "bu kitabları sən oxumaq üçün gətirmişəm, istəyirəm Azərbaycan ədəbiyyatının bir sıra mühüm əsərləri ilə yaxından tanış olasan, üstəlik, Azərbaycan dilin inkişaf etsin". Sən məmnun oldun, hətta bu kitablarla kifayətlənmədin, get-gedə Azərbaycan ədəbiyyatı ilə daha yaxından tanış oldun və Azərbaycan dilində səlis danışmaqla yanaşı, yaxşı yazmağı da adət elədin. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı, yəqin ki, bizi bir-birimizə daha da yaxınlaşdırdı; sən ədəbiyyat vasitəsilə mənim ruh halımı, sanki, daha yaxşı anladın.

Novruz bayramı ərəfəsində arzunu bildirdin: "kəndə getmək istəyirəm, bir neçə günlüyə". Mən çaşdım: "kəndə, ya Bakıya?". Çaşmağım təbii idi - məgər sənin ömür boyu yaşadığın ev, valideynlərin, bacı-qardaşın, yaxınların Bakıda deyildimi? Niyə kəndə getmək istəyirsən? Sən izah etdin: "Kənd həyatı, kənd havası xoşuma gəldi. Kənd üçün, kənddəkilər üçün darıxmışam". Qısa bir vaxtda səndə kəndimizə, mənim ailəmə qarşı belə rəğbət yaranması, bir az ibarəli dillə desək, sənin kəndlə birləşməyin ("kəndə inteqrasiya olunmağın") məni necə məmnun etməsin?! Kəndə xəbər verdik, imkan daxilində hədiyyələr alıb kəndə yola düşdün. Təyyarədən düşəndə necə qarşılandığını məmnuniyyətlə xatırlayırdın: atam "gəlinim gəldi" deyə minik maşınına qırmızı kəlağay bağlamış, səni təntənə ilə qarşılamış, evdə qurban kəsmişdi.

Moskvada dolanışığımız pis deyildi, mənim təqaüdüm və evdən atamın göndərdiyi pullar ev kirayəsini verməyə, yeyib-içməyə kifayət edirdi; əlbəttə, gen-bol yaşayırdıq deyə bilmərəm. Lakin, sənin evdarlığın işimizi asanlaşdırır, nikbinliyin həyatımızı bəzəyirdi. Sənin sayəndə kirayədə yaşadığımız sadə mənzil Moskvada yazıb-oxuyan azərbaycanlı dostlarımızın və onların dostlarının gözəl söhbət, musiqi və yeyib-içməklə müşayiət olunan cazibə mərkəzinə çevrilmişdi.

Elmi rəhbərimin mənə oxumaq üçün verdiyi ilk iri həcmli məqalələrdən biri ingiliscə yazılmışdı. Mənim orta məktəbdə öyrəndiyim və ali məktəbdə davam etdirdiyim xarici dil fransız dili idi. Sən isə ingilis dili öyrənmişdin, tələffüzün də yaxşı idi. Sənin lə bərabər məqalənin girişini oxumağa çalışdıq. Xalis riyazi məqaləni anlamaq sənə çətin idi. Mən lüğətin köməyilə və ingilis dili qrammatikasının elementlərini öyrənməklə məqaləni oxuya bildim. Bir qədər sonra yeni və bu dəfə almanca yazılmış məqalə oxumaq lazım gəldi. Nə etməli? Sənin lə gəzməyə çıxmışdıq. Kitablara baxırdıq. Böyük almanca-rusca lüğəti gördüm, əlimə götürüb baxdım və... geri yerinə qoydum. Pulumuz, demək olar ki, qalmamışdı. Sən mənim sifətimdə məyusluq cizgiləri görübsənmiş. Lüğəti əlinə götürüb, "alıram" dedin. Mənim "axı..." deyə başladığım fikri bitirməyə imkan vermədin: "Allah kərimdir, evimizdə yeməyimiz var, bu kitab sənin işin üçün lazımdır". Kitabı aldın, evə gəldik, atamın pul göndərdiyi barədə bildiriş gəlmişdi! Bu əhvalatı yada salmağı sevirdin...

Tələbə oldun

Yay ayları əvvəlcə kəndə getdik, bir qədər orada qalıb, Bakıya qayıtdıq. Sən hamilə idin.

Kəndimizdən üç qohum məktəb məzunu ali məktəbə imtahan verməyə gəlmişdilər; onlardan ikisi Azərbaycan Pedaqoji Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsinə daxil olmaq üçün sənəd vermişdilər. Sən savadlı idin və onların imtahana hazırlaşmasına kömək edirdin. Musiqi təhsili almışdın, lakin, ali məktəbə daxil olmaq istəmirdin, səbəbi sanki ortada bir incikliyin olması idi. Sən ingilis dilini sevirdin və orta məktəbi bitirəndə ingilis dili ixtisası almaq istəmişdin. İmtahanları uğurla verməyə başlamış, ingilis dili üzrə şifahi imtahanda tanınmış pedaqoq İsmixan Rəhimov`dan yüksək qiymət almışdın; o, sənin tələffüzünü tərifləmişdi. Lakin, ən güclü olduğun rus dili yazı imtahanında sənə qəsdən yüksək qiymət yazmamışdılar ki, müsabiqədən keçə bilməyəsən. Təəssüf ki, o zaman ali məktəbə qəbul imtahanlarında kömək etmək istədikləri abituriyentə rəqib sayılanları kəsmək və ya aşağı qiymət yazmaq praktikası vardı; bu tərəfgirliyi ən rahat yazı imtahanlarında edirdilər. Bu hadisədən sonra sən "ali məktəbə qəbul olmaq istəmirəm" demişdin.

İndi sənin həyatın mənsiz, mənim həyatım sənsiz təsəvvür edilmirdi və təbii olaraq, hər birimiz digər həyat dostunun iradə və istəklərini anlamağa çalışırdıq. Bu yerdə mən bir fikir irəli sürdüm: "Gəl sən də rus dili fakültəsinə daxil olmaq üçün sənəd ver"! Sən qəti etiraz etdin, "yox, necə sənəd verim, mən bu barədə heç düşünməmişəm, imtahana hazırlaşmamışam" dedin. Mən sənin kifayət qədər savadlı olduğunu və qəbul olacağına şübhə etmədiyimi bildirdim. O qədər təkid etdim ki,

mənə tabe oldun, tez-tələsik qəbul üçün zəruri olan sənədləri hazırladıq. Qəbul imtahanlarında çətinlik çəkmədən uğur qazandın və tələbə oldun!

Aygün gəldi. Dağlara üz tutduq

Sənin ali məktəbə daxil olmağın və hamiləliyin Bakıda qalmağını tələb etdi, mən isə elmi araşdırmaları davam etdirmək üçün Moskva`ya qayıtmalı oldum. Tezliklə birinci övladımız, qızımız Aygün dünyaya gəldi, sən ana oldun, mən – ata. Uşaqla təhsilin çətin olacağını düşünüb, "bəlkə qiyabi təhsilə keçim?" dedin. Mən qəti etiraz etdim, "Anan Bilqeyis xanım Aygünü saxlamaqda sənə kömək edəcək, gündəlik dərsə get, oxu. Qiyabiyə keçsən, oxumağa marağın azalacaq, möhlət götürmək istəyəcəksən, nəticədə yaxşı təhsil ala bilməyəcək və mümkündür ki, həvəsdən düşüb təhsili yarımçıq qoyacaqsan". Sən sözümə qulaq asdın, əyani oxudun; yaxşı oxuduğun üçün təqaüd alırdın.

Mən Moskvada, sən Bakıda – darıxırdıq bir-birimiz üçün və mən həm də qızımız Aygün üçün. İl ərzində bir neçə dəfə, imkan olan kimi mən Bakıya gəldim, bir dəfə də sən Moskvaya gəldin. Tez-tez telefonla danışmağa çalışırdım. O zaman indiki mobil telefon cənnəti yoxdu, şəhərlərarası telefon köşkləri vardı, onun içindəki kiçik yarığa 15 qəpiklik sikkə salıb danışmaq olurdu. Lakin, bu çox yorucu iş idi, telefon nömrəsini yığıb qarşı tərəfə zəng etmək cəhdi əksər hallarda uğursuzluqla nəticələnir və ya çox vaxt tələb edirdi.

Yay tətili başlananda Bakıya qayıtdım. Körpə Aygün həyatımıza yeni məzmun, yeni şirinlik, yeni gözəllik gətirdi. Yeni çətinliklər də əmələ gəldi, amma, çətinlik çəkmək, məhrumiyyət duymaq bir ana kimi, əsasən, sənə qismət oldu. Mənim əlimdən çox iş gəlmirdi, körpənin atası olmaq anası olmaqdan müqayisəolunmaz dərəcədə rahat vəzifədir.

Kəndimizə getdik. Biz tərəflərdə aran xalqının yüz illərlə hər yay dağlara köç etmə ənənəsi var. Bu il də istisna olmadı, nənəm Zeynəb, sən, mən, Aygün və kiçik qardaşlarım Ermənistanın şimalındakı dağlara üz tutduq. Adətən Ermənistanın Vorontsovka (Воронцовка, Sovet adı – Kalinino), Calaloğlu (Sovet adı – Stepanavan) və Gümrü (Sovet adı – Leninakan) üçbucağında, Lori vilayətindəki alp çəmənliklərində məskən salardıq. Çay sahilində, bulağa yaxın bir yerdə çadırlar (dəyələr) qurulurdu. Bu yurdda yaşamağın ayrı ləzzəti vardı; burada çörək və xörək bişirmək, çimmək və paltar yumaq, gəzmək və dincəlmək maraqlı və qeyri-adi şəkil alırdı. Sən dağ şəraitinə tez öyrəşdin, qonşular sənə, "şəhərli qız"a kömək etməyə, xidmət göstərməyə çalışırdılar. Çörək bişirənlərin hər biri sənə bir neçə çörək pay göndərirdi. Sən də borclu qalmırdın, dadlı piroq bişirib uşaqlara paylayırdın. Ətrafı yamyaşıl ot və çiçəklərlə dolu təpələr, dağlar və dərələr bürüyürdü. Sənin təşəbbüsünlə bəzən kiçik qazanları bir-iki vedrəyə doldurub çəmənə, gül-çiçəklərin arasına gedir, orda yeyib-içir, söhbət edir, mahnı oxuyur və dincəlirdik.

Sonrakı illərdə yay aylarını bir-iki dəfə Şimali Qafqazda və Gürcüstan (Başkeçid - Dmanisi) dağlarında, bir dəfə Moskvada, bir neçə dəfə Qubada keçirsək də, ənənəvi Lori yaylaqları bizi daha çox cəzb edirdi. Sən burada sadə xalqla, el adətləri, o cümlədən, köç mədəniyyəti ilə tanış oldun, aşıqlara qulaq asdın, "əvvəllər aşıq musiqisini başa düşmürdüm, sənin, sizin evdə onu çox sevdim" deyir, bundan sonra televiziyada yaxşı aşıq musiqisinə, aşıq söz-söhbətinə məmnuniyyətlə qulaq asırdın. İki aşığın – Kamandar və Hüseyn Saraçlı`nın ifasını çox sevirdin. Mənim qardaşlarım və öz uşaqlarımızdan ibarət böyük ailəni dağlarda köçəri həyatın tələb etdiyi asan olmayan şərtlərə uyğun şəkildə bəslədin, bu həyata canlılıq, xoş əhval bəxş etdin. Qarabağ münaqişəsinin başlanması ilə çox faciələr baş verdi və ayağımız ənənəvi dağ yurd yerlərimizdən kəsildi.

Dağdan kəndimizə döndük, bir neçə gün sonra isə Bakıya qayıtdıq. Sən ali məktəbdə dərsinə davam edəcək, Aygünün qayğısını çəkəcək, nazı ilə oynayacaq, mən Moskvaya gedəcəkdim...

Faciə. "Mən burda qalıram"

İnsan həmişə plan qurur. Böyük ya kiçik plan olsun – insan sabah, bir həftə və ya bir ay sonra, bu il və ya bir neçə il sonra nə edəcəyi barədə düşünür, görəcəyi işləri ardıcıllığa düzür, zaman keçdikcə uzun müddətə nəzərdə tutulan planlara yenidən baxır, onlarda dəyişiklik edir. Bəzən zəka, iradə və bəxt əl-ələ verir, insan düşündüyündən daha artıq uğur qazanır. Lakin, insanın qurduğu planlar

heç də həmişə həyata keçmir, çox hallarda insan nəzərdə tutduğunu tam əldə edə bilmir. Təəssüf ki, bəzən vəziyyət kəskin surətdə dəyişir, insan ondan asılı olmayan hadisələr qarşısında aciz qalır, planlar pozulur, alt-üst olur. Atalar demişkən, "sən saydığını say, gör fələk nə sayır".

Faciə baş verdi. Atam qəzaya düşüb, vəfat etdi. Dünyamız dəyişdi, dünyamıza qaranlıq çökdü. Kəndə toplaşdıq. Böyük ailə başsız qaldı; məndən kiçik qardaşlarımdan biri altı yaşında idi, digərləri məktəbdə oxuyurdular. Ailədə böyük kişi rolunda mən qaldım. Faciənin yaşatdığı sarsıntı ilə yanaşı, təcili cavab gözləyən suallar yarandı. Nə etməli? Necə yaşayaq? Ailənin qayğıları ilə mənim Moskvada oxuyub elmi tədqiqatla məşğul olmağım sanki bir-birilə düz gəlmirdi. Mən ayrı çıxış yolu görmədim – Moskva fəaliyyətimi dayandıracağımı, ən azı bir müddət təxirə salacağımı və kənddə qalıb ailəni çətin vəziyyətdən çıxarmaq istədiyimi söylədim. Uşaqlar çox sevindilər.

Bu ağır günlərdə yanımda idin, məni və uşaqları ovutmağa çalışırdın. Mən qərarımı elan edəndə sanki diksindin, amma dillənmədin. Gecə bu barədə ehtiyatla söhbət açdın. Mənim aspiranturanı bitirməyim üçün bir il qaldığını, bir neçə məqaləmin nəşr üçün nüfuzlu elmi jurnallara qəbul edildiyini, idman dili ilə desək, finişə yaxınlaşdığımı yada saldın. Və yenə ehtiyatla elmi fəaliyyətimi durdurmağın doğru fikir olmadığını vurğuladın. Sənin fikrin təbii və aydın idi, səni yaxşı başa düşdüyümü, lakin, başqa yolum olmadığını da dedim.

Sabah səhər yas içində olan ailə və yaxın qohumların qarşısında "mən bir söz demək istəyirəm" dedin. Və başladın: "mən istəyirəm ki, Hamlet Moskvaya getsin, işini davam etdirsin, yarımçıq qalmasın, dissertasiyasını yazıb, bitirib müdafiə etsin. Onda imkanı artar və ailəyə daha çox köməyi dəyər, tək indi deyil, gələcəkdə də. Və onun əvəzində mən burda qalaram". Mən mat qaldım. Birdən-birə ortaya atdığın bu fikrə necə gəldin, nə vaxt gəldin? Mənimlə məsləhətləşməmiş rahatca belə fikir söyləyirsən. Sonra mənə demişdin ki, gecə yatmamısan, çox götür-qoy edib, nəticədə bu fikrə gəlibsən.

Hamı hörmət və təəccüb dolu gözlərini sənə zilləmişdi. Sən davam etdin: "mən burda uşaqlara baxaram, Hamlet qədər olmasa da, dərslərinə nəzarət etməyə çalışaram. Bəlkə, icazə versələr, məktəbdə rus dili müəllimi kimi işləyərəm, o da bizə bir kömək olar". Kimsə dilləndi: "a bala, çox sağ ol! Allah bu ailəyə nə yaxşı belə gəlin qismət edib. Amma, sənin körpə uşağın var". Baş verəndən çox təsirlənmişdim, mən də sanki bir müşahidəçi kimi əlavə etdim: "ali məktəbdə oxuyursan, onu buraxmaq olmaz..." Sən, deyəsən, doğrudan da, hər şeyi ətraflı düşünüb-daşınıbsanmış, cavabların hazır idi: "Aygünə anam baxacaq, bir az sonra, lazım gəlsə, bura gətirərik. Ali məktəbdə də qiyabiyə keçərəm".

Bir qədər sonra atamın dost və həmkarları rayon maarif şöbəsi ilə soraqlaşıb, sənin məktəbdə rus dili müəllimi kimi işləyə biləcəyini müəyyən etdilər. Hadisələr elə sürət almışdı ki, sabahı gün səni məktəbə apardılar; orada bir dərs dediyin, çox maraq və rəğbətlə qarşılandığın xəbəri yayıldı.

Mən odla su arasında qalmışdım. Sənin böyük ailəmizə və şəxsən mənə qarşı göstərdiyin fədakarlıq göz qabağında idi. Mən həm sənin bu yüksək iltifatın qarşısında heyran qalmış, həm də məni bir növ xilas etmək naminə hər cür əziyyətə qatlaşmaq istəyini kişi qürurumu sığışdıra bilmirdim. Sənin alicənablığın məni xoşbəxt edir, sənin Aygündən ayrı qalacağın, ali təhsildən kənarlaşmağın və bu mühitdə qarşılaşacağın şübhəsiz çətinliklər isə məni narahat edirdi.

Görünür ki, məsələlərin belə gedişi tək məni deyil, məndən daha böyükləri də narahat edirmiş. Bir gün əmilərim gəlib bizimlə, yəni, mən və sənlə birlikdə söhbət etmək istədiklərini bildirdilər. Onlar başımıza gələn faciənin ağırlığını bir daha qeyd edib, belə vəziyyətlərdə adi hal almış "həyat davam edir" ifadəsi ilə başlayan təsəlliverici sözlər söyləyib, nəhayət, əsas mətləbə keçdilər: "Hamlet, bala, biz məsləhətləşib belə fikrə gəlmişik ki, nə səni Moskvadan yarımçıq ayırmaq düzdür, nə də Nailəxanımı körpə balasından və ali məktəbindən. Biz belə başa düşdük ki, Hamletin bir ili qalıb Moskvada işini tamamlamağa. Atanın ən böyük arzusu səni elm adamı kimi görmək idi. Onun arzusunu yerinə yetir ki, ruhu şad olsun. Bununla cəmiyyətdə də bir mövqe qazanarsan, ailəyə də kömək edərsən. Biz burdayıq, nə lazım olsa onu edəcəyik ki, uşaqlar korluq çəkməsinlər. Və bu uşaqlar tezliklə Bakıya gedəcəklər – oxumağa, ali təhsil almağa. Ona qədər siz də möhkəmlənərsiniz, uşaqları oxudarsınız, elə bu da atanızın ruhunu şad edər". Böyüklərin dediklərinə digər ailə üzvləri və yaxın qohum və dostlar da şərik oldular. Sən və mən göz yaşları içində razılığımızı bildirdik.

Cazibə mərkəzi

Başımıza gələn faciədən sonra özümüzə gəlsək də, mən də, sən də bu ağrını içimizdə yaşadıq. Mənim ilk məqaləm dərc olunanda sənin dediyin ilk söz yadımdadır: "heyf, atan görmədi, görsəydi, hamıdan çox o sevinərdi". Mən namizədlik (PhD) dissertasiyamı müdafiə etdim, maaşım bir az artdı, Akademiyanın Riyaziyyat və Mexanika İnstitutunda çalışmaqla yanaşı, Bakı Dövlət Universitetində dərs deməyə başladım. Moskva Dövlət Universitetində geniş vüsət almış elmi seminarlar məktəbindən keçmişdim və Bakıda öz elmi seminarımı yaratdım. Elmi araşdırmalarımı daha da intensivləşdirmək üçün yenidən Moskvaya üz tutmaq ideyası da yarandı.

1983-ci ilə qədər elmi tədqiqatla bağlı ən çox, bəzən də uzun müddətə gedib-gəldiyim şəhər Moskva idi... Sən də aradabir mənim yanıma, Moskvaya gəlirdin. Hər gəlişin azərbaycanlılar arasında toy-bayrama çevrilirdi. Sən dadı damağımızda qalan xoş qoxulu plovun və dolmanla, ətirli, mürəbbəli çayınla, şirin, musiqili söhbətlərinlə bu bayramın cazibə mərkəzi və aparıcısı olurdun. Bəzi gəlişlərində Moskvaya uşaqlarımızı da gətirirdin. Bir dəfə Moskvaya gələn təyyarəni nə səbəbdənsə Moskva qəbul edə bilməmiş, təyyarə Voronejə enmişdi. Balaca Aygün hay-küy salmış, "mən Moskvanı, atamı istəyirəm, Moroneji (yəni, Voroneji) istəmirəm" deyə ağlayırmış.

Mənim oxuduğum kitab və məqalələri görürdün, məndən və dostlardan elm adamları – klassiklər və müasirlər barədə eşidirdin. Nəticədə elm adamları və elm tarixi barədə təsəvvürün genişlənmişdi. Riyaziyyat və fizika üzrə klassikləri tanıyırdın, çağdaş riyaziyyatçılar haqqında da məlumatlı idin, bir qismini görmüş, bəziləri ilə şəxsən tanış olmuşdun. Riyaziyyat və fizika tarixinə aid mənə suallar verməyi xoşlayırdın.

Elmi məqalələrimin ingilis dilinə tərcümə olunması sayəsində ABŞ hökuməti müəlliflik haqqı ödəyirdi. Sovet hökuməti bu haqqı mənə və digər müəlliflərə ABŞ dolları ilə deyil, uyğun sertifikat və ya çek şəklində ödəyirdi. Yəni, hökumət müəlliflərə və ya xaricdə çalışan sovet vətəndaşlarına dollar və digər valyuta şəklində ödənilən pulları özü götürür, əvəzində müəyyən məbləğdə çek verirdi. Bu çek ilə "Beryozka" adlanan xüsusi mağazalar şəbəkəsində satılan şeyləri almaq olurdu. Beləliklə, hökumət xarici mallar alır və onları "Beryozka" mağazalar şəbəkəsində aldığı qiymətdən dəfələrlə baha qiymətə satırdı. Müəlliflik haqqı olaraq aldığım çeklər işimizə çox yarayırdı, qızlara, sənə və mənə dəbdə olan keyfiyyətli şeylər ala bilirdik.

Bu gəlinin əxlaqı, dili çox xoşuma gəlir

Sən institutun birinci ilində ikən Aygünü, institutu bitirmə ərəfəsində isə ikinci qızımız – Zeynəbi dünyaya gətirdin. Mənim böyük və ya birinci mələyim – nənəm Zeynəb öz adını bizim qızımıza verməyi təkid etdi. Mən bunu istəmirdim, elə zənn edirdim ki, nənəm sağ ola-ola onun adının yeni doğulan körpəyə verilməsi nənəmin dünyadan gedəcəyinə işarədir. Lakin, nənəm sözünün üstündə bərk durmuşdu. Mən vəziyyətdən çıxmaq üçün müəyyən bir əsas uydurmağa çalışdım: "sən gözümüzün işığısan, məndən kiçik gör neçə nəvən var, sonralar adını qoymağa çox namizəd olacaq". Nənəm geri çəkilmədi və bu inadının səbəbini izah etdi: "bu gəlinin, Nailənin əxlaqı, davranışı, dili çox xoşuma gəlir, onun dilindən heç vaxt söyüş, pis söz çıxmaz. Adım qızınıza qoyulsa, mən dünyamı dəyişəndən sonra adım ancaq xoş, təmiz sözlərlə çağrılar, ruhum da şad olar".

Bir qədər sonra üçüncü qızımız – Aytən dünyaya gəldi. Yaxşı yadımdadır, Hüsü Hacıyev (indiki Azərbaycan) küçəsi ilə evə doğru gedirdim, arxadan adımı çağıran səs eşitdim. Döndüm, Məleykə xanım Abbaszadə idi, Lomonosov Moskva Dövlət Universitetindən tanış idik. Gözlədim, Məleykə xanım mənə çatan kimi, "Hamlet, sizə çatdıq" dedi. Anlamadım. Təəccüblə üzünə baxdığımı görən Məleykə xanım anlatdı: "Sizin iki qızınız var, bizim də əkiz iki qızımız oldu, bərabərləşdik". Mən Məleykə xanımı təbrik edib güldüm: "Məleykə xanım, biz yerimizdə durmamışıq ki, gəlib bizə çatasınız, indi bizim üç qızımız var".

Sən xeyli sonra sonuncu – dördüncü qızımız Ülkəri dünyaya gətirdin.

(*Ardı var*)

BERLİN HUMBOLDT UNİVERSİTETİNİN DOKTORANTININ XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜ

MEETING OF DOCTORAL STUDENT AT HUMBOLDT UNIVERSITY IN BERLIN WITH STUDENTS OF KHAZAR UNIVERSITY

Dekabrın 4-də Təhsil departanmentinin təşkilatçılığı ilə Berlin Humboldt Universitetinin doktorantı Xəyyam Namazovun Xəzər Universitetinin tələbələri ilə görüşü keçirilmişdir. ZOOM platforması üzərində onlayn keçirilən tədbirdə Xəzər Universitetinin müəllim və tələbələri ilə yanaşı, digər universitetlərdən də tələbələr iştirak etmişdir.

"Avropada doktorantura təhsili tədqiqat işinə necə yanaşmalı" mövzusunda təqdimat edən Xəyyam Namazov Avropa və xüsusilə Almaniyada doktorantura təhsilinin təşkili və tədqiqat müddətində önəmli olan məqamlar haqqında geniş məlumat vermişdir. Təqdimatdan sonra iştirakçıların suallarını cavablandıran natiq tədqiqat işində önəmli olan mərhələləri və məqamları bir daha vurğulamışdır. Yekun olaraq belə bir görüşün bir daha təşkil olunması və bununla bağlı əlaqə saxlamaq üçün ortaq bir platformanın yaradılması üzərində işləmək qərara alınmışdır.

On December 4, Khyyam Namazov, the doctoral student at Berlin Humboldt University, met with Khazar University students, with the coordination of the Department of Education. The online event on the ZOOM platform was attended by faculty membersand students from Khazar University, as well as students from other universities.

Khayyam Namazov, who made a presentation on "How to approach research in doctoral education in Europe", gave detailed information about the organization of doctoral education in Europe and especially in Germany and the important points in the research process. After the presentation, the speaker answered the questions of the participants and reiterated the important stages and points of the research. In the end, it was decided to work on the re-organization of such a meeting and the establishing of a common platform for communication.

"XƏZƏR"İN ƏMƏKDAŞLARI TƏHSİL NAZİRLİYİNİN KEÇİRDİYİ GÖRÜŞDƏ

STAFF MEMBER OF KHAZAR UNIVERSITY AT A MEETING HELD BY MINISTRY OF EDUCATION

Dekabrın 10-da Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov ali təhsil müəssisələrinin beynəlmiləlləşməsi prosesində mövcud vəziyyəti, əcnəbilərin ölkəmizdə təhsili, prosesin idarə olunması, təşviqi və yeni çağırışları müzakirə etmək məqsədilə ali təhsil müəssisələrinin əməkdaşları ilə görüş keçirmişdir.

Görüşdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora, Beynəlxalq əlaqələr üzrə koordinatorlar Fatimə Vəliyeva və Rauf İsmayılov iştirak etmişlər.

Görüşün sonunda ali təhsil müəssisələrinin sualları cavablandırılmışdır.

On December 10, Deputy Minister of Education of the Republic of Azerbaijan Firudin Gurbanov met with employees of higher education institutions to discuss the current situation in the process of internationalization of higher education institutions, education of foreigners in our country, process management, promotion and new challenges.

Khazar University's Vice Rector for International Relations, Vlad Vernygora, and International Relations Coordinators, Fatima Valiyeva and Rauf Ismayilov, attended the meeting.

At the end of the meeting, the questions of higher education institutions were answered.



XƏZƏR UNİVERSİTETİ VƏ "DÜNYA" MƏKTƏBİ IV TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN TƏHSİL SƏRGİSİNDƏ

KHAZAR UNIVERSITY AND DUNYA SCHOOL AT THE 4TH TURKISH UNIVERSITIES FAIR

Dekabrın 6-da Bakı şəhərində Hilton hotelində TRUCAS-ın təşkilatçılığı ilə IV Türkiyə Universitetlərinin Təhsil Sərgisi keçirildi. Sərgidə Türkiyənin 20-dən artıq ali təhsil müəssisələri, tədris mərkəzləri iştirak edirdilər.

Şirkətin dəvətlisi olaraq sərgidə Azərbaycandan yalnız Xəzər Universiteti və "Dünya" məktəbi iştirak edirdilər. Sərgiyə gələnlər Xəzər Universitetinin pavilyonuna böyük diqqət göstərdilər. Türkiyə Respublikasının Bakıdakı səfiri Cahit Bağcı Xəzər Universiteti və "Dünya"məktəbinin yerləşdiyi pavilyona baxıb, təşəkkürünü bildirdi. Sərgidə universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Alex Vernygora, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Tələbə qəbul şöbəsinin müdiri Lamiyə Namazova, Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Fatimə Vəliyeva və assistenti Ülkər Əhmədzadə iştirak edirdilər.

On December 6, the 4th Turkish Universities Fair was held at the Hilton Hotel in Baku with the coordination of TRUCAS. The fair was attended by more than 20 Turkish universities and training centres.

Only Khazar University and Dunya School from Azerbaijan participated at the fair as invitees of the company. Visitors to the fair paid great attention to the Khazar University pavilion. Turkish Ambassador to Baku Cahit Bagci visited the pavilion of Khazar University and Dunya School and thanked them. The fair was attended by Vlad Alex Vernygora, Vice-Rector for International Relations, Alovsat Amirbeyli, Director for Public Relations and Media, Lamiya Namazova, Head of the Student Admission Department, Fatima Valiyeva, Coordinator of the International Relations Department and Ulker Ahmadzadeh, Assistant of the department.



ÜSKÜDAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

MEETING WITH REPRESENTATIVES OF USKUDAR UNIVERSITY

Dekabrın 8-də Türkiyənin Üsküdar Universiteti ilə Xəzər Universitetinin nümayəndələri arasında perspektiv əməkdaşlıq yönümlü görüş keçirilmişdir. Müzakirənin məqsədi iki tərəf arasında tanışlıq və ikitərəfli əməkdaşlığı gücləndirmək olub.

Görüşdə Xəzər Universitetindən Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Veryngora, İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova, İctimaiyyətlə əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Beynəlxalq əlaqələr üzrə koordinatorlar Fatimə Vəliyeva və Rauf İsmayılov, Üsküdar Universitetindən Beynəlxalq əlaqələr şöbəsinin müdiri Peyman Cəfər, beynəlxalq əlaqələr üzrə mütəxəssis Dilbər Əliyeva iştirak etmişlər.

Görüşün nəticəsi olaraq Xəzər Universiteti ilə Üsküdar Universiteti arasında imzalanmaq üçün ilkin müqavilə hazırlanıb.

On December 8, the prospective cooperation-focused meeting was held between representatives of Uskudar University and Khazar University. The purpose of the talks was to strengthen familiarity and bilateral cooperation between the two sides.

The meeting was attended by Vlad Veryngora, Vice Rector for International Affairs, Raziya Isayeva, Head of the Development Center, Saida Sharifova, Dean of Graduate School of Science, Art and Technology, Alovsat Amirbeyli, Director of Public Relations and Media, Peyman Jafer, Director of International Relations at Uskudar University, International Relations Specialist Dilbar Aliyeva, Khazar University's International Affairs Coordinators, Fatima Valiyeva and Rauf Ismalilov.

As a result of the productive meeting, a preliminary agreement was prepared for being signed between Khazar University and Uskudar University.

PROREKTOR SAKİT OKEAN ALYANSININ KONFRANS ZALININ AÇILIŞINDA

VICE RECTOR AT THE OPENING CEREMONY OF THE PACIFIC ALLIANCE CONFERENCE HALL

Dekabrın 13-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora Bakıda, Demirchi Tower-də Sakit Okean Alyansının Konfrans zalının açılışında iştirak etmişdir. Mərasimdə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədov çıxış edərək, tədbirin əhəmiyyəti barədə danışmışdır. Kolumbiya səfiri Luis Antonio Dimaté Cardenas, Meksika səfiri Rodrigo Labardini və Çili Missiyasının rəhbəri Fidel Coloma tədbirdə çıxış etmişlər.

Çıxışlardan sonra Sakit Okean Alyansı və onun beynəlxalq ticarət və geostrateji inkişaf üçün əhəmiyyəti haqqında qısa təqdimat keçirilib.

Kuluar söhbətlərində Xəzər Universitetinin Asiya-Sakit okean tədqiqatlarının və Azərbaycanın Sakit Okean Alyansına üzv olan ölkələrlə akademik əməkdaşlığının təşviqində rolundan danışılıb

On 13 December Khazar University's Vice-Rector for International Affairs, Vlad Vernygora, took part in the Opening of the Pacific Alliance Conference Hall at the Demirchi Tower in Baku. Mr. Elnur Mammadov, Azerbaijan's Deputy Minister of Foreign Affairs, was the guest of honour at the ceremony, giving his remarks on the importance of the occasion. Mr. Luis Antonio Dimaté Cardenas, Ambassador of Colombia, Mr. Rodrigo Labardini, Ambassador of Mexico, and Mr. Fidel Coloma, Head of Mission of Chile spoke at the event.

The remarks were followed by a short presentation about the Pacific Alliance and framework's significance for international trade and geo-strategic developments.

In the couloirs, Khazar University's role in promoting the Asia-Pacific studies and Azerbaijan's academic cooperation with the Pacific Alliance-bound countries was acknowledged.

HƏMKARLAR TƏŞKİLATININ BAYRAM HƏDİYYƏSİ

HOLIDAY GIFT BY TRADE UNION

Dekabrın 21-də Xəzər Universiteti Həmkarlar Təşkilatı tərəfindən təşkilat üzvlərinin azyaşlı uşaqları üçün (hər azyaşlı uşağa 1 ədəd) Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə hazırlanmış bayram hədiyyəsi təqdim edildi.

Neftçilər, Mərkəz kampuslarında və yataqxanada çalışan əməkdaşlara hədiyyələr Universitet Həmkarlar Təşkilatının sədri Ələvsət Əmirbəyli tərəfindən verildi.

On December 21, Khazar University Trade Union presented a holiday gift for the young members of the organization's members (one for each minor) on the occasion of World Azerbaijanis' Solidarity Day and the New Year.

Gifts were given to the employees of Neftchiler, Central campuses and dormitories by the Chairman of the University Trade Union Alovsat Amirbayli.

HƏMKARLAR TƏŞKİLATI BİR QRUP ƏMƏKDAŞA YARDIM ETDİ

THE TRADE UNION HELPED TO A GROUP OF EMPLOYEES

Dekabrın 23-də Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Nizami Rayon Komitəsi tərəfindən Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl münasibətilə əlaqədar olaraq Xəzər Universitəsində çalışan həmkarlar təşkilatının 8 nəfər aztəminatlı əməkdaşına yardım göstərildi. Universitet Həmkarlar Təşkilatının sədri Ələvsət Əmirbəyli əməkdaşlara zərfin içində pul təqdim etdi.

On December 23, the Nizami District Committee of the Trade Union of Public Administration and Public Service Workers of Azerbaijan provided assistance to 8 low-income employees of the trade union working at Khazar University on the Solidarity Day of World Azerbaijanis and the New Year.

Chairman of the University Trade Union Alovsat Amirbeyli presented money to the employees in an envelope.

"XƏZƏR XƏBƏR"İN
AMEA NİZAMİ
ADINA
ƏDƏBİYYAT
İNSTİTUTUNDA
BÜROSU





İLK DƏFƏ OLARAQ "ARI" VƏ "MİRAT" SATİRİK JURNALLARI TRANSFONEMİLİTERASİYA EDİLƏRƏK YENİ ƏLİFBADA TOPLU HALINDA NƏŞR EDİLİB

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində "Arı" və "Mirat" satirik jurnalları transfoneliterasiya edilərək yeni əlifbada toplu halında ilk dəfə nəşr edilib. "Arı" və "Mirat" satirik jurnallarının komplektləri Ədəbiyyat İnstitutunun Elmi Şurasının 13 sentyabr 2021-ci il tarixli 6 saylı iclasının qərarı ilə çap olunub.

Toplunun elmi redaktoru AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir. Jurnalları transfoneliterasiya edən, lüğət, qeydlər, izahların müəllifləri, çapa hazırlayanlar Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, professor Vüqar Əhməd və həmin şöbənin elmi işçisi Dilbər Rzayevadır. Həmçinin "XX əsrin əvvəllərində ictimai-siyasi şərait və satirik mətbuat" adlı ön sözün müəllifi Vüqar Əhməd, "Arı" və "Mirat" satirik jurnallarının nəşri tarixi və ədəbi-ictimai mənzərə" araşdırmasının müəllifi Dilbər Rzayevadır. Rəyçilər filologiya üzrə fəlsəfə doktoru, dosent Rauf Sadıxov və filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayevadır.

"Arı" və "Mirat" jurnalları yeni əlifbada" adı ilə çap olunan toplu XX yüzilliyin əvvəllərində yayımlanmış "Arı" (1910-1911, 13 nömrə) və "Mirat" (1910, 5 nömrə) satirik jurnallarının ərəb qrafikalı əlifbadan transfoneliterasiyasıdır. "Ulu" nəşriyyatında işıq üzü görən toplu 430 səhifədir.

Jurnallarda həmin dövrün ictimai-siyasi, ədəbi və mədəni hadisələri ilə yaxından tanış olmaq mümkündür. Jurnalın komplektlərindən ədəbiyyat, mətbuat tariximizin araşdırmaçıları, doktorant, dissertant, magistr və bakalavr təhsili alan filoloqlar faydalana bilər. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.



AKADEMİK İSA HƏBİBBƏYLİ "NİZAMİ GƏNCƏVİ" MEDALI İLƏ TƏLTİF OLUNUB

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli TÜRKSOY tərəfindən "Nizami Gəncəvi" medalı ilə təltif olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2021-ci ildə Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncamı ilə qüdrətli Azərbaycan şairinin ədəbi irsinin öyrənilməsi və təbliği istiqamətində ölkədə və dünyada genişmiqyaslı işlər həyata keçirilməkdədir. Bu münasibətlə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY bir sıra mühüm əhəmiyyətli layihələri icra etməkdədir. Bu günlərdə ölkəmizdə "Nizami Gəncəvi İli" çərçivəsində keçirilən tədbirlərdə TÜRKSOY-un nəşr etdiyi "Nizamini oxuyaq" kitab-albomu Nizami Gəncəvinin dünyada təbliği istiqamətində atılmış uğurlu layihədir. TÜRKSOY eyni zamanda "Nizami Gəncəvi" medalını təsis edib. Bu günlərdə Muğam mərkəzində keçirilən tədbirdə TÜRKSOY-un baş katibi Düsen Kaseinov tərəfindən medallar təqdim olunub.

"Nizami Gəncəvi İli"ndə xidmətlərinə görə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli "Nizami Gəncəvi" medalı ilə təltif olunub. Akademik İsa Həbibbəyli TÜRKSOY-un Türk xalqlarının mədəniyyətinin dünyada tanıdılmasında mühüm xidmətlər göstərdiyini bildirib və qeyd edib ki, "Nizami Gəncəvi İli" çərçivəsində Düsen Kaseinovun rəhbərlik etdiyi təşkilatın fəaliyyəti, nəşr etdiyi "Nizamini oxuyaq" kitabı yüksək qiymətə malikdir. Eyni zamanda akademik İsa Həbibbəyli "Nizami Gəncəvi" medalı ilə təltif etdiklərinə görə TÜRKSOY-a və onun baş katibi Düsen Kaseinova öz dərin minnətdarlığını bildirib.



"ŞOTA RUSTAVELİ VƏ NİZAMİ GƏNCƏVİ" KİTABININ TƏQDİMATI

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Şota Rustaveli və Nizami Gəncəvi" kitabının təqdimatı keçirilib. Təqdimatda Gürcüstandan filologiya elmləri doktorları, professorlar İrma Ratiani, Maka Elbakidze, mətnşünas Qaqa Lomedze, Özbəkistandan professor Hamidulla Baltobayev və digər ziyalılar iştirak ediblər.

Tədbiri AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2021-ci ildə Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncamından sonra bu sahədə görülən işlərdən söz açıb. Akademik İsa Həbibbəyli ölkə başçısının Sərəncamından sonra Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 8 yanvar 2021-ci il tarixli Qərarı olduğunu xatırladaraq "Nizami Gəncəvi ili" çərçivəsində akademiyada və Ədəbiyyat İnstitutunda həyata keçirilən işlər barəsində geniş məlumat verib. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu ilə birlikdə 2017-2020-ci illərdə həyata keçirdikləri layihənin nəticəsi olaraq "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyasının Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr edilməsini "Nizami Gəncəvi ili"nə böyük töhfə adlandırıb. Kitabın ərsəyə gəlməsində Nizamişünaslıq şöbəsinin də böyük xidmətləri olduğunu vurğulayıb.

Sonra Nizamişünaslıq şöbəsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Zəhra Allahverdiyeva kitabın hazırlanma prosesindən və mahiyyətindən danışıb.

Filologiya elmləri doktoru, professor İrma Ratiani "Şota Rustaveli və Nizami Gəncəvi" kitabı haqqında söz" adlı məruzə edərək həyata keçirilmiş bu layihə haqqında təfərrüatı ilə məlumat verib və nəşrin ərsəyə gəlməsində əziyyəti keçən hər kəsə təşəkkürlərini çatdırıb.

M.Uluqbəy adına Özbəkistan Milli Universitetinin "Özbək ədəbiyyatşünaslığı" kafedrasının müdiri, professor Hamidulla Baltobayev Nizami Gəncəvinin özbək dilinə ilk dəfə olaraq tərcümə olunmuş "Xəmsə"nin xüsusi nəşrini də "Nizami Gəncəvi ili"nə bir hədiyyə adlandırıb.

Nizamişünaslıq şöbəsinin əməkdaşlarından filologiya üzrə fəlsəfə doktorları Təhminə Bədəlova və Yelena Teyer, gürcü alimlərdən Maka Elbakidze və Qaqa Lomedze çıxış edərək "Şota Rustaveli və Nizami Gəncəvi" kitabı haqqında fikirlərini bölüşüblər.

AMEA Memarlıq və İncəsənət İnstitutunun icraçı direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xəzər Zeynalov çıxışında Nizaminin əsərləri ilə bağlı incəsənət nümunələrindən bəhs edib. Ona Şota Rustaveli və Nizami Gəncəvinin birgə portretini çəkmək təklif olunub.

Sonda qonaqlara Nizami Gəncəvi ilə bağlı rəmzi hədiyyələr və müxtəlif nəşrlər təqdim olunub.



"NİZAMİ GƏNCƏVİNİN TÜRKİYƏDƏ TƏBLİĞİ VƏ NƏŞRİ" MÖVZUSUNDA TƏDBİR

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Nizami Gəncəvinin Türkiyədə təbliği və nəşri" mövzusunda tədbir keçirilib. Tədbirdə Türkiyədə nəşr olunan "Qardaş qələmlər" dərgisinin baş redaktoru Yaqub Ömeroğlu, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid və başqa ziyalılar iştirak ediblər.

Tədbiri AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açıb. Nizami ilə bağlı Ədəbiyyat İnstitutunda nəşr olunmuş işlər haqqında geniş məlumat verib. Həmçinin institut tərəfindən "Xəmsə"nin çap ediləcəyini bildirib: "Sirlər xəzinəsi"nin otuz əlyazma əsasında elmi-tənqidi mətni hazırlanıb. Ümumiyyətlə, Nizaminin təbliği işində ən çox dəstək verənlərdən biri Yaqub Ömeroğludur. "Qardaş qələmlər"in xüsusi buraxılışı Nizaminin pasportu ola biləcək dərgidir. Onun müəllifi əziz dostumuz Yaqub Ömeroğludur".

Sonra Yaqub Ömeroğluna "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin ədəbi irsinin Türkiyədə təbliği və nəşri sahəsindəki xidmətlərinə görə" AMEA Humanitar Elmlər Bölməsinin Fəxri Fərmanını təqdim edib.

Avrasiya Yazarlar Birliyinin başqanı, "Qardaş qələmlər" dərgisinin baş redaktoru Yaqub Ömeroğlu çıxış edərək Fəxri Fərmanla təltif edildiyinə görə minnətdarlığını bildirib: "Bu il "Qardaş qələmlər" dərgisinin 15 ildir ki, fəaliyyət göstərdiyini deyən baş redaktor İsa müəllimin dəstəyini hər zaman hiss etdiklərini diqqətə çatdırıb. "Mən bu, institutun türk dünyası ilə bağlı araşdırmalarını uzaqdan duyurdum. Burada sizin şöbələrinizdə olmaq, sizinlə tanışlıq, şöbələrin gördüyü işləri yaxından müşahidə etmək məni çox sevindirdi. Türk dünyası üçün Azərbaycan-Bakı bir ədəbiyyat mərkəzinə dönüb. "Nizami ili"ndə gördüyümüz bu işlər Türkiyədə Nizaminin tanınması istiqamətində bir başlanğıcdır. "Qardaş qələmlər"in yayımlandığı ölkələrdə Nizami Gəncəviyə yeni baxış formalaşdığını gördük".

Nizamişünaslıq şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Nüşabə Araslı çıxışında əlavə edib ki, "Nizaminin şərq bədii təfəkküründə gətirdiyi ən böyük bəşəri fikirlərdən biri də xalqlar arasında dostluğu təbliğ etməsidir". "Qardaş qələmlər"in bu sayının da dostluğa, qardaşlığa söykəndiyini deyən şöbə müdiri dərginin baş redaktoruna təşəkkürlərini çatdırıb.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid qeyd edib ki, "bu gün türk dünyasının tanınmış ədəbiyyat adamı, naşiri Yaqub Ömeroğlu ilə görüş və onun təltif olunması günüdür. Bu münasibətlə onu təbrik edirəm. İsa müəllimə sonsuz minnətdarlığımı bildirirəm ki, belə bir addım atıb. Türk dünyasında ədəbi-mədəni əlaqələrin gələcək inkişafından danışanda Yaqub Ömeroğlunun adını çəkirik. "Qardaş qələmlər" dərgisi artıq on beş ilə yaxındır ki, bütün türk dünyasının ədəbiyyatını birləşdirmək sahəsində böyük işlər görür. Onun akademiyanın Fəxri Fərmanı ilə təltif olunması böyük nüfuzdur, bu, sizin fəaliyyətinizə bir ehtiramdır".

Sonda Nizamişünaslıq şöbəsinin əməkdaşı Təhminə Bədəlova Nizami Gəncəvinin şeirlərindən səsləndirib.

Gülnar Səma
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
İctimaiyyətlə əlaqələr şöbəsi



XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ NİZAMİ GƏNCƏVİ KONFRANSI





Dekabrın 9-10-da Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamenti və İngilis dili və ədəbiyyatı departamentinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş Beynəlxalq Nizami Gəncəvi Konfransı keçirilmişdir.

Hibrid formatda keçirilən konfransda dünyanın bir sıra ölkələrindən – Türkiyə, Misir, Banqladeş, Əfqanıstan, Seneqal, Rusiya, Gürcüstan, İran və digər ölkələrdən Nizami irsinin tanınmış tədqiqatçıları iştirak etmişlər.

Konfransın keçirildiyi Mərmər zalda tədbirə dəvət olunmuş İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əli Purmərcan tərəfindən Nizami Gəncəvinin İranda çap edilmiş kitablarından ibarət sərgi, Azərbaycanın tanınmış xalçaçı rəssamı, Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müəllimi, universitetin Xalça Muzeyinin direktoru Afaq Kərimovanın Nizami Gəncəviyə həsr olunmuş sənət əsərləri nümayiş olunurdu.

(Ardı səh.64-də)



INTERNATIONAL NIZAMI GANJAVI CONFERENCE AT KHAZAR UNIVERSITY

On December 9-10, Khazar University hosted the International Nizami Ganjavi Conference dedicated to the 880th anniversary of the great Azerbaijani poet Nizami Ganjavi, co-organized by the Department of Languages and Literature and the Department of English Language and Literature.

The conference, held in a hybrid format, was attended by well-known researchers of Nizami's legacy from a number of countries - Turkey, Egypt, Bangladesh, Afghanistan, Senegal, Russia, Georgia, Iran and others.

An exhibition of Nizami Ganjavi's books published in Iran and presented by Ali Purmarjan, Chairman of the Cultural Center of the Embassy of the Islamic Republic of Iran in Azerbaijan, who was invited to the event and works of art dedicated to Nizami Ganjavi by Afag Karimova, a well-known Azerbaijani carpet artist, a teacher at Khazar University's Music and Art Department, and the director of the university's Carpet Museum was held in the Marble Hall where the conference was held.

(*To be continued page 65*)







Konfrans İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Milana Abbasovanın qonaqları salamlaması ilə açıq elan olunduqdan sonra Nizami Gəncəvinin həyat və yaradıcılığından, dünya ədəbiyyatında rolundan bəhs edən videoçarx nümayiş etdirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış edərək, böyük söz ustadının əsərlərində təcəssüm olunmuş elmi-fəlsəfi, tarixi-coğrafi, bədii-estetik məqamlara diqqət çəkdi, dünya nizamişünaslığında həllini gözləyən problemlərdən danışdı. Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova Nizami yaradıcılığının araşdırılmasında ortaya dəyərli elmi tədqiqatlar qoyan konfrans iştirakçılarına öz təşəkkürünü bildirdi, konfransın işinə uğurlar arzuladı.

Konfransda çıxış edən İran Mədəniyyət Mərkəzinin sədri Əli Purmərcan Nizami Gəncəvi irsini hikmət, əxlaq, mənəviyyat xəzinəsi adlandıraraq, sözlərindəki təravət və yeniliyin heç zaman sönməyəcəyini vurğuladı.

Misir Ain Şəms Universitetinin professoru Şirinxanım Abdelnaem Hasanin atası Dr. Əbd əl-Nəim Həsəneynin 1951-ci ildə yazdığı "Nizami Gəncəvi: dövrü, mühiti və poeziyası" adlı elmi işi ilə şərqşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi aldığına diqqət çəkdi, özünün də Nizaminin qəhrəmanı Şirinin şərəfinə adlandırıldığını qeyd etdi. Professor Şirinxanım atasının yolunu davam etdirərək, bütün elmi fəaliyyətini nizamişünaslığa həsr etdiyini vurğuladı.

Sonra dəvətli məruzəçilərdən professor Ahmed - Kader el Shazli (Misir), professor Mustafa İsen (Türkiyə), Dr. Firuz Fevzi (Əfqanıstan), Alireza Qiyaməti (İran) Nizami Gəncəvinin Azərbaycanın övladı olduğunu, onun təkcə türk, ərəb və fars mədəniyyətinə məxsus mütəfəkkir deyil, bir dünya şairi olduğu düşüncəsini önə çəkdilər.

(Ardı səh.66-da)





After the conference was opened by the coordinator of the Department of English Language and Literature Milana Abbasova, a video was shown about the life and work of Nizami Ganjavi and his role in world literature.

In his opening remarks, Khazar University's founder, Chairman of its Board of Directors and Trustees, Professor, Academician Hamlet Isaxanli, drew attention to the scientific, philosophical, historical, geographical, artistic, and aesthetic aspects embodied in the great master's words, and to the problems to be addressed in Nizami studies. Rector of Khazar University, Associate Professor Irada Khalilova, thanked the conference participants for their valuable research in Nizami's work, and wished them success in their work.

Speaking at the conference, Ali Pourmarjan, Chairman of the Cultural Center of the Embassy of the Islamic Republic of Iran in Azerbaijan, called Nizami Ganjavi's legacy a treasure of wisdom, morality and spirituality, emphasizing that the freshness and innovation in his words will never fade.

Shirkhanim Abdelnaem Hassan, the professor of Ain Shams University of Egypt, mentioned that her father Dr. Abd al-Naim Hassanei received a doctorate in Oriental Studies in 1951 with his scientific work "Nizami Ganjavi: Period, Environment and Poetry". Then, among the invited speakers, Professor Ahmed - Kader el Shazli (Egypt), Professor Mustafa Isen (Turkey), Dr. Firuz Fevzi (Afghanistan), Alireza Qiyamati (Iran) said that Nizami Ganjavi was a son of Azerbaijan and it was highlighted that he was not only a thinker of Turkish, Arabic and Persian culture, but also a world poet.

(To be continued page 67)











İran Mədəniyyət Mərkəzinin sədri Əli Purmərcan Nizami Gəncəvinin İranda nəfis şəkildə şap olunmuş "Xəmsə"sini və biblioqrafiyasını professor, akademik Hamlet İsaxanlıya təqdim etdi.


Universitetin Xalça Muzeyinin direktoru Afaq Kərimova Nizami Gəncəvinin əsərləri əsasında toxuduğu xalçalar haqqında məlumat verdi, şairə həsr olunmuş abidə və dəyərli sənət əsərlərindən ibarət videoçarxı nümayiş etdirdi.

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri tərəfindən hazırlanan Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin dünya dillərinə tərcüməsinə həsr olunmuş təqdimatları oldu.

Konfransın ilk günü iki paneldən ibarət olmaqla dahi şairə həsr olunmuş müxtəlif çıxışlarla yekunlaşdı. Konfransın 2-ci günü isə müxtəlif xarici və yerli universitetlərdən dəvət olunmuş tərcüməçi, yazıçı və tənqidçilərin çıxışları ilə davam etdi. Konfrans 2 sessiyadan ibarət olmaqla 4 paneldə keçirildi.

Konfransda Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər – universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış etdi.

Beynəlxalq Nizami Gəncəvi konfransı haqqında ölkənin AZƏRTAC və digər informasiya portallarında, youtube kanalında,İran Mədəniyyət Mərkəzinin və Türkiyənin AtatürkUniversitetinin vebsaytlarında xəbərlər yayımlanmışdır.



Chairman of the Iranian Cultural Center Ali Purmarjan presented Nizami Ganjavi's "Khamsa" and bibliography elegantly printed in Iran to Professor, Academician Hamlet Isaxanli.

Director of the Carpet Museum of the University Afag Karimova gave information about the carpets woven on the basis of the works of Nizami Ganjavi, demonstrated a video of monuments and valuable works of art dedicated to the poet.

The faculty members of the Department of English Language and Literature delivered their presentations on translation of Nizami Ganjavi's works in "Khamsa" into world languages.

The first day of the conference consisted of two panels and ended with various speeches dedicated to the great poet. The second day of the conference continued with speeches by invited translators, writers and critics from various foreign and local universities. The conference was held in 4 panels consisting of 2 sessions.

At the conference, Khazar University's Chamber Orchestra (artistic director - head of the university's Music and Art Department, honored teacher, pianist Zulfiya Sadigov) performed a concert program featuring works by Azerbaijani and world composers.

News about the International Nizami Ganjavi Conference was broadcast on AZERTAC and the country's other information portals, on the YouTube channel, on the websites of the Iranian Cultural Center and Ataturk University in Turkey.







Berghof Foundation

BERGHOF FONDUNUN AVROPA BÖLMƏSİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞ

MEETING WITH HEAD OF EUROPE UNIT OF BERGHOF FOUNDATION

Dekabrın 8-də Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, dekanlar və departament müdirləri Berghof Fondunun Avropa bölməsinin rəhbəri Dr. Oliver Wolleh və fondun milli layihə koordinatoru Bəxtiyar Aslanov ilə görüşdülər. Görüşün məqsədi iki qurum arasında mümkün əməkdaşlığın müzakirəsi olub.

Dr. Wolleh iştirakçılara Cənubi Qafqazda sülh quruculuğu işləri, o cümlədən münaqişədən təsirlənmiş insanların şəxsi xatirələrini və münaqişənin müxtəlif aspektləri ilə bağlı fikirlərini bölüşmək üçün bir araya gəldiyi seminarlar haqqında məlumat verib. Almaniyanın Berlin şəhərində yerləşən Berghof Fondu münaqişənin transformasiyası yolu ilə sülhün bərqərar olmasını təşviq edən müstəqil təşkilatdır.

Görüşdə dosent Elza Səmədova (Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı), Dr. Səidə Şərifova (Elm, incəsənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı), Dr. Ceyhun Məmmədov (İqtisadiyyat və menecment fakültəsinin dekanı), Dr. Fərid Quliyev (Siyasi elmlər və fəlsəfə departamentinin müdiri) və Cavid Cəfərov (Təhsil departamentinin koordinatoru) iştirak ediblər.

On December 8, Rector of Khazar University Assoc. Prof. Irada Khalilova and university administration met with Dr. Oliver Wolleh, Head of the Europe Unit of the Berghof Foundation and its national project coordinator Mr. Bakhtiyar Aslanov. The purpose of the meeting was to discuss possible collaboration between the two institutions.

Dr. Wolleh informed the participants about their peace-building work in the South Caucasus including workshops where people affected by conflict come together to share their personal memories and views on various aspects of the conflict. Based in Berlin, Germany, the Berghof Foundation is an independent organization working to promote peace-building through the conflict transformation.

The meeting was attended by Assoc. Prof. Elza Samadova (Dean of the School of Humanities, Education and Social Sciences), Dr. Saida Sharifova (Dean of the Graduate School of Science, Art and Technology), Dr. Jeyhun Mammadov (Dean of the School of Economics and Management), Dr. Farid Guliyev (Head of the Political Science and Philosophy Department), and Javid Jafarov (Coordinator of the Education Department).

UniLab LAYİHƏSİ TƏRƏFDAŞLARI İLƏ VİRTUAL GÖRÜŞ

VIRTUAL MEETING WITH *UniLab* PROJECT PARTNERS

Dekabrın 14-də Xəzər Universitetinin tərəfdaş olduğu Erasmus+ UniLab layihəsi çərçivəsində tərəfdaş universitetlərin növbəti virtual görüşü keçirildi. Görüş Erasmus+ UniLab layihəsinin koordinatoru Carme Royo`nun iştirakçıları salamlaması ilə başladı. Sonra görüş Rusiyanın Sibir Federal Universiteti və Maliyyə Universiteti, Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti nümayəndələrinin çıxışı ilə davam etdi.

Erasmus+ UniLab layihəsinin koordinatoru Carme Royo iştirakçılara növbəti görüşlər və işlər barədə məlumat verdi.

Görüşdə həmçinin tərəfdaşlar arasında müzakirələr aparıldı.UniLab layihəsinin virtual görüşündə Xəzər Universitetini İnkişaf Mərkəzinin əməkdaşları Səbinə Guliyeva və Elnurə Əhmədzadə təmsil etmişlər.

On December 14, the next virtual meeting of partner universities was held within the Erasmus+ UniLab project, in which Khazar University is a partner. The meeting began with a greeting from Carme Royo, Erasmus+ UniLab Project Coordinator. Then the meeting continued with the speeches of the representatives of Siberian Federal University of Russia and the University of Finance, the Austrian IMC University of Applied Sciences Krems.

Then Carme Royo, Erasmus+ UniLab project Coordinator, informed the participants about the next meetings and activities.

Khazar University was represented at the virtual meeting of the UniLab project by Sabina Guliyeva and Elnura Ahmadzadeh, representatives of the Development Center.

ERASMUS+ MƏLUMAT GÜNÜ KEÇİRİLDİ

Dekabrın 15-də Milli Erasmus Ofisinin rəhbərliyi ilə Azərbaycan Texniki Universitetində Erasmus+ Məlumat günü keçirildi.

Tədbirdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və ölkə universitetlərindən nümayəndələr, o cümlədən Xəzər Universiteti Karyera Mərkəzinin koordinatoru Elnurə Əhmədzadə və İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quluyeva iştirak edirdilər.

Azərbaycan Texniki Universitenin professoru Sübhan Namazovun giriş sözündən sonra Milli Erasmus Ofisinin rəhbəri Pərviz Bağırov gündəlikdə duran məsələləri iştirakçıların nəzərinə çatdırdı, qarşıda duran vəzifələrdən və yeniliklərdən bəhs etdi

Təhsil Nazirliyinin əməkdaşı Vüsalə Qurbanova çıxış edərək, Erasmus proqramı üzrə 2021-2027-ci illəri əhatə edəcək proqramla əlaqədar nazirliyin prioritet sahələrindən danışdı və qeyd etdi ki, nazirlik yerli universitetlərə bu sahədə dəstək olmağa hazırdır.

Tədbir sual-cavab sessiyası ilə yekunlaşdı.

ERASMUS+ INFORMATION DAY HELD

On December 15, Erasmus+ Information Day was held at Azerbaijan Technical University under the leadership of the National Erasmus Office.

The event was attended by representatives from the Ministry of Education of the Republic of Azerbaijan and the country's universities, including Elnura Ahmadzadeh, Coordinator of the Khazar University Career Center, and Sabina Guliyeva, Project Manager of the Development Center.

After the introductory speech of the professor of Azerbaijan Technical University Subhan Namazov, the head of the National Erasmus Office Parviz Bagirov informed the participants about the issues on the agenda, spoke about the tasks and innovations. Vusala Gurbanova, the staff member of the Ministry of Education, spoke about the priority areas of the ministry in connection with the Erasmus program, which will cover 2021-2027, and noted that the ministry is ready to support local universities in this area. The event ended with a question and answer session.



SEMİNAR: "PEŞƏKAR MÜHASİB SERTİFİKATI"

SEMINAR: "PROFESSIONAL ACCOUNTANT CERTIFICATE"

Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsi Milli Mühasiblər Forumu ilə əməkdaşlıq çərçivəsində dekabrın 12-də Xəzər Universitetinin Mərkəz kampusunda "Peşəkar Mühasib Sertifikatı" seminarı təşkil etmişdir.

Seminar bu mövzuları əhatə etmişdir: peşəkar mühasibin bu günü və gələcəyi; Peşəkar Mühasib Sertifikatı (PMS) imtahanının nəticələri; PMS imtahanında açıq test tapşırıqlarının qiymətləndirilməsi və məsləhətlər; PMS imtahanlarına hazırlıq prosesi.

Mühasiblərin daha dərindən maariflənməsi üçün mühasibat uçotu sahəsinin peşəkar mütəxəssisləri qeyd olunmuş mövzularda çıxış edərək, iştirakçıların suallarını cavablandırmışlar: İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezidenti Radil Fətullayev; Bakı Mühəndislik Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Tədris işləri üzrə dekan müavini Dr. Elsəvər İbadov; Bakı Mühəndislik Universitetinin Mühasibat uçotu və audit kafedrasının müdiri Dr. Firudin Sultanov; İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzində baş müəllim və vergi xidməti müşaviri Fariz Yadigarov; Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və mühasibat fakültəsinin dekan müavini Dr. Abulkərim Sadıqov; Gənc Mühasiblər İctimai Birliyinin sədri Solmaz Əliyeva; "Avrora Qrup"unun layihə meneceri və BRİDGE akademiyasının ACCA üzrə müəllimi Simnar Paşazadə; Bakı Hesabat Mərkəzinin direktoru, audit üzrə mütəxəssis Mehdi Babayev.

Tədbir mütəxəssislərin və iştirakçıların müzakirələri ilə davam etmiş və müxtəlif təkliflər verilmişdir.

On December 12, Khazar University's School of Economics and Management organized a "Professional Accountant Certificate" seminar in cooperation with the National Accountants Forum, at Khazar University's Central Campus.

The seminar covered the following topics: present and future of a professional accountant; results of the Professional Accountant Certificate (PAC) exam; evaluation and counseling of open test assignments in the PAC exam; the process of preparing for PAC exams.

In order to raise the awareness of accountants, accounting professionals spoke on the mentioned topics and answered the questions of the participants: Radil Fatullayev, Vice President of the Center for Economic Research and Training; Dr. Elsever Ibadov, Deputy Dean for Academic Affairs, Faculty of Economics and Management, Baku Engineering University; Dr.Firudin Sultanov, Head of the Department of Accounting and Auditing, Baku Engineering University; Fariz Yadigarov, senior teacher and tax service adviser at the Training Center of the State Tax Service under the Ministry of Economy; Dr. Abulkarim Sadigov, Deputy Dean of the Faculty of Finance and Accounting, Azerbaijan State University of Economics; Chairman of the Young Accountants Public Union Solmaz Aliyeva; Simnar Pashazadeh, Aurora Group Project Manager and ACCA Lecturer at BRIDGE Academy; Director of Baku Reporting Center, audit specialist Mehdi Babayev.

The event continued with discussions of experts and participants and various proposals were made.


PEŞƏKAR MÜHASİB SERTİFİKATI
SEMİNARI


XƏZƏR
KHAZA









TÜRK ƏDƏBİYYAT VƏQFİNİN BAŞQANI SERHAT KABAKLI`NIN PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI İLƏ GÖRÜŞÜ

MEETING OF HEAD OF THE TURKISH LITERATURE FOUNDATION SERHAT KABAKLI WITH PROFESSOR, ACADEMICIAN HAMLET ISAXANLI

Dekabrın 16-da Xəzər Universitetində Türk Ədəbiyyat Vəqfinin başqanı, şair Serhat Kabaklı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı ilə görüşdü.

Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli, "Türk Edebiyatı Dergisi"nin baş redaktoru, Türk Ədəbiyyat Vəqfinin başqan vəkili İmdat Avşar, türk iş adamı Kemal Acar, Azərbaycan Rüspublikası Müdafiə Sənayesi Nazirliyinin şöbə müdiri Şahalı Cəbiyev və türk ədəbiyyatı araşdırmaçısı, filologiya üzrə fəlsəfə doktoru Xəyalə Zərrabqızı iştirak etmişlər.

Görüşdə iki ölkənin elm xadimləri arasında fikir mübadiləsi aparılmış, gələcək əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

On December 16, the head of the Turkish Literature Foundation, poet Serhat Kabakli, met with Professor, Academician Hamlet Isaxanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees at Khazar University.

Rector of Khazar University Associate Professor, Irada Khalilova, Public Relations and Media Director Alovsat Amirbeyli, Editor-in-Chief of the Journal of Turkish Literature, Deputy Chairman of the Turkish Literature Foundation Imdat Avshar, Turkish businessman Kemal Acar, Head of the Department in the Ministry of Defense Industry of the Republic of Azerbaijan Shahali Jabiyev, researcher of Turkish literature, Doctor of Philosophy in Philology Khayala Zarrabgizi attended the meeting.

The scientists of the two countries exchanged views and discussed issues of future cooperation.

TƏLƏBƏLƏRİN SOCAR POLİMER ZAVODUNA SƏFƏRİ

STUDENTS' VISIT TO SOCAR POLYMER PLANT

Dekabrın 16-da Xəzər Universiteti Karyera Mərkəzi Neft Mühəndisliyi Cəmiyyətinin Xəzər Universiteti bölməsi (SPE Khazar University Chapter) ilə birgə SOCAR Polimer Zavoduna səfər təşkil edib. Səfərdə universitetin Neft-qaz mühəndisliyi və Kimya mühəndisliyi ixtisasları üzrə təhsil alan 12 tələbəsi, universitetin doktorantı və müəllimi Ehsan Cəfəri iştirak etmişlər.


SOCAR Polimer`in İctimayyətlə əlaqələr üzrə mütəxəssisi Bəxtiyar Allahverdiyev tərəfindən qarşılanan tələbələr öncə SƏTƏM Departamentində olmuş, departamentin işçisi Sənan Kərimov onları zavoddadkı təhlükəsizlik qaydaları, təcili vəziyyət halında vacib hərəkət sxemi haqda məlumatlandırıb.

Sonra tur istehsal zonasına doğru davam edib və Polypropylene (PP) sahə proses mühəndisi İsmayıl Əhmədov tələbələrə zavodun PP hissəsini və reaktor hissələrini göstərib. Polimerdən məhsul alınması prosesi onların marağına səbəb olub. Daha sonra tələbələrin mühəndislərlə müzakirələri baş tutub. Fəallıq göstərən 2 tələbəyə zavod adından hədiyyə təqdim olunub

On December 16, Khazar University Career Center together with the SPE Khazar University Student Chapter organized a field trip to the SOCAR Polymer. Twelve Oil and Gas and Chemical Engineering students and Ehsan Jafari, PhD in Petroleum Engineering, and lecturer at the university, attended the trip. The students who were greeted by Bakhtiyar Allahverdiyev, Public Relations Specialist of SOCAR Polymer, had previously visited the HSE Department, where they were briefed on plant safety rules and emergency response.

The tour then proceeded to the production zone, where Polypropylene (PP) field process engineer Ismail Ahmadov showed students the PP part of the plant and reactor parts. The process of obtaining polymer products aroused their interest. Then, the trip continued to the production area and Polypropylene (PP) Field Process Engineer Ismail Ahmadov showed the guests the PP part and reactor parts of the SOCAR Polymer. The process of obtaining polymer products aroused the interest of the participants. The participants had discussions with engineers.





PSİXOLOGİYA DEPARTAMENTİ ƏMƏKDAŞININ METODİK DƏRS VƏSAİTİ ÇAP OLUNUB

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın “Terapevtik ünsiyyətin əsasları” metodik dərs vəsaiti “Elm və Təhsil” nəşriyyatında çapdan çıxmışdır.

Kitabda psixoloji seanslarla bağlı aktual nəzəri və praktiki məsələlərə yer verilmişdir. Müəllif məzun və tələbələrin psixoloji konsultasiya ilə məşqul olduqları zaman üzləşdikləri suallara cavab verməyə səy göstərmişdir. Kitaba anonimlik və etik prinsiplər qorunmaqla real pasiyent ifadələri verilərək, praktiki çalışmalar daxil edilmişdir.

Kitab ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur və psixoloji konsultasiya dərsində metodik vəsait kimi istifadə oluna bilər. Dərs vəsaiti Xəzər Universiteti Elmi şurasının qərarı ilə çapa tövsiyə edilmişdir.

TEXTBOOK OF METHODICS BY THE EMPLOYEE OF DEPARTMENT OF PSYCHOLOGY PUBLISHED

Coordinator of the Department of Psychology, Khazar University, Malak Karimova’s “Fundamentals of Therapeutic Communication” textbook has been published by Science and Education publishing house. The book covers topical theoretical and practical issues related to psychological sessions. The author tried to answer the questions faced by graduates and students during psychological counselling. The book includes practical exercises that provide real patient cases while maintaining anonymity and ethical principles.

The book is intended for high school students and can be used as a methodological tool in the course of psychological counselling.

The textbook was recommended for publication by the Khazar University Academic Council.

"XƏZƏR"İN SABIQ MÜƏLLİMİNİN ŞEİRLƏR KİTABI ÇAP OLUNUB



Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin uzun illər ərzində müəllimi olmuş Lidiya Həmidova-Dmitriyevanın rus dilində "Deyəcəklərimin hamısı budur…" ("Вот все, что я хочу сказать...") adlı şeirlər kitabı Xəzər Universitetinin Nəşriyyatında nəfis şəkildə çapdan çıxmışdır.

Kitab müəllifin Xəzər Universitetində birgə çalışdığı 30 nəfərdən artıq əməkdaşa (rəhbərlik də daxil olmaqla) həsr etdiyi şeirlərdən ibarətdir. O, çoxillik müşahidəsi sayəsində hər kəsin davranış və xasiyyətindəki xarakterik cizgiləri qələmə almağa nail olmuşdur.

Kitab əməkdaşlar tərəfindən müəllifə minnətdarlıq hissi ilə əziz bir xatirə kimi maraqla qarşılanmışdır.

Kitabın redaktoru Xəzər Universiteti Multimedia Mərkəzinin direktoru Natella Barkaya, dizayneri "Dünya" məktəbinin rəssamı Rafiq Əbdürrəhimovdur.

BOOK OF POEMS BY FORMER KHAZAR UNIVERSITY FACULTY MEMBER PUBLISHED

A book of poems by Lidiya Hamidova-Dmitrieva, a longtime teacher at Khazar University's Department of English Language and Literature, in Russian, "That's all I want to say ..."("Вот все, что я хочу сказать...") has been elegantly published by Khazar University Publishing House.

The book consists of poems by the author dedicated to more than 30 staff members(including administration) at Khazar University. Through her many observations, she was able to record the characteristics of the behavior and character of each. The book was received with interest by the staff as a dear memory with gratitude to the author.

The editor of the book is Natella Barkaya, director of the Khazar University Multimedia Center, and the designer is Rafig Abdurrahimov, an artist at the Dunya School.

DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ "*TÜRKİYE*" QƏZETİNDƏ

ARTICLE BY DEPARTMENT HEAD IN "*TURKIYE*" NEWSPAPER

"*Türkiye*" qəzetinin 28 noyabr 2021-ci il tarixli sayında Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlunun Qarabağ müharibəsi sonrasında Türk Dövlətləri Təşkilatının daha da güclənməsi prosesi, Avrasiyada yaranan yeni geosiyasi reallıqlar kontekstində İranın Türk Dünyası siyasəti və Azərbaycanla münasibətləri haqqında geniş yazısı dərc edilmişdir.

In the November 28, issue of "*Turkiye*" newspaper, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu published an extensive article on the process of strengthening the Organization of Turkic States after the Karabakh war, Iran's Turkic world policy and relations with Azerbaijan in the context of new geopolitical realities in Eurasia.

https://m.turkiyegazetesi.com.tr/yazarlar/genis-aci-fikir-ve-tartisma/621684.aspx

İQTİSADİYYAT VƏ MENECMENT DEPARTAMENTİNİN ELMİ MƏQALƏSİ "*EMERGING SCIENCE JOURNAL*"DA

A SCHOLARLY ARTICLE BY THE DEPARTMENT OF ECONOMICS AND MANAGEMENT PUBLISHED IN *EMERGING SCIENCE JOURNAL*

İqtisadiyyat və Menecment fakültəsinin doktorant tələbəsi Mustafa Mohammad Alalawneh`in və fakültənin dekanı Dr. Ceyhun Məmmədovun "Birbaşa xarici investisiyalar, infrastruktur investisiyaları, turizm gəlirləri və iqtisadi artım arasında əlaqə: meqa tədbirlər nümunəsində" adlı elmi məqaləsi "Scopus" indeksli "Emerging Science Journal"da dərc edilmişdir (5-ci cild, sayı 6, 2021).

Tədqiqatın məqsədi 2006-cı il FIFA Dünya Çempionatına ev sahibliyinin 2000-2017-ci illər ərzində Almaniyanın iqtisadi artımına təsir dərəcəsini araşdırmaq olmuşdur.

We are delighted to announce that the scholarly article, titled "Nexus between FDI, Infrastructure Investment, Tourism Revenues, and Economic Growth: Mega Event Evidence" authored by Mustafa Mohammad Alalawneh, Ph.D. student of the Department of Economics and Management, and Dr. Jeyhun Mammadov, Dean of School of Economics and Management has been published in Emerging Science Journal indexed by Scopus (Vol 5, No 6, 2021).

The object of this study is to examine the response of economic growth in Germany to the 2006 FIFA World Cup hosting during the period 2000-2017.

https://www.ijournalse.org/index.php/ESJ/article/view/570

TRT

DEPARTAMENT MÜDİRİNİN TRT-DƏ YAZISI DƏRC OLUNUB

ARTICLE BY DEPARTMENT HEAD PUBLISHED ON TRT

2021-ci il noyabrın 18-də TRT-də "Qafqaz gündəmi" rubrikasında Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlunun növbəti yazısı yayımlanıb. Yazıda Türk Dövlətləri Təşkilatının yeni dünya nizamının formalaşmasındakı rolu, Türk dünyasının geniş sahələrdəki inteqrasiyasının perspektivi təhlil edilmişdir.

On November 18, 2021, TRT published another article by Telman Nusratoglu, Head of the History and Archeology Department, under the heading "Caucasian Agenda". The article analyzes the role of the Organization of Turkic States in the formation of a new world order and the prospects for the integration of the Turkic world in a wide range of areas.

https://www.trt.net.tr/azerbaycan/qafqazin-gund-mi/2021/11/18/turk-dovl-tl-ri-t-skilati-yeni-dunyanin-guc-m-rk-zl-rind-n-birin-cevrilir-1735316

DEPARTAMENT MÜDİRİNİN TRT SAYTINDA ANALİTİK MƏQALƏSİ

ANALYTICAL ARTICLE BY THE DEPARTMENT HEAD ON TRT WEBSITE

2021-ci il noyabrın 25-də Tarix və Arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlunun TRT-də "Brüsselin yeni təşəbbüsü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına müsbət təsir edə biləcəkmi?" başlıqlı analitik məqaləsi yayımlanmışdır. Məqalədə Ermənistan-Azərbaycan arasındakı sərhəd münaqişəsinin həllində Avropanın rolu, regionun yeni geosiyasi mənzərəsi içində Avropa-Rusiya rəqabəti təhlil edilmişdir.

On November 25, 2021, the head of the Department of History and Archaeology, Associate Professor Telman Nusratoglu, published an analytical article on TRT entitled "Will Brussels' new initiative have a positive impact on the normalization of Azerbaijani-Armenian relations?". The article studies the role of Europe in resolving the Armenian-Azerbaijani border conflict, European-Russian competition in the new geopolitical landscape of the region.

https://www.trt.net.tr/azerbaycan/qafqazin-gund-mi/2021/11/25/brusselin-yeni-t-s-bbusu-iki-olk-munasib-tl-rinin-normallasmasina-musb-t-t-sir-ed-bil-c-kmi-1737884



PORTUQALİYA

KOİMBRA UNİVERSİTETİNİN KİTABXANASI



ALLAH RƏHMƏT ELƏSİN!

"Dünya" məktəbi və Xəzər Universitetinin kollektivləri məktəbin kitabxana müdiri Mədinə Karahana həyat yoldaşı

Ali Karahanın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt "Dünya" məktəbi və Xəzər Universitetinin kollektivləri məktəbin direktoru Çiçək Qaracayevaya bacısı

Şahlıq Əhmədovanın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

QƏBUL QAYDALARI

DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. htt://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi
- Tarix və cografiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi